www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 iyul 2014-cü il Çərşənbə axşamı № 174 (5883) Qiymәti 40 qәpik

**Xəbər**

## Mingəçevirdə elçi gedən 4 nəfəri bıçaqladılar

yazısı səh.2-də

**Gündəm**

### Vəhhabinin saqqalını qırxan şəxs barədə həbs-qətimkan tədbiri seçildi



Rəmzi Zeynalov

İctimaiyyət isə dini radikalizm təhlükəsi ilə bağlı həyəcan təbili çalır; Arif Hacılı: "Cəmiyyət son dərəcə ehtiyatlı olmalıdır"

yazısı səh.12-də

### Elşad Abdullayevin keçmiş işçisinə cinayət işi açıldı

yazısı səh.3-də

### Biznesmen-rektorun "ailə universiteti"nin bağlanmasının şok təfərrüatları...

yazısı səh.6-da

### 3000 nəfərdən artıq ehtiyatda olan zabit təlimə çağırıldı

yazısı səh.2-də

### ABŞ-ın Ermənistandakı səfirinin Qarabağ açıqlamasına Azərbaycandan reaksiya

yazısı səh.9-da

### Prezidentin diplomatlarla görüşündə mühüm Qarabağ mesajları

yazısı səh.11-də

### Leyla Yunus istintaqa getmədi və prokurorluğu ittiham etdi

yazısı səh.8-də

### Məmurlar əyalətlərdə camaata zülm edir

yazısı səh.6-da

### Xocalı soyqırımında hər iki valideynini itirən Samir parklarda gecələyir

yazısı səh.2-də

### Furkan Azeri bu dəfə "Yeni Müsavat"ı hədələdi

yazısı səh.9-da

**Ramazan ayının 11-ci günü**

İftar 21.29. İmsaq (azan) 4.50 (QMİ-nin cədvəli)

11-ci günün duası: "İlahi, bu gün məni yaxşı əməllər etməyə həvəsləndir! Belə bir gündə, məndə günah və əxlaqsızlığa qarşı nifrət oyat! Mənə qəzəb və cəhənnəm atəşini haram et! Ey, pənahsızların ən ulu Pənahı!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Asfalt oliqarxları haqda ən son və şok məlumatlar

# ZİYA MƏMMƏDOVUN QÜRUBU - HƏZİN SON

Nəqliyyat şefi nazir postunda son itkilərini verir; Məmmədovların bir sıra böyük obyektləri, eləcə də "Trump Tower Baku" əllərindən alınıb, media layihəsinin üstündən isə birdəfəlik xətt çəkilib; onların ən böyük biznes ortağı olan "Hafka"nın həbsi xəbəri isə təkzib olunmur



yazısı səh.7-də

## Arif Əsgərovun xəstəxanasını yoxlayırlar

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Hesablama Palatasının auditorlarını "sakitcə yola salmaq" tapşırığını verib; dəmir yolu xəstəxanasının işçilərindən 500 manatdan 3 min manatadək "vergi" yığılır

yazısı səh.5-də



### "Hacı İbrahim Nehrəmli daha bir mükafata sahib oldu

yazısı səh.5-də



*Tənzilə Rüstəmxanlı:*

### "Bu gün Türkiyə öz sərhədlərini türklərə qapadıb"

yazısı səh.4-də



*Rauf Arifoğlu:*

### "Məmmədovları sanki şeytan qıdıqlayır"

yazısı səh.5-də

9 iyul 2014

YENİ MÜSAVAT
N 174 (5883) 9 iyul 2014



## Prezident Göyçayda yolun abadlaşmasına 2,4 milyon ayırdı

**Prezident İlham Əliyev "Göyçay rayonunun Cəyirli-Qızılağac-Yenikənd avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalayıb.**

"Qafqazinfo"nun xəbərinə görə, yeddi min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Cəyirli-Qızılağac-Yenikənd avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,4 milyon (iki milyon dörd yüz min) manatı Göyçay Rayon İcra Hakimiyyətinə ayrılıb. Maliyyə Nazirliyinə bu sərəncamda nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etmək, Nazirlər Kabinetinə isə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Xocalı soyqırımında hər iki valideynini itirmiş Samir parklarda gecələyir



**Modern.az saytı Xocalı soyqırımı zamanı hər iki valideynini itirmiş uşaqlardan (indi onların ən kiçiyinin 21 yaşı var-red.) ikisinin Gürcüstanda yaşadığı barədə məlumat vermişdi. Uzun axtarışdan sonra həmin gənclər-Samir və Sabir qardaşları tapılıb. Məlum olub ki, Samir Əlixan oğlu İbrahimov çox ciddi problemlər içində həyat sürür.**

Modern.az saytının redaksiyasına gələn Samir İbrahimov hazırda evi olmadığından axşamlar parklarda gecələdiyini söyləyib. Faktı moden.az-a Xocalı Rayon İcra Hakimiyyətinin Bakı şəhəri üzrə ərazi nümayəndəliyi də təsdiqləyib.

Xocalı soyqırımı zamanı 6 yaşı olmuş həmsöhbətimiz qardaşı Sabirlə birgə 2008-ci ilə qədər ana babasının yanında - Borçalıda yaşayıb. Əsgərlik yaşına çatanda isə Azərbaycana gələrək, Füzuli bölgəsində hərbi xidmət keçib. Həmin ərəfələrdə babası və nənəsi rəhmətə gedib. Bundan sonra o, Azərbaycanda yaşamağa qərar verib. Müəyyən müddət anasının qohumları ilə birgə yaşayan Samir bir ilə yaxındır ki, onların evini tərk etməli olub. Müxtəlif vaxtlarda kirayədə yaşayan bu gənc maddi sıxıntı ucbatından həyat yoldaşı və 2 uşağından da ayrılıb.

Günün sonunda məlumat aldıq ki, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin Xocalı rayon təşkilatı Samir İbrahimova gecələmək üçün öz mənzil qərargahında şərait yaradıb. Xocalı Rayon İcra Hakimiyyətindən isə bildirilib ki, yaxın zamanlarda bu qardaşlar evlə təmin olunacaqlar. Onu da qeyd edək ki, bu iki qardaş indiyə kimi məcburi köçkünlərə verilən "çörəkpulu"ndan da yararlana bilməyiblər.

Samir İbrahimovun 6 yaşından bu yana başına gələnlər, ata-anasını hansı şəraitdə itirməsi, əsirlik günləri, valideyn nəvazişindən uzaq həyatı ilə tanış olmaq istəsəniz dünən onun modern.az-da yerləşdirilən geniş müsahibəsini oxuyun.

### Başsağlığı

**Müsavat Partiyasının başqanı İsa Qəmbər və partiyanın Divanı müsavatçı xanım**
**Könül Hüseynlinin**
**vəfatından kədərləndiyini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyasının başqanı İsa Qəmbər və partiyanın Divanı müsavatçı**
**Əli Əhmədovun**
**vəfatından kədərləndiyini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

## 3000 nəfərdən artıq ehtiyatda olan hərbi vəzifəli təlimə çağırılıb



**Dövlət başçısının rəhbərliyi ilə keçirilən birgə əməliyyat-taktiki təlimlərin davamı olaraq iyulun 7-dən Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrinin cəbhə bölgəsində irimiqyaslı təlimləri keçirilir.**

Bu barədə APA-ya Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Təlimlərin yeni mərhələsində birlik, birləşmə və hərbi hissələrin döyüş hazırlığı, qoşunların yürüş qabiliyyəti, döyüş tətbiqi imkanları, həmçinin şəraitə və qabaqcadan hazırlanmamış əraziyə uyğun olaraq döyüş elementlərinin qarşılıqlı əlaqələndirilməsi məsələlərinin öyrənilməsi və praktiki istifadəsi yerinə yetirilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bilavasitə rəhbərliyi ilə keçirilən təlimlərə 10000 nəfərdən artıq şəxsi heyət, 300-dən çox zirehli texnika, raket-artilleriya qoşunlarının 100-dən çox qurğusu, 20-dək aviasiya və 15-dən çox hava hücumundan müdafiə sistemləri cəlb olunub.

Təlimlərdə zirehli texnikalardan, artilleriya qurğularından, zenit-raket komplekslərindən, müxtəlif çaplı silahlardan, təyyarə və helikopterlərdən praktiki döyüş atışları icra edilir.

Müdafiə Nazirliyinin sifarişinə uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə və şöbələri tərəfindən 3000 nəfərdən artıq ehtiyatda olan hərbi vəzifəli təlimlərə çağırılıb. Onların hərbi uçot məsələləri ilə bağlı tədbirlər təşkil edilib, səfərbərlik hazırlığı və səfərbərlik üzrə çağırış dövrü üçün planlar dəqiqləşdirilib, yaradılması nəzərdə tutulan yeni hərbi hissələrin şəxsi heyətlə komplektləşdirilməsi və çatışmayan heyətlə tam komplektləşdirilməsi qarşılıqlı şəkildə və yüksək səviyyədə həyata keçirilib. Eyni zamanda təlimlərə ehtiyatdan cəlb edilmiş hərbi vəzifəlilərlə döyüş hazırlığı, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının səviyyəsinin yüksəldilməsi, silah və hərbi texnikadan istifadə qaydaları mövzusunda təlim-məşqlər keçirilir.

Təlimlərə iyulun 10-da Bakı şəhərində təlim rəhbərliyinin və komandanlıq heyətinin ümumi toplantısı ilə yekun vurulacaq.

## Milli Mətbuat Günündə mükafatlar paylanacaq

### Redaksiyalara pul verilməsi nəzərdə tutulmayıb

**Bu il Milli Mətbuat Günündə KİV-in İnkişafına Dövlət Dəstəyi Şurası ilə Mətbuat Şurasının ənənəvi bayram tədbiri keçiriləcək. Bu barədə "Yeni Müsavat"a açıqlamasında MŞ sədri Əflatun Amaşov bildirdi. Onun sözlərinə görə, hazırda tədbirlə bağlı bəzi detallar dəqiqləşməyib, son hazırlıq işləri tamamlanır. Bu səbəbdən də bayramın keçiriləcəyi məkan, saat, eləcə də bəzi detallar dəqiq deyil.**

Amma 22 iyulda keçiriləcək bayram tədbirində jurnalistlərin mükafatlandırılacağı gözlənilir. Bu mükafatlar KİVDF-nin jurnalist müsabiqəsinin qalibləri üçün nəzərdə tutulub. Bundan başqa, bir çox jurnalistlərə Ali Media Mükafatı da veriləcək. Hələ ki Ali Media Mükafatının qalibləri bəlli deyil. Bununla bağlı müzakirələr aparılır.

Müsahibimiz dedi ki, bayram münasibətilə redaksiyalara birdəfəlik yardım ayrılması nəzərdə tutulmayıb. Ə.Amaşov dedi ki, bu ənənə KİVDF yaranana qədər mövcud idi. Amma daha sonra sözügedən qurumun yaranması ilə ildə iki dəfə redaksiyalara yardım ayrıldı və Milli Mətbuat Günündə yardım qüvvədən düşdü.

Xatırladaq ki, Mətbuat Şurasının təsis etdiyi Ali Media Mükafatının ötənilki laureatları aşağıdakılar olub: 1-ci dərəcəli Ali Media Mükafatı Bakı Dövlət Universitetinin professoru Cahangir Məmmədliyə, 2-ci dərəcəli Ali Media Mükafatı Elçin Mirzəbəyli ("Xalq Cəbhəsi" qəzeti), Bəhruz Quliyev ("Səs" qəzeti) və Tapdıq Abbasa ("Paralel" qəzeti), 3-cü dərəcəli Ali Media Mükafatı İsaməddin Əhmədov (Zərdabın "Əkinci" qəzeti), Yusif Rzayev ( "525-ci qəzet"), İlqar Rüstəmov ("Xalq qəzeti"), Bəxtiyar Qaraca ("Azərbaycan" qəzeti) və Xalid Niyazova ("Respublika" qəzeti) verilib.

❑ **Sevinc TELMANQIZI**

## "7 rayon təcili Azərbaycana qaytarılmalıdır"



Riçard Morninqstar

**Belə bir bəyanatla Amerika Birləşmiş Ştatlarının (ABŞ) Azərbaycandakı səfiri Riçard Morninqstar publika.az-a eksklüziv açıqlamasında bildirib. Səfir bəyan edib ki, ölkəsi Dağlıq Qarabağın sülh yolu ilə həlli ilə bağlı çox açıq mövqe bildirib:**

"Mövqeyimiz də ondan ibarətdir ki, Dağlıq Qarabağ istisna olmaqla, hazırda 7 işğal altında olan Azərbaycan rayonları geri qaytarılmalıdır. Bütün bunlar isə bilavasitə Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin tərkib hissəsi olmalıdır.

Ümumiyyətlə, artıq Dağlıq Qarabağ müanqişəsinin yekun həlli yolu tapılmalıdır. Biz artıq bu barədə bəyanatlarımızı da vermişik".

**R.Morninqstar Azərbaycan və Ermənistan prezidentlərinin Parisdə keçirilməsi nəzərdə tutulan görüşü ilə bağlı məsələni də şərh edib:**

"Mən ümid etmək istərdim ki, bu görüş Parisdə baş tutacaq. Hazırda isə bu görüşün baş tutacağı barədə danışmaq erkən olardı. Çünki bu görüşün tarixi hələ ki bəlli deyil. Sadəcə olaraq, onu düşünürəm ki, belə görüş çox faydalı olardı. Yəni iki prezident bilavasitə Parisdə görüşərək Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müzakirələr apardı və bu problemin həlli barədə konkret danışardılar. Ancaq hələ ki məndə bu görüşün təfərrüatı barədə hər hansı məlumat yoxdur. Düşünürəm ki, prezidentlər özləri bu görüşün təşkilinə razılıq verəcəklər və daha sonra da görüşün vaxtı müəyyənləşəcək".

Xatırladaq ki, ABŞ-ın Ermənistandakı səfiri Con Heffern bəyan edib ki, Dağlıq Qarabağın Azərbaycana qaytarılması məsələsinin yekun həll zamanı müəyyənləşəcək.

**O, hazırda əsas müzakirə mövzusunun tərəflər arasında hansı sülhməramlı qüvvələrin yerləşdirilməsinin müəyyənləşdirilməsi ilə bağlı olduğunu deyib:**

"Altı razılaşdırılmış elementə əsasən, Dağlıq Qarabağın son statusu azad iradə əsasında bəlli olacaq. Bundan sonra isə Dağlıq Qarabağ ətrafındakı rayonlar, Laçın istisna olmaqla, geri qaytarılacaq. Məsələ burasındadır ki, hansı ölkə və təşkilatın güclərinin burada sülhməramlı qüvvə kimi yerləşdirilməsi hələlik tərəflər arasında müzakirə mövzusudur".

## Mingəçevirdə elçiliyə gedən 4 nəfəri bıçaqladılar

**Mingəçevirdə 4 nəfərin bıçaqlanmasının təfərrüatları bəlli olub. İyulun 7-də saat 22:30-da Mingəçevirdə əsgərlikdən yeni gələn Fərid Hasilovun evlənmək arzusu yarımçıq qalıb. Mingəçevir Şəhər Polis Şöbəsindən ANS-ə verilən məlumata görə, 24 yaşlı Fərid Hasilov yenicə hərbi xidmətdən qayıdıb və qonşuluqda sevdiyi qıza elçi gediblər. Elçilik uğursuz olub və onlara qız verilməyib.**

Gecə Fərid Hasilov 23 yaşlı qardaşı Cavid Hasilov, dostu 25 yaşlı Elnur Əzimov və anası 47 yaşlı Amaliya Hasilova ilə birlikdə məsələyə aydınlıq gətirmək istəyib. Bu zaman sevdiyi qızın qohumları 1989-cu il təvəllüdlü Zaur Rəsulovla qarşılaşıblar. Sonradan danışıq mübahisəyə çevrilib.

Nəticədə 3 nəfər Zaur Rəsulovla dalaşıblar. Döyüldüyünü görən Zaur Rəsulov bıçağa əl atıb. O, hər 3 gənci və qardaşların anasını bıçaqlayıb.

Bıçaqlanan 4 nəfər ağır bədən xəsarətləri ilə Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasına yerləşdirilib. Hadisəni törədən şəxs saxlanılıb.

## Kimlər sərxoş sayılacaq? - yeni qaydalar

**Nazirlər Kabineti "Nəqliyyat vasitəsini idarə edən şəxsin sərxoşluq vəziyyətinin müəyyən edilməsi Qaydaları"nı təsdiq edib.**

Fins.az-ın məlumatına görə, qaydalara əsasən, sürücülərin nəfəsindən alkoqollu içki qoxusu gəldikdə, onlar ayaq üstə sərbəst dayana və yaxud özlərini idarə edə bilmədikdə onun sərxoş olub olmadığı yoxlanılmalıdır. Bu məqsədlə alkotester və narkotester kimi texniki alətlərdən istifadə oluna bilər.

Əgər yoxlanılan şəxsin qanında alkoqolun konsentrasiyası 0,3 promilli və daha artıq olsa və yaxud narkotik vasitələr, psixotrop və digər güclü təsir edən maddələrin qəbul etdiyi üzə çıxsa, həmin adam sərxoş hesab ediləcək və İnzibati Xətalar Məcəlləsinin 406-cı maddəsinə əsasən onunla bağlı protokol tərtib olunacaq. Protokol iki nüsxədə tərtib olunur-biri polisdə, digəri sürücüdə qalır.

Bununla belə, sürücünün sərxoş vəziyyətdə olub-olmamasını müəyyən etməyə imkan verməzsə və yaxud xüsusi texniki vasitə ilə müayinənin nəticəsindən narazı qalaqsa, amma onun sərxoş olduğu hiss edilərsə, həmin şəxs tibbi müayinəyə göndəriləcək. Qaydalara əsasən, tibbi müayinə yalnız narkoloji xidmət göstərən dövlət tibb müəssisəsinin həkim-narkoloqu tərəfindən həyata keçirilir.

Həkim-narkoloq 3 nüsxədən (əsli və surəti) ibarət tibbi müayinə aktı tərtib edir. Aktda yoxlanılan şəxs barədə məlumatlar *(adı, soyadı, atasının adı, doğulduğu tarix, sürücülük vəsiqəsinin nömrəsi),* müayinə aparılması barədə qərar qəbul edən orqanın adı və müayinənin səbəbi göstərilir. Müayinənin nəticələri aktda qeyd olunur və aktın bir surəti müayinə edilən şəxsə, bir surəti isə onu müayinəyə təqdim etmiş vəzifəli şəxsə təqdim edilir.

Müayinə olunan şəxs tibbi müayinənin nəticəsi ilə razı olmasa, o, təkrar tibbi müayinənin keçirilməsi barədə müraciət edə bilər. Bu halda tibb müəssisəsinin rəhbəri təkrar tibbi müayinənin həkim-narkoloqlar tərəfindən təşkil edilən komisyon qaydada aparılmasına qərar verməlidir.

## Azərbaycanlılar İŞİD-ə qarşı peşəkar ordu yaratdı

**Türkmən azərbaycanlıları İŞİD-ə qarşı peşəkar ordu yaratdı. Publika.az xəbər verir ki, sosial şəbəkələrdə yayılan foto "Bu igidlər qardaşları Türkiyə və Azərbaycan tərəfindən İŞİD və Bərzani peşmərgələri qarşısında yalnız qoyulan Kərkük Türkmanları Tuqayıdır" qeydi ilə paylaşılıb.**

Qeyd edək ki, Kərkük türkmanları bundan əvvəl İŞİD-ə qarşı pərakəndə halda döyüşürdü. Buna səbəbsə onların indiyə qədər hərbi təlim keçməməsi olub. Yayılan fotoda isə kifayət qədər peşəkar hərbi birləşmə təəssüratı yaranır.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Elşad Abdullayevin keçmiş işçilərini bir-bir "dənləyirlər"

## ABU-nun sabiq dekanına qarşı cinayət işi açıldı

**Fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universitetinin müvafiq fakültələrinə qanunsuz köçürülmə, ali təhsil haqqında diplomların verilməsində həmin universitetin vəzifəli şəxsləri tərəfindən törədilmiş korrupsiya faktlarının araşdırılması üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaq-əməliyyat tədbirləri davam etdirilir.**

Baş Prokurorluqdan "Yeni Müsavat"a verilən məlumata görə, istintaq zamanı Mahmud Əfəndiyevin Azərbaycan Beynəlxalq Universitetinin neft-qaz yataqlarının istismarı və işlənməsi fakültəsinin dekanı vəzifəsində işləyərkən universitetin rektoru Elşad Abdullayev və qeyriləri ilə qabaqcadan əlbir olub bəzi qanunsuz addımlar atdığı bəlli olub. Həmçinin Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının xətti ilə imtahan verərək ali məktəblərə qəbul olmayan ayrı-ayrı şəxslərin Mahaçqala şəhərində yerləşən ali təhsil müəssisələrinə tələbə kimi qəbul olunmaları və təhsil almaları barədə bilə-bilə yalan məlumatlar daxil etməklə rəsmi sənədlər tərtib ediblər.

Bundan başqa, Təhsil Nazirliyinin razılığı olmadan II kursdan Azərbaycan Beynəlxalq Universitetinə köçürülmələri üçün ayrı-ayrı şəxslərdən ümumilikdə 40 min 500 manat məbləğində külli miqdarda rüşvət almasında şübhələr üçün əsaslar olduğundan ona Cinayət Məcəlləsinin 308.2 (*ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə*), 311.3.1 (*qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən rüşvət alma*) və 311.3.3-cü (*külli miqdarda rüşvət alma*) maddələrində nəzərdə tutulan ittiham elan edilib.



Cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Məlumatda xatırladılır ki, Elşad Abdullayev və qeyriləri barədə cinayət işi ayrıca icraata ayrılıb.

"Yeni Müsavat" isə xatırladır ki, bu ilin aprel ayında da Azərbaycan Beynəlxalq Universitetinin (ABU) saxta diplomunun satılması faktı aşkar edilmişdi. Bakı şəhər sakini Həsən Xəlilov universitetə məxsus saxta diplomu 10000 ABŞ dollarına satarkən saxlanılmışdı. Ümumiyyətlə, istintaq orqanları E.Abdullayevin özünə qarşı cinayət işi açmaqla yanaşı, onun keçmiş işçilərini də bir-bir "dənləməklə" məşğuldur. Məqsəd həbs edilən şəxslərin hər birindən E.Abdullayevə qarşı tutarlı ifadələr almaq, onun gələcəkdə həbsi ehtimalında dolğun dosye hazırlamaqdır. Bundan başqa, indiki halda E.Abdullayevi heç bir halda ölkəyə gətirə bilməyən prokurorluq onun yaxın ətrafını həbs etməklə "ABU olaylarının" əslində ciddi qanun pozuntusu olması mesajını da cəmiyyətə ötürmək istəyir.

**"Yeni Müsavat" gün ərzində bu həbslə bağlı E.Abdullayevin mövqeyini öyrənməyə çalışsa da, buna nail ola bilmədi. Sabiq rektorun mövqeyini işıqlandırmağa hazırıq.**

❑ **Sevinc TELMANQIZI**

# "Gürcüstan səfərində hamımız təhlükə altında olmuşuq"

## Akif Nağı: "Sadəcə, gürcü hökuməti nisbətən yüngül variantı seçib və məni ölkəyə buraxmayıb"

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağının Bakıda səfərdə olan Gürcüstan parlamentinin sədri David Usupaşviliyə ünvanladığı məktub Gürcüstanın Bakıdakı səfirliyinə təqdim edilib.**



QAT İdarə Heyətinin üzvü Nəsib Cəfərov məktubu səfirliyə şəxsən təqdim edib. Onu səfirin müavini İrakli Svanidze və digər iki diplomat qəbul edib. Xatırladaq ki, məktubda QAT sədri Akif Nağının Gürcüstan üçün arzuolunmaz şəxs elan edilməsi, erməni təxribatı və digər məsələlərlə bağlı suallara cavab verilməsi istənilir. **Məktubda deyilir:** "Bakıda səfərdə olmağınızdan istifadə edərək Azərbaycan - Gürcüstan münasibətlərinə xələl gətirəcək bir məsələ ilə bağlı Sizə müraciət edirik. Belə ki, Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı bir ay bundan əvvəl heç bir səbəb gətirilmədən Gürcüstan üçün arzuolunmaz şəxs elan edilib. O, bu il iyunun 6-da Türkiyəyə səfərdən qayıdarkən Gürcüstanın Sarpi keçid məntəqəsindən buraxılmayıb. Biz Naxçıvan vasitəsilə Bakıya qayıtdıqdan sonra Gürcüstanın xarici işlər nazirinə, Gürcüstanın Azərbaycandakı səfirliyinə müraciət etmişik, lakin heç bir rəsmi cavab almamışıq. Əldə etdiyimiz qeyri-rəsmi məlumatlara görə, bu, Akif Nağı başda olmaqla, Qarabağ Azadlıq Təşkilatının bir qrup üzvünün bu il mayın 14-dən 21-dək Gürcüstana səfəri, orada müxtəlif görüşləri ilə bağlıdır. Bizə belə bir xəbər çatıb ki, guya bizim oraya səfərimiz Gürcüstan - Ermənistan münasibətlərinə xələl gətirə bilər. Nəzərinizə çatdırırıq ki, biz Gürcüstana səfərlər çərçivəsində yerli parlamentarilərlə, QHT-lərlə, elm adamları ilə, sadə insanlarla görüşmüş, regionda sabitlik və inkişaf üçün təhlükə təşkil edən münaqişələrdən danışmışıq. Bunun hansısa münasibətlərə mənfi təsir edə biləcəyini isə başa düşmürük".

**Gürcü spikerə müraciətdə daha sonra deyilir:** "Biz Azərbaycan - Gürcüstan münasibətlərinin bütün istiqamətlərdə inkişafının tərəfdarıyıq və bizim səfərlər bu münasibətlərin möhkəmləndirilməsinə xidmət edir. Bizim Gürcüstana səfərlərimizin Gürcüstan - Ermənistan münasibətlərinə zərər vura biləcəyini güman etmirik. Amma təşkilatımızın sədrinin və üzvlərinin Gürcüstana girməsinə hökumətiniz tərəfindən qadağa qoyulması Azərbaycanla Gürcüstan arasındakı xoş münasibətlərə heç cür yaraşmır və bu münasibətlərə xələl gətirə bilər. Xahiş edirik bu məsələnin aydınlaşdırılması üçün təşəbbüs edəsiniz".

Bütün bu müəmmalar ətrafında müzakirələr aparıldıqdan sonra səfir müavini deyib ki, məsələ araşdırılacaq və yaxın günlərdə rəsmi cavab veriləcək.

**QAT sədri A.Nağı "Yeni Müsavat"a açıqlamasında dedi ki, Gürcüstanda şəxsən ona və rəhbərlik etdiyi qrupa qarşı təxribat planlarının hazırlandığı barədə məlumat alıb:** "Bizim hamımıza qarşı bir neçə variant hazırlanıbmış. Gürcüstan səfərində hamımız təhlükə altında olmuşuq. Sadəcə, gürcü hökuməti nisbətən yüngül variantı seçib və məni ölkəyə buraxmayıb. Bizi döyməklə, tutub həbsdə 5-10 gün saxlamaqla bağlı da variantlar olub. Görünür, Tiflis Bakı ilə münasibətləri gərginləşdirmək istəməyindən və Ermənistanın ölkədəki kəşfiyyatının məqsədlərindən duyuq düşdüyündən məni ölkəyə buraxmamağa qərar verib".

Yeri gəlmişkən, sabiq polis rəisi Əlövsət Əliyev də facebook-da Gürcüstan hökumətinin QAT sədrinin ölkəyə girişini yasaqlamaqla onu qoruduğunu yazıb.

Qeyd edək ki, hələlik rəsmi Bakı A.Nağının Gürcüstana buraxılmamasına rəsmi münasibət bildirməyib.

❑ **ELŞAD**

# Sevənlər də olacaq, lənətləyənlər də...



**Hüseynbala SƏLİMOV**

**Hərənin öz vədəsi var. Gürcüstanın keçmiş birinci katibi və həm də keçmiş prezidenti Eduard Şevardnadze də vəfat etdi... Sovetlərin vaxtında onlara "pervıy"- "birinci" deyirdilər. Onlar da müəyyən mənada bunu doğrultdular. Həmişə, hətta diametral zidd epoxalarda da onlara birinci olmaq nəsib oldu...**

Bəzən bu "birincilik" qeyri-adi səylər hesabına başa gəlirdi. O vaxta qədər ki, onlar müxalifətdə idilər, ölkələrində gur siyasi toqquşmalar gedirdi, bəzən bu, hətta vətəndaş müharibəsi səviyyəsinə çatırdı.

Demirik ki, onlar hakimiyyətə gələndən sonra hər şey yerbəyer oldu. Yox, narahatlıq onda da vardı. Amma əvvəlki dövrlərlə müqayisə oluna bilməzdi. O vaxt bununla bağlı siyasi publisistlərdən biri maraqlı fikir yazmışdı. Yazmışdı ki, əvvəl qarışdıranlar daha qarışdırmır...

Amma nə olursa olsun, siyasətdə bütöv bir era bitmək üzrədir. Bəli, bir vaxt böyük siyasətin sükanını əlində saxlayan, tribunaları bəzəyən, millətlərin ümid yeri olan (bunu necə inkar edək?) insanlar əvvəlcə siyasətdən, indi də həyatdan gedirlər.

Tale sanki onlara iki dəfə şans vermişdi. Bir dəfə sovetlərə canişinlik etməklə onlar əslində böyük siyasətdə sözlərini demişdilər.

Bundan sonra dövrə və onların əməllərinə qiymət vermək qalırdı. Bu qiymətin necə olacağı bəlli idi. Bəli, yalnız tarixi məntiq hissini itirmişlər iddia edə bilərdilər ki, sovetlərin vaxtında həmin "birincilər" ölkələrinin müstəqilliyinə çalışır, hətta demokratiyanı inkişaf etdirirdilər...

Əslində məsələ tamam başqa cür idi. Ona görə ki, sovetin vaxtında onlar bir-iki beton bina tiksələr də daha çox öz millətlərinin binasını-istiqlaliyyət amalını sökənlər idi. Gələcək nəsillər də tarix dərsliklərində onların adı ilə rastlaşacağı halda ən yaxşı halda səhifəni çevirəcəkdilər.

Amma onlar bunun qarşısını aldılar, daha bir səhifə, daha bir şans açmağa müyəssər oldular. Hərçənd, hələ də yəqinləşdirmək mümkün deyil ki, onlar bu şansı nə məqsədlə əldə etdilər: millət qarşısındakı səhvlərini düzəltmək üçün, yoxsa özlərinin hakimiyyət ehtiraslarını təmin etmək üçün?

Amma eyni zamanda bir neçə Şevardnadze vardı. Almanlar üçün o, bir adam idi, gürcülər üçün tamam başqa, qeyriləri üçün isə tamamilə fərqli.

Bunu da inkar etmək çətindir... Məsələn, almanlar E.Şevardnadzeni Almaniyanın birləşməsində xüsusi rolu olan adam kimi dəyərləndirirlər. Hətta istefa verəndən sonra onu yaşamaq üçün Almaniyaya dəvət etmişdilər.

Sözsüz ki, Şevardnadzenin fərqli cəhətləri vardı-bunu da etiraf etmək qalır. Bəlkə də bu, Gürcüstanın fərqləri idi. İndi, bir xeyli keçəndən sonra belə bir etiraf etmək olar ki, bəlkə də Şevaqrdnadze həqiqətən də Gürcüstanı xilas etməyə gəlmişdi...

Kim bilir? Axı meydanda insanların onun qarşısında diz çökdükləri vaxt da olmuşdu! Bunu necə xatırlamayaq?..

Elə istefa verəndə də çox da xalqının ziddinə getmədi. Hətta özündə güc tapıb "Bizim inqilab ən gözəl inqilab idi" deyə də bildi.

İnqilab isə həqiqətən də gözəl idi. Nahaq yerə adına "qızılgül inqilabı" demirdilər ki!.. Adam özündən asılı olmadan, qeyri-ixtiyari olaraq Allahdan bu millətlərin zəhmətinin əvəzini verməyi diləmək istəyir. Bunu tamamilə səmimi deyirik.

Şevardnadze yerini öz nəslindən kiməsə vermək haqqında düşünmədi. Bəlkə istəsəydi o da bunu edərdi. Ya da buna bənzər nəsə edərdi. Amma etmədi.

O, Gürcüstanı sevirdi. O, öz Gürcüstanını sadəcə, Gürcüstan olduğu üçün sevirdi. Vətəni sadəcə, Vətən olduğu üçün sevə bilmək adamdan böyük mənəvi güc tələb edir.

Ona görə ki, bütün insanlar - hamımız təmənnalıyıq, bəzən sevgimizin kökündə hansısa təmənna dayanır... Bir də görürsən ki, özümüzdən çıxıb "Lazım deyil mənə belə Vətən!" də deyirik...

Özümüzə belə zəif anları bağışlayırıq. Amma digərlərinə bağışlamırıq. Bəli, istefa verəndən sonra Şevardnadze də gedib Avropada yaşayardı.

Amma getmədi, Gürcüstanda qaldı və nə yaxşı ki, gürcülərin də yetərincə müdrikliyi çatdı, onu çox çək-çevir etmədilər...

O, milli barışıq səmtində də addımlar atmağı bacardı. Hətta özünün və ətrafının birinci prezidentə - Z.Qamsaxurdiaya münasibətini də dəyişə bildi...

Ona görə də bizə bir söz demək qalır - həyatdan mürəkkəb bir adam getdi... Onu sevən də olacaq, unudan da, hətta bəlkə lənətləyən də... Siyasətdə başqa cür olmur da.

Məgər belə deyilmi?..

YENİ MÜSAVAT
N 174 (5883) 9 iyul 2014

**Yaxın coğrafiyalarda baş verən olaylar təbii olaraq Azərbaycana da təsirsiz ötüşmür. Sələfilərin İslam dünyasında yaratdığı gərginlik, bu təsirlə Azərbaycanda gərginləşən sələfi-şiə qarşıdurması, Türkiyənin parçalanması ilə bağlı gizli planlar, eləcə də Türkiyə-Ermənistan sərhədlərinin açılması ideyasının yenidən gündəmə gətirilməsi hələlik Azərbaycan rəsmilərinin gündəmini bir o qədər məşğul etmir. Qəribədir ki, bir çox vətəndaş cəmiyyəti institutları da susqundur. Azərbaycan Türkiyə Evinin başqanı Tənzilə Rüstəmxanlı "Yeni Müsavat"ın sadaladığımız məsələlərlə bağlı suallarına cavab verib.**

# "İhsanoğlu uçuruma gedən türk xalqı üçün ümiddir"

## Tənzilə Rüstəmxanlı: "Bu gün Türkiyə öz sərhədlərini türklərə qapadıb"

*- Tənzilə xanım, İraq vətəndaşının onsuz da düzəndə olmayan həyatını cəhənnəmə döndərən İŞİD Azərbaycana da ara-sıra hədələr yağdırır. Bakıda, bölgələrdə sələfi-şiə qarşıdurması yaşanır. Siz bu prosesin Azərbaycan üçün ciddi təhlükəyə çevriləcəyini güman edirsizmi?*

- Şübhəsiz. Bir zamanlar Türkiyənin PKK ilə danışıqlara gedəcəyi deyiləndə, çoxları deyirdi, nə danışırsız, ordu imkan verməz. Orduya elə bir güvən var idi ki, heç kim Türkiyə dövlətinin bölünməsinə qarşı hər hansı planın həyata keçəcəyini ağlının ucundan da keçirmirdi. Ancaq bir də gözümüzü açdıq ki, Türkiyə ordusunun dayağı olan onlarla general, yüzlərlə zabit həbs edilib, PKK isə siyasət gündəminə gətirilib. Türkiyəni nə günlərə gətirdilər? Bu təhlükə hər an var, üstəlik, getdikcə böyüyür. Dövlət də, cəmiyyət də bunun fərqində olmalıdır.

*- Yaxınlarda Türkiyədə prezident seçkiləri keçiriləcək. Proseslə, müxalifətin "çatı adayı" professor Ekmeleddin İhsanoğlu ilə bağlı nə düşünürsüz?*

- Türkiyə bizim ölkəmizdir. Kimsə mənə deyə bilməz ki, mən Türkiyəni səndən çox sevirəm. Bu, absurd olar. Ancaq mən Ərdoğan Türkiyəsini sevmirəm. Mən Ərdoğanın bu günlərə gətirdiyi Türkiyəni sevə bilmərəm. Bu gün bu sözləri ən azı ona görə deyirəm ki, sabah əlimi vicdanımın üstünə qoyub "mən zalımın yanında durmadım, mən türk xalqının yanında durdum" deyə bilim. Professor Ekmeleddin İhsanoğlu hər şeydən öncə bəyəfəndi, təmiz, şəffaf keçmişi olan dəyərli alimdir. Türkiyədə prezidentliyə 3 namizəddən yalnız İhsanoğlu bütün toplumu birləşdirə biləcək namizəddir. Siyasətdəki sol ilə sağı birləşdirən Ekmeleddin bəy bu günə qədər bir araya gəlməyən digər topluluqları da birləşdirə bilər. Bu gün Türkiyə toplumunun məhz bu keyfiyyətləri olan prezidentə ehtiyacı var. Bəzən onu siyasətdən uzaq şəxs adlandırırlar. Mən tamam əksini düşünürəm. O, Birləşmiş Millətlər Təşkilatından sonra ən böyük beynəlxalq təşkilat olan İslam Əməkdaşlıq Təşkilatına uzun illər rəhbərlik edən görkəmli bir diplomatdır. Bu təşkilata rəhbərlik etməsi həm onun dünyanı, həm də dünyanın onu tanımasına imkan yaradıb. Abdulla Gül prezident seçiləndə vətəndaş "dindar cümhurbaşkanımız oldu" demişdi. İhsanoğlu bir addım da öndədir - o, Quranı əzbər bilən hafizdir. Məncə, bu çox əzbərləri pozacaq. Onun çıxışlarını izləyirəm, dini siyasətə alət etməyəcək qədər dürüst insandır. Başqaları ancaq şeir oxuyanda Ekmeleddin bəy dünyanın nüfuzlu institutlarında dərslik olan onlarla elmi əsər yazdı, neçə-neçə dəyərli araşdırmaya müəlliflik edib. Bəziləri Orta Doğunun bugünkü fəlakəti halına memarlıq etdiyi zaman o, türk-ərəb və bütövlükdə İslam dünyasının inkişafı üçün ömrünü xərcləyib. Təkcə özünün deyil, ailəsinin, övladlarının adı heç bir qaranlıq işdə, qanunsuzluqda hallanmayıb. Belə bir dəyərli insanın namizədliyi Türkiyə üçün şansdır. Ekmeleddin İhsanoğlu uçuruma gedən türk xalqı üçün yeni bir ümiddir. Bu ümidin Türkiyəni bölünməkdən, parçalanmaqdan qoruyacağına inanıram... Atatürkün köşkü, nəhayət, əsalətli, ərdəmli, adı heç bir korrupsiyaya, oğurluğa bulaşmamış bir cümhurbaşkanını qəbul edəcək.

*- Türkiyə nədən diplomatlarını İŞİD-in əlindən qurtarmır? Bu məsələ müzakirə edilərkən, bəzi dostlar deyir ki, əgər Rusiyanın diplomatı deyil, aşağı ranqlı məmuru hər hansı şəkildə əsir düşsəydi, Putin o qüvvəyə savaş açardı. Türkiyənin bu hərəkətsizliyinin arxasında nə dayanır?*

- Türkiyə hökuməti hələ də İŞİD-ə rəsmən bir qiymət verməyib, Türkiyə rəsmiləri İŞİD-lə bağlı "terrorçu" kəlməsini dillərinə belə gətirmir. Bu gün bu məsələdə cavabını bəkləyən ciddi suallar var. Bu İŞİD hardan çıxdı? Bir neçə ay öncə Türkiyədən Suriyaya gedən yük maşınları saxlanmışdı. O zaman deyirdilər ki, guya həmin yük maşınları türkmənlərə yardım aparır. Daha sonra Türkiyə mediası yazdı ki, əslində o maşınlarda İŞİD-ə silah daşınıb. AKP də bu iddialara heç bir cavab vermədi. Əksinə, İraqda türk qətliamları yaşandığı zaman Türkiyə iqtidarı mediada bu haqda xəbər getməsini yasaqladı. Kəndlər viran edildi, minlərlə türk qətlə yetirildi - Türkiyə susdu. Bu gün də Kərkükdə, Təlafərdə, Mosulda türkmən qətliamı davam edir. Yalnız şiələrə məxsus olduğu üçün camilər, müqəddəs ziyarətgahlar, türbələr yerlə yeksan edilir. Müsəlmanlıqdan ağızdolusu danışan Türkiyə hökumətinin səsi çıxmır. İŞİD terror təşkilatı deyilsə, nədir? Onun adını qoymaq lazımdır. Terror təşkilatı deyilsə, Türkiyə diplomatlarını niyə girov götürüb? Aydındır ki, insanlar konkret tələblərə görə girov götürülür. Bu girovluğun qarşısından İŞİD Türkiyədən nə istəyir? Bəlkə İŞİD Türkiyənin onların fəaliyyətinə səs çıxarmaması üçün diplomatları girov saxlayır? Qosqoca Türkiyə dövləti niyə bir qrup terrorçunun bu tələbləri qarşısında aciz qaldı? Bütün bu suallar hələ də cavabsızdır. "BəngüTÜRK" kanalında bir şahidin danışıqlarını eşitdim. Deyirdi ki, bizə konsulluq binasına hücum zamanı müqavimət göstərməmək əmri verilmişdi. Bu əmr kimdən gəlib? Türkiyənin bu sükutu prezident seçkilərinə hesablanıb? Bunu bilmirik. Bildiyimiz bir şey var ki, bütün bu olaylar Türkiyənin xarici siyasətinin fiaskosu, ölkənin beynəlxalq nüfuzuna ağır zərbədir. Siz bayaq Rusiya, Putinlə bağlı misal gətirdiz. Rusiya Krımı "orada ruslara basqı var" bəhanəsi ilə işğal etdi, Putin bəyanat verir ki, Rusiya təkcə rusları deyil, rusca danışan bütün insanları müdafiəyə hazırdır. Dövlət siyasəti belə olar. Türkiyənin sərhədində türk kəndləri yerlə bir olur, insanlar Türkiyədən imdad diləyir, Türkiyə səsini çıxarmır. Bu gün Türkiyənin dışında yaşayan hansı türkə Türkiyə sahib çıxıb? Heç kimə. 20 il bundan qabaq tamamilə başqa siyasət yürüdülürdü. Azərbaycanın bağımsızlığını yenicə bərpa etdiyi illərdə Türkiyənin dəstəyini yada salıram. Ogünkü Türkiyənin öz sərhədlərindən kənarda yaşayan türklərə münasibəti ilə bugünkü Türkiyənin davranışları müqayisəyə gəlmir. Baş nazir Tansu Çillər İraqın içərisində PKK-ya qarşı əməliyyat keçirdi. Həm də heç kimə sormadan. Dedi ki, orada bir terror yuvası var, Türkiyə dövlətinin İraqdakı vətəndaşlarını da, sərhədlərini də təhdid edir. Ola bilər o zaman da Türkiyədə geniş yollar çəkilməmişdi, ölkə iqtisadiyyatı indikindən daha zəif idi, ancaq ölkədə sabitlik idi, xarici təhlükəyə qarşı dövlət monolit idi.



**"Hansı coğrafiyada yaşamasından asılı olmayaraq Türkiyə bütün türklərin başkəndidir"**

*- Amma bu gün Türkiyə vətəndaşının rifah içində yaşadığını da demək olmaz. Ölkədə banka borcu olmayan vətəndaş yoxdur, təxminən.*

- Bəli, bu gün Türkiyənin xarici borcları hesablananda bəlli olur ki, vətəndaşlar 100 il sonra da borc ödəməlidir. Türkiyə vətəndaşının həyatı kreditlərlə bağlıdır. Bunun harası rifah, iqtisadi yüksəliş oldu ki? Türkiyə illər öncə bəlkə də iqtisadiyyatı ilə bağlı ciddi problemlər yaşayırdı, ancaq ölkənin xaricdə ciddi bir imici vardı. Böyük dövlətlər Türkiyənin kənarında yaşayan türkləri əzməyə cəsarət etmirdilər, düşünürdülər ki, bu ölkələrin arxasında Türkiyə var. Biz Azərbaycanda başımız darda olan Türkiyəyə üz tuturduq və Türkiyə bizi müdafiə edirdi. Hətta fərd olaraq düşünürdük ki, ölkəmizdə bizi sıxışdırsalar Türkiyəyə köçərik. Bu gün Türkiyə öz sərhədlərini türklərə qapadıb. 5 uyğur türkünün taleyi sual altında qalmışdı. Yaponiya belə əraziyə gəmi göndərdi, bayraq qaldırdı, onlara mənəvi dəstək oldu. Türkiyə ciddi təpkilərdən sonra onları qəbul etmək zorunda qaldı. Təpkisiz Türkiyə ona pənah gətirən uyğur türklərinə qapı açmırdı.

*- Biz Türkiyədən danışdıq, ancaq Azərbaycan da ciddi susqunluq içərisindədir. Sizə səbəblər aydındırmı?*

- Azərbaycan nəinki dövlət, heç toplum olaraq da çox məsələlərə səsini çıxarmır. Bu, çox acınacaqlıdır. Kərkükdən əlaqə saxlayırlar, yazırlar, zəng edirlər, dəstək istəyirlər - Azərbaycan cəmiyyəti susur. Mənə deyirlər ki, biz 20 Yanvarda, Xocalı qətliamında səsimizi qaldırmışıq, ürəyimizin yanmağı bir yana, yardım toplayıb göndərmişik. Bu gün də onların bizə ehtiyacı var. Hanı bizim qardaşlığımız? Hanı bizim türkmən elindəki qanımız, dilimiz bir qardaşlarımıza mənəvi, maddi dəstəyimiz? Dövlət münasibət bildirməyə bilər, siyasət gündəmində min bir manеə ola bilər. Bəs vətəndaş cəmiyyəti institutları hardadır - niyə səslərini çıxarmırlar?

*- Siz bu susqunluğu nə ilə bağlayırsız?*

- Türkiyənin susqunluğu ilə. Hamı Türkiyəyə baxır. Çoxları "bunu edərəm, Türkiyənin xoşuna gəlməz" prinsipi ilə hərəkət edir. Türkiyə bugünkü hökumətdən ibarət deyil ki... Mən "of" demədən canımı Türkiyəyə fəda eləyərəm. Kaş ki, Türkiyə ayaq altı olmasın, kaş ki, Türkiyənin imici korlanmasın.

*- Son aylarda Türkiyə-Ermənistan sərhədlərinin açılması da ara-sıra gündəmə daşınır. Sizcə, sərhədlər açılacaqmı?*

- Bu gün Kərkükü, Təlafəri, Tusxurmatini, Mosulu, Doğu Türküstanı öz maraqlarına fəda edən Ərdoğan hökumətinin Qarabağı Ermənistan sərhədlərinin açılmasına fəda etməyəcəyi böyük sual altındadır. Gələn ilin başlanğıcında o sərhədləri açmaq istəyirlər. Bütün işlər buna köklənib. AKP hökuməti nəyə "yox" dedi və sonra altından çıxmadı? Baş nazir hakimiyyətinin ilk illərində PKK ilə danışıqların mümkünsüzlüyünü dedi. Sonra nə oldu - "kürd açılımı" adı altında PKK-lıları Türkiyə siyasətinə gətirdi. Biz istəyirik Türkiyə dövlət üçün, xalq üçün bu cür ağır sonuclara səbəb olan yanlışlara yol verməsin. Biz istəyirik Türkiyə güclü olsun. Hansı coğrafiyada yaşamasından asılı olmayaraq Türkiyə bütün türklərin başkəndidir. Türk dünyası üçün məsuliyyətli bir dönəm başlayıb. Türkiyədə prezident kürsüsündə kimin oturacağı danışdığımız bütün məsələlərin açarıdır. Ümid edək ki, Türkiyə vətəndaşları doğru seçim edərək bütün türk dünyasının xilasına yol açacaq.

❑ **Aygün MURADXANLI**

**"Kərkükü, Təlafəri, Tusxurmatini, Mosulu, Doğu Türküstanı öz maraqlarına fəda edən Ərdoğan hökumətinin Qarabağı Ermənistan sərhədlərinin açılmasına fəda etməyəcəyi böyük sual altındadır"**

**Nəqliyyat nazirinin oğlu Anar Məmmədovun vəkili Ruslan Məmmədov mətbuata açıqlama verib. Musavat.com-un da yaydığı açıqlamada deyilir: "Vaxtilə «Ayı işi» ilə bağlı ilk məlumat yazan «Azadlıq» qəzeti olmuşdu. Bizim əlimizdə Ali Məhkəmənin qərarı var idi ki, qəzetlərin yazdığı hadisə olmayıb. Qəzetlərə qət olunmuşdu ki, cərimə ödəyib üzr istəsinlər. «Azadlıq» qəzeti təkzib verib, üzr istədi.**

# "Məmmədovları sanki şeytan qıdıqlayır"

## Rauf Arifoğlu Anar Məmmədovun vəkilinə cavab verdi - "Ayı işi" gündəmdə

«Yeni Müsavat» üzr istəmədi və bizə belə təklif etdilər ki, bu kampaniyanı bitirib bizimlə əməkdaşlığa başlayırlar. Biz də bu razılaşmadan sonra məhkəmə icraatını dayandırmışdıq. Amma onlar son günlər yenidən başlayıblar həmin məsələdən yazmağa. Ona görə biz qərara gəldik ki, bu işi başa çatdıraq. Nizami Rayon Məhkəməsinə müraciət etmişik. Məhkəmə qərar çıxarıb ki, baş redaktor üzr istəməli və 4 min manat cərimə ödəməlidir. Ali Məhkəmənin qərarı olduğu üçün qanun buna imkan verir. Cərimə bizim üçün o qədər də əhəmiyyətli deyil, biz o, qəzetin üzr istəməsini tələb etmişdik. Üzr istəməsələr, cinayət məsuliyyətinə cəlb olunacaqlar və bu yolla onlar məhkəmə qərarını icra edəcəklər".

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu vəkilin bu iddialarına cavab verib. O, müsavat.com-a deyib:** "Ruslan Məmmədov kimi vəkili varsa, Anar Məmmədova düşmən lazım deyil. Vəkili özünün əhəmiyyətini qaldırmaq üçün Anarı növbəti dəfə medianın ağzına atdı. Rəhmətlik ayını yeməsini mətbuatın yenidən aylarla yazması ona lazım idimi? Əlbəttə, yox.



**"Ruslan Məmmədov kimi vəkili varsa, Anar Məmmədova düşmən lazım deyil"**

Amma belə görünür, Ruslana lazımdır və o, bütün mümkün yollarla çalışır ki, Anarın media ilə münasibətləri gərgin olsun, özünün lazımlılıq əmsalını yüksəltsin. Verdiyi açıqlama isə bir hüquqşünasa yaraşmayan, təhriflərlə dolu savadsız bir söz yığınıdır. Necə yəni məhkəmə qərar çıxarıb ki, baş redaktor üzr istəsin? Belə də yalan olar? Azərbaycan Respublikasının qanunlarında, xüsusilə də "KİV haqqında" Qanunda nəinki baş redaktorun, ümumiyyətlə, qəzetin üzr istəməsi barədə heç bir göstəriş yoxdur. Media hansısa vəzifəli məmurun harınlıqdan qudurmuş zürriyyətindən niyə üzr istəməlidir ki? Üzür borcu Məmmədovlara məxsusdur. Bu xalqı soyub taladıqlarına, oğru kimi yaşadıqlarına və ailəcə plan quraraq, Fərahim İlqaroğlunu döydürdüklərinə, bir zəhmətkeş kişinin oğlunu döydürüb, dişlərini sındırdıqlarına görə".

**R.Arifoğlu deyib ki, Anarla münasibətləri düzəltməklə bağlı ondan israrlı xahişlər olub:** "Hörmətini saxladığım insanlar məni yeməyə çağırıb, xahiş ediblər ki, Anarla münasibətləri imkan daxilində düzəldək. Mən də o xahişi 6 ay icra etmişəm. Fərahimi Aynar döydürməsəydi, Ziya Məmmədov da onu himayə edib, bizim ünvanımıza "yalançı" deməsəydi, bu atəşkəs davam edəcəkdi. Lakin Məmmədovları sanki şeytan qıdıqlayır. Özlərini mənə, "Yeni Müsavat" qəzetinə toxuyurlar. Qaşınırlar, bir turlu sakitləşmirlər. Bir baxsınlar, bu qəzetlə hansı əjdahalar savaşmış və indi onlar haradadırlar? Elə bir konflikt aparan düşmənimiz olmayıb ki, hazırda vəziyyəti yaxşı olsun. Ziya Məmmədov və klanını da eyni aqibət gözləyir".

**Rauf Arifoğlu dedi ki, bəlkə də Məmmədovlar qəzetin və onun başını qatmaq, cinayət törətmiş Aynar Məmmədovun məsələsini ikinci plana atmaq üçün bu cür taktika işlədirlər:** "Bunlardan hər şey gözləmək olar. Kriminal ünsür kimi özlərini aparırlar. Qəzetləri məhkəməyə verir, jurnalist döydürür, küçədə asayişi pozur, "avtoşluq" edir, restoranlarda, barlarda meşşan həyat keçirirlər. Üstəlik, bizə, "Yeni Müsavat"a ilişmək kimi də həyatlarının yanlışını yapırlar".

Rauf Arifoğlu dedi ki, qəzet Anar Məmmədova olan məhkəmə borcunu ödəmək fikrində deyil və bunun üçün hüquqi yollarla müqavimət göstərəcəklər, qərardan şikayət verəcəklər.

❑ **Musavat.com**

# Arif Əsgərovun xəstəxanasını yoxlayırlar

## "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Hesablama Palatasının auditorlarını "sakitcə yola salmaq" tapşırığını verib; dəmir yolu xəstəxanasının işçilərindən 500 manatdan 3 min manatadək "təzminat" yığılır



Arif Əsgərov

**Hesablama Palatası auditorları "Azərbaycan Dəmir Yolları" QSC-nin tibb xidmətində yoxlamalar aparıb və kifayət qədər ciddi maliyyə pozuntuları aşkarlayıb. Təkcə dəmiryolçuların mərkəzi xəstəxanasında bir neçə milyon manata yaxın yeyinti aşkarlanıb. Bu barədə "Yeni Müsavat"a QSC-dəki mənbə xəbər verib.**

Mənbənin bildirdiyinə görə, QSC-nin tibb xidmətində yoxlama bir neçə ay davam edib və ciddi maliyyə pozuntuları aşkarlanıb. Məlum olub ki, dəmir yolunun gəlirlərinin bir qismi tibb xidməti vasitəsilə silinir. Bu vəsaitlər hesabına QSC-nin tibb müəssisələrində guya "əsaslı təmir" aparılıb və müasir avadanlıqlar "alınıb". Bir sözlə, olmayan xidmətlərə, alınmayan mallara görə milyonlar silinib.

Məsələn, Hesablama Palatasının auditorları müəyyən edib ki, xəstələr üçün alınan çəkələklər hamını şoka salacaq bir qiymətə - 33 manata rəsmiləşdirilib. Hansı ki həmin çəkələklərin bazar qiyməti 1 manatdan çox deyil. Xəstəxanada uşaq şöbəsi olmadığına baxmayaraq, uşaqlar üçün böyük partiyalarla pijamalar alınıb və silinib.

Hesablama Palatasının yoxlamaları 15 günə yaxındır davam edir və kifayət qədər şişirdilmiş qiymətlərlə aşkarlanıb. Sonda rəhbərlik vəziyyətdən çıxış yolu kimi Hesablama Palatasının auditorlarını "yola salmaq" üçün həkim və tibb işçilərindən pul yığımına göstəriş verib. İşçilərdən 500 manatdan 3 min manatadək "təzminat" yığılır.

Mənbənin məlumatına görə, bu işlərin hamısı QSC-nin tibb xidmətinin sabiq rəisi Saday Zeynalovun dövründə qeydə alınıb. Bütün əməliyyatlar onun imzası ilə həyata keçirilib. Hazırda o, "Bakı Metropoliteni" QSC sədrinin sosial məsələlər üzrə müavinidir. Ancaq indi yeni rəhbərlik onun əməllərini ört-basdır etmək üçün işçilərdən xərac toplamağa üstünlük verib.

Mənbə bildirir ki, məsələdən "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Arif Əsgərovun da xəbəri var və o, auditorları sakitcə "yola salmaq" tapşırığını verib.

❑ **İqtisadiyyat şöbəsi**



# Hacı İbrahim Nehrəmli daha bir mükafata sahib oldu

**İyulun 5-də Türkiyənin ən ünlü dərgilərindən biri "EkoVitrin" "13-cü ilin ulduzları" mükafatlarını möhtəşəm bir tədbirlə sahiblərinə çatdırdı. Mükafatlandırma prosesi siyasət, sənət, idarəetmə, iş dünyası və digər sahələr üzrə aparılırdı. "İstanbul Wow Hotel"də düzənlənən tədbirdən öncə 500 nəfərlik iftar süfrəsi açıldı. "EkoVitrin" media qrupunun rəhbəri Kamuran Abacıoğlu, idarə heyətinin sədr müavini Şərəf Özat, jurnalın baş redaktoru Bilal Koçak bütün qonaqları salamlayaraq, onlara tədbirə qatıldıqları üçün dərin minnətdarlığını bildirdikdən sonra mükafatlandırma mərasiminə start verildi.**



"Avesta" Konserninin prezidenti, "Khazar Islands" layihəsi ilə dünyaya səs salan cənab Hacı İbrahim Nehrəmli də mükafatçılar sırasından kənarda qalmadı. Belə ki, bu meqa-layihənin yaradıcısı 2013-cü ildə "Türk Cümhuriyyətlərində ilin ən uğurlu iş adamı" mükafatına sahib çıxdı. Gecənin sonunda bütün mükafatçılar səhnəyə çıxaraq, xatirə şəkilləri çəkdirdilər.

Bu dəyərli mükafat münasibətilə cənab Hacı İbrahim Nehrəmlini təbrik edir, ona "Khazar Islands" layihəsində və ümumiyyətlə iş həyatında növbəti uğurları arzu edirik.

# Sülhəddin Əkbərin partiyasının üzvləri Milli Şuradan çıxdılar

**Xəbər verdiyimiz kimi, iyulun 6-da Azad Demokratlar Partiyasının (AzDP) təsis qurultayı keçirilib. Tədbirdə partiyanın sədri Sülhəddin Əkbər seçilib. Qurultayda Ali Məclisin üzvləri də seçilib.**

Qurultay başa çatandan sonra Ali Məclisin ilk iclası keçirilib. Ali Məclis AzDP-nin Milli Şuradakı üzvlərinin Milli Şurada fəaliyyətlərini dayandırmaq barədə qərar verib. Bu barədə AzDP sədri Sülhəddin Əkbər "Yeni Müsavat"a açıqlamasında məlumat verib: "Bilirsiniz ki, biz Milli Şurada fərd olaraq fəaliyyət göstərirdik. Mən də daxil olmaqla, Ali Məclis üzv olanların qurumda üzvlüyünü dayandırmaq haqqında qərar qəbul etdi. Artıq iyulun 6-dan Milli Şurada fəaliyyətimizi dayandırdığımızı elan etmişik".

**Milli Şuradan çıxmaq qərarı verilməsinin səbəbinə gəlincə, S.Əkbər bunları dedi:** "Təsis qurultayında çıxışımda bildirdim ki, partiyanın müttəfiqlik münasibətləri iki prinsip əsasında qurulacaq. Birinci, siyasi-ideoloji prinsiplər. İkinci prinsipimiz ondan ibarətdir ki, ölkədə bütün demokratik potensialın mobilizasiyasına imkan verən geniş əsaslı demokratik birlikdə təmsil oluna bilərik. Bundan kənarda hər hansı siyasi birliyin və ya siyasi təşkilatın maraqlarına xidmət edən blokda, koalisiyada iştirak etmək niyyətində deyilik. Bu mövqeyimi ifadə etdim və Ali Məclisdə də müzakirə olundu. Müzakirələrin sonunda Milli Şura ilə bağlı məlum qərar verildi. MŞ-dəki AzDP üzvləri partiyanın qərarına uyğun şəkildə öz qərarlarını verib Milli Şurada fəaliyyətlərini dayandırdılar".

**S.Əkbər sözügedən qərarı verdikdən sonra Milli Şura rəhbərliyi ilə heç bir danışıqlarının, görüşün olmadığını söylədi:** "Görüşə ehtiyac olmadığını düşünürəm. Fürsətdən istifadə edib Cəmil Həsənli başda olmaqla, Milli Şuradakı dostlarımıza uğurlar arzulayıram".

S.Əkbər onu da dedi ki, hazırda partiyanın rəsmi qeydiyyatı və ölkə ərazisində təşkilatlanması əsas prioritetdir. Eyni zamanda daxildə layiqli yer tutmaq, xarici əlaqələri qurmaq prioritetlər sırasında olacaq.

Vaxtilə rəhbərliyində olduğu Müsavat Partiyası ilə münasibətlərə gəlincə, AzDP sədri bildirdi ki, Müsavat Partiyası qurultaya hazırlaşır, qurultaydan sonra digər partiyalarla olduğu kimi bu partiya ilə də müəyyən edilən prinsiplər əsasında normal münasibətlər qurulacaq.

❑ **Etibar SEYİDAĞA**

# Biznesmen-rektorun "ailə universiteti"nin bağlanmasının şok təfərrüatları...

## Misir Mərdanovun dostu Rasim Nəbiyevin çörəyi təkcə rəhbəri olduğu "Bakıxanov" çörək zavodundan çıxmırdı, o, İctimai-Siyasi Universitetdə də bazar açıbmış; rektor Təhsil Nazirliyinə irad tutdu, təhsil eksperti isə bu cür digər ali məktəbləri də bağlamağa çağırdı

**Təhsil Nazirliyi tərəfindən fəaliyyətinə xitam verilən İctimai-Siyasi Universitetin rəhbəri Rasim Nəbiyev haqda məlumat yayılıb. Axar.az-a daxil olan məlumata görə, təhsil ocağının bağlanmasına səbəb rektor Rasim Nəbiyev barəsində toplanan şok dosyedir.**

İddialara görə, Nəbiyev keçmiş təhsil naziri Misir Mərdanovun himayəsində olub, bu əlverişli imkandan istifadə edərək təhsil müəssisəsində bazar açıb, rüşvət yığılmasını adi hala çevirib. Mərdanovla sıx münasibətləri olan Nəbiyevin "qara günləri" də məhz sabiq nazir istefa verəndən sonra başlayıb.

Yeni nazir Mikayıl Cabbarov universitetdə yoxlamaların həyata keçirilməsinə əmr verib. Bu araşdırmaların nəticəsi kimi AİSU lisenziyasız qalıb. Məlum olub ki, universitetdə qanunsuz tələbə köçürməsi, saxta diplom satışı, hər semestrdə rüşvət yığımı ilə məşğul olan R.Nəbiyev Beynəlxalq Universitetin rektoru Elşad Abdullayevin taleyindən ibrət dərsi götürməyib.

O da məlum olub ki, R.Nəbiyevin ən yaxın qohumları AİSU-da rəhbər vəzifələrdə çalışırlar. Belə ki, onun köməkçisi qardaşı Nazim Nəbiyevdir. Bu şəxs əvvəllər qarmon ifaçısı kimi fəaliyyət göstərsə də, qardaşının dəstəyi ilə köməkçi vəzifəsinə təyin olunub.

Rektorun həyat yoldaşı, filoloq Zöhrə Nəbiyeva universitetdə prorektor işləyir. AİSU rəhbərinin qudası Əvəz Şirəliyev də prorektordur. Beləliklə, "ailə universiteti" açan Nəbiyev post-Mərdanov dövründə hədəfə gəlib.

Məlumata görə, keçmiş nazirin özü də yaxın dostu olan Nəbiyevi qoruya bilməyib. Çünki Nəbiyevin yuxarıda sadalanan fəaliyyətindən əlavə, Türkiyənin Bakıdakı səfirliyinin keçmiş mətbu müşaviri Turqut Ərlə illərə söykənən əlaqələrinin olduğu öyrənilib, bu məsələ yuxarı dairələrin diqqətinə çatdırılıb.

Bundan sonra Mərdanov köhnə dostunun arxasından çəkilib, ASİU qapadılıb.

Onu da deyək ki, Rasim Nəbiyev eyni zamanda paytaxtın ən böyük çörək istehsalçısı olan "Bakıxanov" çörək zavodunun direktorudur. İnsafən, Bakıda ən təmiz, etibarlı çörək istehsalçısı bu zavoddur. ASİU bağlanmazdan əvvəl, iyunun 4-də Nəbiyev rəhbəri olduğu zavodun qarşısındakı "Ülvi" şadlıq evinin həyətində mağar qurub, oğluna toy etməsi ilə gündəmə gəlib.


Rasim Nəbiyev

Qəribədir ki, zavod direktoru restoranda yox, onun həyətində çadır qurub oğluna toy çaldırmışdı. Bundan başqa, Bakıxanov qəsəbəsində onun "Səhram" marketi fəaliyyət göstərir. Göründüyü kimi, biznesmen-rektorun çörəyi təkcə çörək zavodundan çıxmayıb, həm market, həm də ASİU-da böyük bazar açıbmış.

**R.Nəbiyev isə azvision.az-a açıqlamasında nazirliyə irad tutub:** "Təhsil Nazirliyi hər 5 ildən bir universitetin lisenziya müddətini uzadırdı. Lakin bu dəfə uzatmadı. Haqqımızda deyilən səbəblər tamamilə əsassızdır. Gəlib hər kəs şahid ola bilər".

**Rektor Təhsil Nazirliyinin ali təhsil müəssisəsinin şəraitinin əlverişsiz olması barədə iradlarını qəbul etməyib:** "Gəlib özünüz baxa bilərsiniz. Bizim qapılarımız hər kəsə açıqdır. Dərslərimiz kimlərdənsə götürülən ayrı-ayrı mənzillərdə yox, Topçubaşovun evində keçirilir. Topçubaşovun da evi elə-belə ev ola bilməz axı?! Köçürmə məsələsinə nazirlik baxır. Tələbələr hansı universitetlərə istəsələr, onlara da köçürüləcək".

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev** bildirdi ki, Təhsil Nazirliyi AİSU-da tədris prosesinin formal xarakter daşıdığını, elmi-pedaqoji heyətin pozuntularla komplektləşdirildiyini və kafedraların mövcud qaydalara zidd təşkil olunduğunu müəyyən edib.

"Təhsil Nazirliyi onu da qeyd edir ki, lisenziyanın geri alınması özü-özündə hüquqi şəxs kimi universitetin ləğvi demək deyil və qanunvericiliklə müəyyən edilmiş şərtlər yerinə yetirildiyi halda, bu qurum ali təhsil fəaliyyətinin göstərilməsi məqsədilə lisenziya üçün yenidən müraciət etmək hüququna malikdir".

**E.Əliyev bunu belə şərh edir:** "Lisenziya müddəti uzadılmayan ali məktəbin bütün tələbələrinin başqa ali məktəblərə köçürülməsi elə ali məktəbin ləğvi deməkdir. Bundan sonra kim bu adda "sıfırdan" ali məktəb formalaşdıra bilər. Bu ali məktəbin rektoru yəqin ki, bundan sonra belə işə baş qoşmaz".

**Ekspertə görə, Təhsil Nazirliyi bundan sonra təhsil müəssisələri haqqında hansısa qərarı qəbul etmək istədikdə lisenziya vaxtının başa çatmasını gözləməməlidir:**

"Neqativ halların daha çox baş verdiyi ali məktəblərdə qərarlar qəfil şəkildə qəbul olunmalıdır. Mən təhsil eksperti kimi belə ali məktəblərin bağlanmasının tərəfdarıyam. Bu cür ali məktəblər ölkə üçün mütəxəssis hazırlamaqdan çox şəxsi maraqlara xidmət edir".

**E.Əliyevin sözlərinə görə, bu universitetin rektoru Rasim Nəbiyev YAP-ın aparıcı fiqurlarından biri və keçmiş təhsil nazirinin dostu idi:** "O bunlardan bəhrələnib istədiyini edirdi. Bu ali məktəb yaranandan qüsurlu yaranmışdı. Məncə, bu proses tək sözügedən universitetlə bitməlidir. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının 2013/2014-cü tədris ili üçün tələbə qəbulunun nəticələrinin elmi statistik təhlilində Elm və Təhsil Mərkəzi Təfəkkür Universiteti, Bakı Biznes Universiteti, Bakı Qızlar Universiteti kimi ali məktəblər Azərbaycan İctimai Siyasi Universiteti ilə təxminən eyni reytinqə malikdirlər. Hesab edirəm ki, bu cür ali məktəblərin də fəaliyyətinin dayandırılmasının vaxtıdır".

**Müsahibimiz AİSU ilə bağlı maraqlı bir fakta da diqqəti çəkdi:** "Maraqlıdır ki, Təhsil Nazirliyi 2008-ci ildə bu ali məktəbdə təhsilin keyfiyyətini müsbət qiymətləndirib. İndinin araşdırmaları göstərir ki, nazirlik akkreditasiyada saxtakarlığa yol verib.

Necə olur, təhsilinin keyfiyyəti müsbət qiymətləndirilən bu universitetdə belə qısa vaxtda ciddi qüsurlar aşkar olunur? Bu onu göstərir ki, nazirlik hansısa maraqlar çərçivəsində bu ali məktəbə müsbət qərar verib".

❑ E.SALAMOĞLU



# Şura Gürcüstan QHT-ləri ilə birgə tədbir keçirəcək

## İşğal olunmuş torpaqlara qanunsuz səfərlərin qarşısının alınması ilə bağlı layihə həyata keçirilir

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında Gürcüstan Demokratik Təşəbbüslər və Əhali və İnkişaf Birliyinin nümayəndələri Nodar Xerxulidze və Arçil Maçavariani ilə görüş keçirilib. Şuranın mətbuat xidmətindən verilən xəbərə görə, şura sədri Azay Quliyev rəhbərlik etdiyi qurum haqqında qonaqlara ətraflı məlumat verərək ölkəmizdə QHT sektorunun inkişafı haqqında danışıb. A.Quliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair dünya ictimaiyyətinə ədalətli, obyektiv məlumatların çatdırılmasının şuranın əsas fəaliyyət istiqamətlərindən biri olduğunu vurğulayıb.**

Şuranın dəstəyi ilə həyata keçirdikləri layihə haqqında məlumat verən QHT nümayəndələri əsas məqsədin Azərbaycan, Gürcüstan və Moldovanın işğal altında olan torpaqlarına edilən qanunsuz səfərlərin qarşısının alınması üçün müvafiq təklif və mexanizmlərin hazırlanması olduğunu bildiriblər. QHT nümayəndələri olan tədqiqatçıların səfərində məqsəd ölkəmizin işğal edilmiş ərazilərinə edilmiş qanunsuz səfərlər haqqında statistik məlumatlar toplamaq və Azərbaycan hökumətinin bu istiqamətdə həyata keçirdiyi fəaliyyətlə tanış olmaqdır. Hazırlanacaq tədqiqat işi dünya ictimaiyyətinin diqqətini işğal altında olan torpaqlara edilən qanunsuz səfərlərin beynəlxalq hüquq normalarının kobud pozulması halı olmasına yönəldəcək. Qonaqlar məlumat verib ki, layihə çərçivəsində 25 sentyabr 2014-cü ildə Tiblisidə Dağlıq Qarabağ, Dnestiryanı, Cənubi Osetiya və Abxaziyaya qanunsuz səfərlərin edilməsinə həsr olunan 2 günlük konfrans keçiriləcək. Toplantıda diplomatik korpusun, beynəlxalq təşkilatların nümayəndələri, müxtəlif ekspertlər, Azərbaycan, Gürcüstan, Moldovanın dövlət orqanlarının, eləcə də KİV təmsilçilərinin iştirakı nəzərdə tutulur. Konfransın sonunda işğal olunmuş torpaqlara edilən qanunsuz səfərlərin pislənməsi ilə bağlı bəyanat və yekun hesabat qəbul olunacaq. Hesabatda dünya ictimaiyyəti işğal olunmuş ərazilərə edilən qanunsuz səfərləri qınamağa dəvət ediləcək.

A.Quliyev təşkilatın hazırlayacağı hesabatda Dağlıq Qarabağ münaqişəsinə dair obyektiv və dolğun məlumatların əksini tapmasının vacibliyini diqqətə çatdırıb. Şura sədri hesabatın dünya ictimaiyyətinin Azərbaycanın haqlı mövqeyinin aydın başa düşülməsinə yardımçı olmasını, Dağlıq Qarabağ və digər işğal altında olan torpaqlara qanunsuz səfər etmək niyyətində olanları fikirlərindən daşındıracağını gözlədiklərini qeyd edib.

❑ E.SEYİDAĞA

# Əyalətlərdə məmurlar camaata zülm edir

**Əyalətlərdə məmurlar əhaliyə düşmən kimi baxırlar. Bölgələrdə icra hakimləri, vergi məmurları, qəsəbələrin icra nümayəndələri, dövlət reyestr xidmətinin əməkdaşları, başçıların müavinləri, işıq, su, qaz idarələrinin müdirləri yerli camaatla yadelli işğalçı kimi davranır.**

Sanki məqsədli şəkildə əhalini təzyiq altında saxlayır, süni surətdə yaratdıqları problemlər məngənəsində boğurlar. Halbuki paytaxt rayonlarında məmurlar vətəndaşlarla bu şəkildə də rəftar etmir, onları alçaltmır, şikayətini görməzdən gəlmir.

Təbii ki, Bakıda da məmurlar əhaliyə qan uddurur. Amma müqayisə etsək, regionlarda məmurlar daha çox xalqa zülm edir, özbaşınalığa, qanunsuzluğa yol verirlər. Gah əhalinin suyu, gah işığı kəsilir, gah yolu bağlanır.

Şikayət edən sakinləri isə məmurlar öz otaqlarına ya buraxmırlar, ya da dinləmirlər. Kəsəsi, əyalət məmurları şəhər çinovnikləri ilə müqayisədə daha qəddardır. Sonuncu dəfə Tovuzda məmur özbaşınalığından cana doyan sakinlərin şikayəti "Yeni Müsavat"da dərc olunmuşdu. Yerli məmurlar əhalinin başına oyun açır, onların yay istisində suyunu, yolunu kəsir, problemlərini dinləmir, heç bir əndazəyə sığışmayan dərəcədə kobudluq edirlər.

**Hüquq müdafiəçisi İradə Cavadova** deyir ki, şikayətlərin çoxu sahibkarlıq və mülkiyyət hüquqlarının pozulması ilə bağlıdır. Onun sözlərinə görə, rayonlardan olduğu kimi şəhərdən də şikayətlərin sayı heç də az deyil.


**İradə Cavadova:**
"Mülkiyyət hüquqlarının pozulması ilə bağlı müraciətlər çoxdur"


**Elçin Behbudov:**
"İcra başçıları elə bilirlər ki, rayonlar onlara atalarından miras qalıb"

**Hüquq müdafiəçisi hesab edir ki, rayonlarda daha çox özbaşına tikinti, mülkiyyət hüquqlarının pozulması halları ilə bağlı müraciətlər çoxdur:** "ATƏT-in Bakı ofisi ilə 4 illik layihəmiz çərçivəsində sahibkarların problemləri ilə maraqlandıq. Sahibkarlarla bağlı şikayətlər çox idi".

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov** qeyd etdi ki, həm bölgələrdən, həm şəhərdən şikayətlər daxil olur. E.Behbudov bildirdi ki, ərizə ilə müraciət edənlərdən əlavə komitənin "qaynar xətt"inə də zənglər çox olur.

**Komitə sədri dedi ki, əsasən Penitensiar Xidmət, polis orqanları, nəqliyyat departamentləri ilə bağlı şikayətlər çoxdur:** "Hələlik bu il Müdafiə Nazirliyinin N saylı hərbi hissələrindən müraciətlər daxil olmayıb. Zakir Həsənov nazir təyin olunandan hələ ki işgəncə ilə bağlı şikayət olmayıb. Ancaq Təhsil Nazirliyinin internatlarından, Dövlət Neft Şirkətinin mühafizə xidmətindən şikayətlər var. Eyni zamanda rayonlardan çoxlu şikayətlər gəlir".

**E.Behbudov bölgələrdən şikayətlərin çox olmasını belə şərh etdi:** "Dövlət başçısı həmin adamlara etimad göstərib yüksək vəzifələrə təyin edir, rayonlara rəhbər qoyur. Həmin icra başçıları da bu etimaddan sui-istifadə edir. Elə bilirlər ki, rayonlar onlara atalarından miras qalıb. Restoranlar, şadlıq evləri tikdirirlər, torpaqları zəbt edirlər.

Bu da rayonlarda narazılıq yaradır. Bizə şikayətlər yersiz də olur. Kiminsə maşınını evakuator aparırsa, evdə ər arvadını döyürsə komitəyə müraciət edir. Axı bizim sahəmizə aid deyil? İndi müavinlərimlə cənub rayonlarında polis şöbələrində monitorinq keçirirəm. Tutulanlar əsasən narkotik istifadəçiləridir".

❑ E.SALAMOĞLU

### Ölkənin məmur-oliqarxlarından biri haqda ən son şok məlumatlar

**Nəqliyyat naziri Ziya Məmmədovun və ətrafının vəziyyəti getdikcə ağırlaşır. Bu barədə “Yeni Müsavat”a daxil olan son məlumatlara görə, nəqliyyat nazirinin vəzifədən yola salınması hər an reallaşa bilər. Məlumatda qeyd edilir ki, Z.Məmmədov mərhələ-mərhələ tərk-silah olunmuş vəziyyətə gətirilib və onun iri layihələri əlindən alınıb.**



# Ziya Məmmədovun qürubu - həzin son

## Nəqliyyat şefi nazir postunda son itkilərini verir; Məmmədovların bir sıra böyük obyektləri əllərindən alınıb, media layihəsinin üstündən isə birdəfəlik xətt çəkilib; onların ən böyük biznes ortağı olan “Hafka”nın həbsi xəbəri isə təkzib olunmur

Z.Məmmədovun həm nazir kimi bir sıra səlahiyyətləri əlindən alınıb, həm də qeyri-rəsmi imtiyazları, imkanları məhdudlaşdırılıb, biznes obyektlərinin böyük qismini təhvil verməli olub. Z. Məmmədovun “Qarant holdinq”dəki payının böyük hissəsi də başqa bir ələ dövr edilib. Həmçinin onun və oğlu Anar Məmmədovun Bakının mərkəzində köhnə tramvay parkının yerində tikdirdiyi möhtəşəm bina - "Baku Trump Tower" artıq Məmmədovlardan alınıb. Bundan başqa, nazir oğlunun “Qarant holdinq”in tərkibində yaratdığı media holdinq layihəsinin də üzərindən birdəfəlik xətt çəkilib. İlk dəfə olaraq hansısa nazir-oliqarx açıq şəkildə media sektoruna girmək izni almışdı. Z.Məmmədovun yaratmaq istədiyi media holdinqlə bağlı bir sıra işlər görülmüşdü və hətta bir sıra jurnalistlər də bu layihəyə cəlb olunmuşdu. Amma son vaxtlarda Z.Məmmədov və ətrafının hakimiyyətin xoşuna gəlməyən davranışları, onların gənc nümayəndələrinin ictimai xuliqanlıq hərəkətləri bütövlükdə klanın vurulmasına və bir sıra layihələrinin əllərindən alınmasına, bəzi layihələrin isə dayandırılmasına səbəb olub. Vəziyyəti getdikcə ağırlaşan Z.Məmmədovun mümkün qədər zərərsizləşdirildikdən sonra yola salınacağı bildirilir. Məlumatlara görə, hazırda Z.Məmmədov və ona bağlı qrupların mal-mülkləri, biznes obyektləri, sərvətləri ilə bağlı dəqiqləşdirmələr aparılır, bir sıra iş adamlarına zamanında səflərini dəyişdirmək tələb olunur. Z.Məmmədov və ətrafı ilə bağlı baş verənləri ümumiləşdirən məlumatlı mənbələr, nazirin indiki durumunu onun qüruba doğru getməsi kimi qiymətləndirirlər. Onların sözlərinə görə, Z.Məmmədovun bu şəkildə və sürətlə vurulmasının dəqiq səbəbi yalnız dar bir dairəyə bəlli olduğundan bu barədə konkret fikir söyləmək çətindir. Amma Z.Məmmədovun hakimiyyətdən yola salınacağı artıq bir çoxlarına bəllidir və bu səbəbdən də iqtidar daxilində xeyli yüksək vəzifəli şəxs onunla haqq-hesab çürütmək üçün start vəziyyətindədir.

Məlumatlarda həmçinin bildirilir ki, Z.Məmmədovun ən böyük biznes ortağı olan “Baghlan Gorup”un prezidenti “Hafka” ləqəbli Hafiz Məmmədovun vəziyyəti daha pisdir. Bir sıra biznes obyektlərinin əlindən alındığı bildirilən H.Məmmədovun hətta “Baghlan Gorup”u müflis elan edərək ölkədən qaçmaq istəyərkən aeroportda saxlanıldığı iddia olunur.

Maraqlıdır ki, son günlərdə barəsində bir iş adamını bitirəcək ziddiyyətli xəbərlər yayılan H.Məmmədovun özü, yaxud nümayəndəsi tərəfindən hər hansı bir açıqlama verilməyib. Faktiki olaraq “Hafka”nın saxlanılması ilə bağlı xəbərlər nə təkzib, nə də təsdiq edilib.

Əgər H.Məmmədov azadlıqdadırsa, az qala dünyanın dörd bir yanında biznesi olan bir şəxs kimi onun haqqında yayılan xəbərlərlə bağlı açıqlama verməməsi absurddur. Onun iş gördüyü adamlar, çevrələr panikada, şirkətlərinin səhmləri sıfırda - lakin Hafiz Məmmədovdan heç bir xəbər yoxdur. Həm bu baxımdan, həm də gələn məlumatlar onu göstərir ki, H.Məmmədovun saxlanılması ilə bağlı xəbərlər ciddidir.

Onun Azərbaycandakı biznesi və bir sıra layihələri isə demək olar ki, ya çöküb, ya da başqa ələ keçib. H. Məmmədovun prezidenti olduğu “Bakı” klubunda və ona məxsus “Bank of Azerbaijan”da ciddi maliyyə krizi yaşanır. Futbolçular və işçilər aylardır maaş ala bilmir. H. Məmmədovun Beynəlxalq Banka yüz milyonlarla manat kredit borcu var. Buna görə də H. Məmmədovun “Bank of Azerbaijan”ın idarəçiliyini və “Bakı” futbol klubunun səhmlərinin böyük hissəsini Beynəlxalq Bankın prezidenti Cahangir Hacıyevə verdiyi bildirilir. Bundan başqa, artıq Beynəlxalq Bank “Bank of Azeribaijan”a verdiyi kreditlərin qaytarılmasını tələb edir. Dövlət isə “Bank of Azerbaijan”ın əli ilə verilən ipoteka kreditlərini bu bank vasitəsilə geri alınmasını dayandırıb. Adıçəkilən bank vasitəsilə ipoteka kreditləri alan müştərilərlə əlaqə saxlanılır və onlara bildirilir ki, aylıq ödənişləri “Bank of Azerbaijan”a yox, başqa banklara etsinlər. Azərbaycanda isə ipoteka krediti verən cəmi 4-5 bank var. Bu faktın özü də göstərir ki, “Bank of Azeribaijan” tam çökmək üzrədir və bu həm də “Hafka” ilə onun əsas biznes ortağı olan Z. Məmmədovun vəziyyətinin göstəricisidir. Bundan başqa, H.Məmmədovun Fransada aldığı “Lans” klubu ilə də ciddi problemləri var və son vaxtlar onunla “Lans” klubunun prezidenti Jerve Martel arasında ciddi qalmaqal yaşanır.

❑ Teymur HƏSƏNLİ

---

**Sovet siyasi sisteminin son mogikanı Eduard Şevardnadze öldü. Son iki gündə mətbuatda, sosial şəbəkələrdə ən çox müzakirə edilən mövzu elə gürcülərin “qoca tülkü” adlandırdığı bu siyasətçi ətrafında getdi. Demək olar ki, hamı göz yaşları axıtdı. İnsanların bir siyasətçiyə bu dərəcədə məftunluğu yəqin ki, kütləvi psixozun və yaxud nevrozun əlamətidir. Siyasətin və siyasətçinin nə olduğunu, kimə xidmət etdiyini bilən kəs çətin ki, onun arxasınca göz yaşı töksün.**

Azər RƏŞİDOĞLU



# Şər imperiyasının son mogikanı

Şevardnadzenin həmyerlisi İosif Stalin də öləndə ağlayanlar var idi. Kimlərsə qorxudan ağlayırdı, kimlərsə zombiləşmiş beyinləri ilə ağlamağın vacibliyini düşünürdülər, kimlərsə sındırılmış yüz minlərlə insan taleyini düşünüb, “tiran öldü, belə bir gündə ağlamağa dəyər” deyə fikirləşirdi.

Düzdür, tiranın ölümü məzlumları azadlığa çıxarda bilmədi. Yeni diktatorlar köhnələrini əvəz elədi.

Siyasətçi taleyi qəribədir. İllərlə hökmranlıq edirsən və bir gün soyuq məzara möhtac olursan. Məzar üçün isə fərqi yoxdur kimi ağuşuna alıb - bir fəhləni, yaxud dünyaya hökm edən diktatoru.

Eduard Şevardnadze Gürcüstana 1972-ci ildən rəhbərlik etməyə başlamışdı. Gürcüstanın daxili işlər naziri kürsüsündən birbaşa “birinci katib” postuna yüksəlmişdi. O zaman SSRİ-də, o cümlədən Cənubi Qafqazda maraqlı proseslər baş verirdi. Yerlərdə hakimiyyətlərə güc nazirliklərinin nümayəndələri gətirilirdi. 1969-cu ildə Azərbaycanda Heydər Əliyev rəhbərliyə başladı. E.Şevardnadze kimi o da güc nazirliyinin yetişdirməsi idi. Birinci katib olana qədər DTK-nın başında dayanırdı.

Azərbaycanda H. Əliyev hakimiyyətə gələn kimi ölkəni Vəli Axundov tərəfdarlarından təmizlədiyini nümayiş etdirdi. Eyni ilə Rüstəm İbrahimbəyovun “İstintaq” povestində olduğu kimi.

Sonra onu Moskvaya apardılar. Sonra o, Bakıya rəhbər kimi qayıtdı. Elə E. Şevardnadze də eyni taleyi yaşadı. E. Şevardnadze 1953 - 72-ci illər ərzində ölkəyə başçılıq etmiş Vasiliy Mjavanadzenin tərəfdarlarını “çarmıxa” çəkirdi. Sonra onu da Moskvaya apardılar. Sonra o da Gürcüstana rəhbər qayıtdı.

Əliyev və Şevarnadze Cənubi Qafqazın iki respublikasına rəhbərlik edəndə Ermənistana adi insanlardan o qədər də seçilməyən və xüsusi ambisiyaları olmayan S.Dəmirçiyan rəhbərlik edirdi. Ermənistanda “Dəmirçiyan bütü” mövcud deyildi, lakin klanlar arası intriqalar da yox idi.

Azərbaycanda və Gürcüstanda isə bu kütləvi hal aldı. Ermənistanda isə bu, baş vermədi. Dəmirçiyan Şevardnadze deyildi, sıradan biri idi. Elə sıradan biri olması da o zaman Ermənistanı xilas etdi.

Dəmirçiyan öz işini görürdü. Respublikası bayraq almırdı, o özü Kremlə vəzifəyə hazırlaşmırdı, qonşuya ərazi iddiasında bulunmurdu, sadəcə öz işini görürdü.

H.Əliyev və E.Şevardnadze isə bir-birləri ilə də yarışırdılar. Cənubi Qafqazın bu iki respublikasından hansının rəhbərinin Kremlə gedəcəyi on illər boyunca mübarizənin əsas predmeti olmuşdu. Bu iki lider iddialarını gerçəkləşdirə bilməkdən ötrü riskli layihələrə imza atmaq zorunda idilər. Odur ki, hər ikisi hətta astronomiyanın təməl əsaslarını da qarış-qarış öyrənirdilər.

Ötən əsrin 70-ci illərinin əvvəllərində hər iki lider kimlər üçünsə ümid yeri idi. Klan savaşı, köhnə klanın məhvi, yeni klan formalaşdırılması cəhdləri də insanların ümidini öldürmürdü. Sonra hər iki siyasətçini Moskvaya apardılar. Onlara qarşı savaş açdılar. Onlar vətənlərinə sağlamlıqlarını itirmiş vəziyyətdə qayıtdılar.

İki lider arasında oxşar cəhətlər çox idi. Lakin fərqliliklər də az deyildi.

E.Şevardnadze 1972-85 illər ərzində, Moskvaya gedənə qədər ölkədə öz sistemini yaratmışdı. Rüşvət, korrupsiya idarəetmənin əsas elementlərindən biri idi. Lakin heç kəs həddini aşmırdı. E.Şevardnadzenin V.Mjavanadzedən fərqi də elə bu idi. Mjavanadze tipik korrupsiya mücəsəməsi idi, “qoca tülkü” isə nəfsini nisbətən buxovlaya bilirdi.

E.Şevardnadzenin Moskvaya gedişi ilə gürcülərin həyatında önəmli dəyişikliklər baş vermədi. İnsanlar yenə də öz işləri ilə məşğul olmaqda davam etdilər, alimlər diferensial tənliklərini həll etdilər, rəqəmlərin sıralarının birləşməsi kimi məsələləri öyrənməkdə davam etdilər. Artıq yeni Gürcüstan yaranırdı. Belə bir zamanda “qoca tülkü” ağ saçlarından çələng düzəldib geri qayıtdı və... Vasiliy Mjavanadzenin irsini bərpa etməyə girişdi və hətta tarixi düşmənini də kölgədə qoydu.

H.Əliyev və E.Şevardnadze demək olar ki, eyni taleyi yaşadılar. Təxminən eyni vaxtda respublikalarında rəhbər oldular, eyni vaxtda Moskvaya getdilər və elə təqribən eyni vaxtda da vətənə döndülər.

Hər iki lider vətənə qayıdanda tamamilə yad mənzərə ilə üzləşdilər. Ölkədə müharibə gedirdi. Sonra hər iki lider savaşı uduzdu. Onlar bu savaşda qələbə qazana da bilməzdilər. Lakin məğlubiyyətlərin miqyası bir qədər kiçik ola bilərdi. Talenin yazdığından qaçmaq isə mümkün olmadı.

Müharibədə məğlub olan, ərazi bütövlüyü pozulan Azərbaycan və Gürcüstanda vəziyyət faciəli şəkil aldı. Bakı neftin hesabına nisbətən rahat nəfəs ala bildi. Şevardnadzenin - “qoca tülkü”nün vəziyyəti xeyli qəliz idi.

Müharibəni uduzan E.Şevardnadze hər şeyə tüpürüb özü və ailəsi üçün özəl xoşbəxt rahat həyat qurmağa başladı. Ölkə vətəndaşlarının əksəriyyətinin cibləri tərtəmiz təmizləmişdi, azlıq isə o vaxt elə keçirdiyi pulları xımır-xımır yeməklə məşğul idi. Gürcülər bütün gecəni çörək növbələrində keçirirdilər. Bütün bunlar “qoca tülkü”nü narahat etmirdi. Lakin xalqı narahat edirdi. Xalq bu yaşayışa dözmək istəmədi.

Gürcü siyasətinin “qoca tülkü”sü olan Şevardnadze hakimiyyətdən çəkildi.

“Qoca tülkü”nün edə bilmədiyini və yaxud etmək istəmədiyini gənc Mixail Saakaşvili bacardı. Bunu elədi və normal şəkildə hakimiyyətdən getdi. Nə millətə ata olmaq istədi, nə gecə növbəsində çörək arzusu ilə yaşayan insanların son qəpiyini mənimsədi. “Qoca tülkü”dən fərqli olaraq belə rəzilliyə getmədi.

E.Şevardnadzenin ölümü barədə bu günlər çox yazıldı. Əksəriyyəti ümumi sözlər, boğazdan yuxarı təriflər idi. Diqqəti daha çox çəkən bir gürcü jurnalistinin yazısı oldu: **“...Ancaq qalan suyu qurudub qalan çöküntünü təhlil etmək olar. Romalı-zad deyiləm, odur ki, barbar kimi açıq danışacağam: tülkü donuna bürünmüş qoca, miskin axmağın biri hələ sağlığında bütün imkanlarını əldən vermişdi. Nə ağsaqqallığına, nə ad-sanına, nə sabiq Şevardnadze olmasına görə mən ona hörmət etmək və Allahdan rəhm diləmək fikrində deyiləm”.**

E.Şevardnadze öldü. Onun ölümü heç nəyi dəyişmədi. Gürcülər öz həyatlarını yaşamaqda davam edəcəklər. Gecələr çörək növbəsinə də durmayacaqlar, Şevardnadzenin zamanında olduğu kimi hər addımbaşı “qanuni oğru”ların təhqirinə tuş gəlməyəcəklər. Sadəcə yaşayacaqlar. İnsan kimi, təmiz vicdanla yaşayacaqlar. Siyasətin çirkabında boğulmayan insanların yaşayışı doğurdan da qibtəedicidir. Yüz minlərlə gürcü Şevardnadze olmadan da normal yaşayacaq. “Millət atası”nın ölümü onların yadına belə düşməyəcək...

YENİ MÜSAVAT
N 174 (5883) 9 iyul 2014

# Yıxılı evin dirəyi



Zamin HACI
zaminhaci@gmail.com

**İl ibarətdir 365 gündən, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin *(mən qabaqlar buna gül kimi Meşə və Çaqqal Nazirliyi adı qoymuşdum, sonra redaksiya rəhbərliyinin kəskin tələbləri sayəsində adı qaytarası oldum)* hesablamalarına görə, Abşeron yarımadasında küləkli günlərin sayı da 250-280 gün arasında dəyişir. Yəni loru dillə desək, bu xarabada ilin cəmi 3 ayı sakitçilik olur.**

Bəs belə küləkli şəhərdə 160 metr uzunluqda bayraq dirəyi qayırıb onun başına stadion boyda parça keçirtməyin nə mənası var idi? Dünən oxudum: Bayraq Dirəyi Meydanı Dövlət İdarəsinin *(bəh-bəh, gör nə qəşəng idarələrimiz vardır, goru çatlamış SSRİ belə bizə həsəd aparardı)* qərarı ilə məşhur bayraq yenə endirilibdir. Çünki küləyin sürəti filan-filan olubmuş, belə havalarda dünya standartına görə bayraq endirilməli imiş, yoxsa cırılarmış.

Çox maraqlı vəziyyətdir. Hətta kino sənayemiz cəhənnəmə vasil olmasaydı - fürsət ikən Ayaz Salayevin nakam, Mədəniyyət Nazirliyi tərəfindən sünnət edilmiş kinosunu soruşaq, ya da soruşmayaq, rejissor özü taleyə boyun əyibsə, biz neyləyə bilərik - bu bayraq dirəyi əla bir kinokomediyanın obrazıdır. Məsələn, neçə yüz milyon manat xərclənib, ancaq çox vaxt dirək görünür, bayraq isə endirilmiş olur. Belə çıxır ki, biz əslində dirək qurmuşuq. Camaat bayrağı qaldırmaq üçün düzəldir, biz endirmək üçün.

Bəzən külək qəfil əsir, ya da MÇN-in hava bürosu xəbəri idarəyə vaxtında çatdıra bilmir, nəticədə Dirək İdarəsi çatdırıb bayrağı tez endirmir, külək parçanı cırır. İnternetdə axtarsanız, Azərbaycan bayrağının cırıq şəkli bəlkə bütöv şəklindən çoxdur. Al, bu da sənə növbəti sui-qəsd motivi: yapistlər üçrəngli bayrağı təhqir eləmək üçün o boyda dirək və bayraq düzəldiblər. Ki, tez-tez cırılsın. Nəzərdə tutduğumuz kinoda qaranlıq bir zirzəmidə toplaşıb bayrağımızı cıran maskalı masonlar səhnəsi çəkmək olar. Növbəti kadrda Bayraqdar Elman Türkoğlu zirzəmiyə girər, bomba atıb onları havaya sovurar. Komediyaya triller elementləri qatanda super alınır, bəs necə...

Azərbaycanın cırıq bayrağı Xruşşov haqda anekdotu xatırladır. “Amerikaya çatıb onu ötmək” haqda olan məşhur anekdotu. Orda bir kəndli “bəlkə ötməyək, şalvarımızın yamağını görərlər” deyirdi, indi biz də Qafqazın lideri, ÜDM artımına görə Süd Yoluna çıxmış, kainatın avanqardı-zad olsaq da hər yerdən baxanda rəmz olaraq ancaq cırıq bayrağımız, onun boş qalmış dirəyi görünür. Bayraq dirəyi boş qalmış dövlətlə papağı boş qalmış kişi təxminən eyni şeydir. *(Vəziyyəti dramatikləşdirmək üçün belə müqayisələr seçirəm. Kino sənətində kulminasiya vacibdir).*

Bəs o küləkli günlərdə endirilən bayraq hara qoyulur? Onu bir qatlayan, ütüləyən varmı? Bayraq qatlama işlərinə neçə nəfər baxır? Xalqımız bu suallara dərhal cavab istəyir, yoxsa hökuməti istefaya göndərəcəyik, mən ölüm, sənin əziz başın haqqı... O cümlədən, ilin 280 günü boş qalan dirəkdən funksionallıq baxımından necə yararlanmalıyıq? Ümid edirəm Artur müəllim uzun sürən ağır əmək fəaliyyəti sayəsində NK-da bu suallara cavab tapacaqdır. Dirək boş olan günlərdə ondan qoyun əti asmaq, “Azərcell” və başqa telefon şirkətlərimiz üçün ötürücü stansiya, teleqüllə, bulud çırpmaq üçün çubuq kimi yararlanmaq olarmı? Xahiş edirəm başqa pis şeylər fikirləşməyin. O cümlədən, dirəkdən pir düzəldib, adını “Tanrının qələmi” qoyub yaxşı pul çıxartmaq mümkündür, çətini bir arvada telekanalizasiyada “Getdim ora nəzir verdim, uşaq oldu” dedirtməkdir, gör camaat dirəyi necə öpür.

Amma bütün hallarda bizim indiki quru bəyliyimizə, saxta müstəqilliyimizə o bayraq dirəyindən yaxşı simvol fikirləşmək mümkün deyil. Necə ki, dövlət var, ancaq bu dövlət xalqa məxsus deyil, eləcə dirək var, bayrağı isə yoxdur. Ta freydvari “iqtidarsızlıq” yozumlarını oxucuların ixtiyarına buraxıram.

# Leyla Yunus istintaqa getmədi və prokurorluğu ittiham etdi

## Hüquq müdafiəçisinin yenə şərti var: “Qanunlara hörmət etsinlər...”

**İyulun 7-də istintaqa çağırılan Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus sənədlərinin qaytarılmadığını əsas gətirərək prokurorluğa getməkdən imtina edib. Xatırladaq ki, mayın 29-da da buna bənzər hadisə yaşanmışdı.**

Leyla Yunusun iyulun 7-də istintaqa getməməsi ilə bağlı APA-nın suallarını cavablandıran **Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov** hüquq müdafiəçisinin qanunları növbəti dəfə pozduğunu bildirib: “Leyla Yunus və əri Arif Yunusov növbəti dəfə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin icraatında olan konkret cinayət işi üzrə şahid qismində dindirilmələri üçün cari il iyulun 7-də istintaqa dəvət olunsalar da, üzrlü səbəblər olmadan istintaqa gəlməkdən qəsdən boyun qaçırıblar. Leyla Yunus Azərbaycan Respublikasının vətəndaşıdır və digər vətəndaşlar kimi, o da öz növbəsində qanunların tələblərinə riayət etməklə onlara hörmətlə yanaşmalıdır. Əks təqdirdə, barəsində cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görüləcək”

**Bu barədə musavat.com-un suallarını cavablandıran Leyla Yunus APA-nı sərt ittiham edib:** “Mən APA-dan məlumatı oxudum. Baş Prokurorluğun bu barədə rəsmi açıqlaması yoxdur. Eldar Sultanov APA-nın suallarına cavab verərkən bu fikirləri səsləndirib. Bütün mətbuat da buradan məlumatı götürərək, yayıb. APA-nın jurnalisti zəng vuraraq, Leyla Yunusun istintaqa gəlməməsi ilə bağlı sual verib. Eldar Sultanov isə sualları cavablandırıb. Maraqlıdır, niyə APA-dan başqa heç bir mətbuat orqanı Baş Prokurorluğun münasibətini almadı? Ancaq APA fikir öyrəndi. Bu onu göstərir ki, APA müstəqil informasiya agentliyi deyil. Ola bilsin ki, onların rəhbərliyinə yuxarıdan deyiblər ki, bu barədə münasibət öyrənin. Prokurorluq müstəqil bir qurumdur. Jurnalistlərdən asılı bir qurum deyil. Özləri lazım bilən vaxt istədikləri məlumatı yayırlar. Bu onu göstərir ki, onlar hansısa məlumatı yaymaq istəyirdilər. Amma bir informasiya agentliyinin soruşması daha yaxşı idi. Onlar da APA-ya müraciət etdilər. ”Sən bizə ən yaxınsan, bizdən asılısan, ona görə sən bunu elə” deyə... Artıq mənim üçün bunlar tam aydındır”.





**Leyla Yunus Baş Prokurorluğun APA-ya açıqlamasında səsləndirdiyi fikirlərlə bağlı bunları dedi:** “Açıqlamada göstərilir ki, hər bir vətəndaş qanuna tabe olmalıdır. Bunlar tamamilə doğrudur. Burdan bir sual ortaya çıxır. Bəs Baş Prokurorluq və onların işçiləri hansı ölkənin vətəndaşıdırlar? İbrahim Ləmbəranski, Sənan Paşayev, Eldar Əhmədov əgər prokurorluqda işləyirlərsə, ya onlar Azərbaycan vətəndaşı deyillər, ya da qanunlarımıza tabe olmurlar. Onlar Azərbaycan qanunlarını kobud şəkildə 28 və 29 apreldə pozublar. Sənədlərimizi indiyə qədər qaytarmamaqla qanunlarımızı hazırda pozmaqda davam edirlər. Bunun üçün polisdə, məhkəmədə işləyən Azərbaycan vətəndaşları qanuna tabe olmalıdırlar. Qanunlarımıza hörmət etməlidirlər. Mən insan hüquqları sahəsində hüquq müdafiəçisi olaraq, onlardan qanuna tabe olmalarını tələb etməmeliyəm. Onların özləri gərək qanuna tabe olmağı dərk etsinlər”.

**Hüquq müdafiəçisi növbəti dəfə istintaqa çağırılacağı təqdirdə gedib-getməyəcəyi ilə bağlı sualımızı da cavablandırdı:** “Mən fikirləşirəm ki, prokurorluq özü ilk növbədə, qanuna riayət etməlidir. Əgər görsəm ki, prokurorluq qanuna hörmət edir, əlbəttə, o zaman istintaqa gedəcəm. Yox, əgər görsəm ki, qanuna yenə hörmət etmirlər, bilərəkdən qanunlarımızı pozurlar, o zaman mən necə onlarla danışa bilərəm?”

❑ **Cavanşir ABBASLI**

# Soydaşlarımız niyə türkmənlərin cihadına qoşulmur?



**Rəsul Mirhəşimli:** “Azərbaycan Türkmənelində baş verənlərə görə türkmənlərə siyasi baxımdan dəstək verə bilər”



**Kənan Rövşənoğlu:** “Türkmənlərlə bağlı nə rəsmi qurumlar, nə də hökumət heç bir addım atmadı”

**İŞİD-in İraqda terror törətməsi bəzi şiə alimlərinin mərcei-təqlidləri cihad fətvası verməsi ilə sonuclanıb. Artıq İranın tanınmış din xadimi mərcei-təqlidi Ayətullah Sistani cihad barədə fətva verib. Lakin buna baxmayaraq, İraqda kərküklərin soyqırımı davam edir. Nə üçün Azərbaycan inanclıları Sistaninin və digərlərinin, cihad elan etmiş ayətullahların müqəllidləri, tərəfdarları bu cihada qoşulmurlar?**

Ekspertlər isə bildirirlər ki, türkmənlərin dəstəklənməməsinin özəl səbəbləri var. **Dini ekspert Rəsul Mirhəşimli bunun səbəbini belə izah edir:** “Dünyanın əsas güc mərkəzləri Suriyada, o cümlədən Yaxın Şərqdə idarəolunan xaos yaratmaq məqsədi güdürdü. Bu gün o ərazilərdə həmin xaos ”uğurla” idarə olunur. Azərbaycanlıların Yaxın Şərqdə cihad adına hansısa qruplaşmalara qoşulmasını təqdir etmirəm. Artıq İraq və Suriyada baş verənlər bütün əndazəni aşıb. Təəssüf ki, bütün qruplaşmalar elədiklərini İslam adına bağlamaq istəyirlər. İslam bir nəfərin ölümünü bəşəriyyətin ölümünə bərabər tutan dindir. Bu qədər vəhşilik, qəddarlıq, zülmün adı İslam ola bilməz. Küçədə, yolda yeriyən mülki adamları sorğu-sualsız, məhkəməsiz güllələmək din ola bilməz. Azərbaycan Türkmənelində baş verənlərə görə türkmənlərə siyasi baxımdan dəstək verə bilər. Humanitar yardımlarla öz köməyini göstərə bilər. Radikal silahlı qruplaşmalara qoşulmaq isə bütün hallarda cinayətdir, azərbaycanlıların bu cinayətlərə alət olmalarını istəməzdim”.

**Dini ekspert Kənan Rövşənoğlu isə bildirir ki, azərbaycanlıların Suriyadakı, İraqdakı terror qruplaşmalara qoşulmasının səbəbi təbliğatın və təşviqin güclü olmasıdır:** “Burada ciddi bir təşviq var, dövri fəaliyyət var bunun arxasında, maliyyə imkanları var. Cihad təşviq olunur, yığıb aparırlar. Amma türkmənlərlə bağlı nə rəsmi qurumlar, hökumət, Azərbaycan hakimiyyəti, Türkiyə hökuməti heç bir addım atmadı. Nə də bu işi təşkil edəcək kimsə də yoxdur ki, insanları dəvət etsin, gedib türkmənləri qorusunlar. Konkret dini çağırışa gəldikdə isə, İraqdakı alimlər, İraq vətəndaşları üçün müdafiə, köməksiz insanların və müqəddəs ziyarətgahların müdafiəsi ilə bağlı cihad çağırışı edib. Bu, terrora qarşı müdafiə cihadıdır. O da yalnız bölgə əhalisi üçündür. Dini baxımdan, o, Azərbaycan şiələrindən oraya getməyi tələb etmir. Kimsə də könüllü getməyi təşkil etmir, ehtiyac görülmür ki, Azərbaycandan oraya kimsə getsin. Bu işlər təşkil olunur, elə-belə çıxıb yola rahat şəkildə getmirlər. Tutaq ki, Rusiyada döyüşənlərin arxasında hansısa təşkilatçılar, qüvvələr var, onlar səfərbər edirlər. İdeoloji olaraq onlar hazırlayırlar, gedirlər orada döyüşürlər. Amma qorumaq üçün, İraqdakı köməksiz türkmənlərə yardım etmək üçün burada hansısa bir təşkilatın fəaliyyəti, çağırışı yoxdur. İnsanlar ən azı heç olmasa yardım etsinlər, yardım göndərsinlər. Ona görə heç kim düşünmür və hərəkət etmir”.

❑ **Röya RƏFİYEVA**

# ABŞ-ın Ermənistandakı səfirinin Qarabağ açıqlamasına Azərbaycandan reaksiya

**ABŞ-ın Ermənistandakı səfiri Con Heffern Ermənistan mətbuatına açıqlamasında deyib ki, Dağlıq Qarabağ ətrafında olan ərazilərin qaytarılması məsələsi münaqişənin nizamlanmasının altı elementindən biridir.**

Səfirin sözlərinə görə, ABŞ-ın bir müddət əvvəl təklif etdiyi 6 həll elementi Dağlıq Qarabağ ətrafında olan ərazilərin dərhal Azərbaycana qaytarılmasını nəzərdə tutmur: "Dağlıq Qarabağın yekun statusu yerli əhalinin öz iradəsi əsasında formalaşacaq. Daha sonra Laçın dəhlizi istisna olmaqla, Dağlıq Qarabağ ətrafında ərazilər geri qaytarılacaq. Ona görə də mənim sözlərimdə yeni heç nə yoxdur".

**Torpaqların qaytarılması müqabilində Ermənistan tərəfinə zəmanətlərin verilməsi barədə suala cavab verərkən amerikalı diplomat vurğulayıb ki, nizamlanma müqaviləsinin altı elementinə regionda beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi də daxildir:** "Hazırda bu sülhməramlı qüvvələrin tərkibində hansı ölkənin və ya təşkilatın əsgərlərinin olması məsələsi Ermənistan-Azərbaycan arasında danışıqlar predmetidir. Təbii ki, erməni tərəfi əraziləri qaytarmazdan əvvəl beynəlxalq sülhməramlı qüvvələr və təhlükəsizlik zəmanəti olmalıdır".

Qeyd edək ki, son vaxtlar 3 rayonun Azərbaycana qaytarılması qarşılığında bölgədə Rusiya qoşunlarının sülhməramlı statusda yerləşdiriləcəyi barədə informasiyalar yayılır. Bir sıra siyasətçilər, deputatlar və politoloqlar isə bildiriblər ki, ABŞ-ın razılığı olmadan Rusiya istəsə belə Qarabağ probleminin həlli real deyil. ABŞ-ın Ermənistandakı səfirinin son açıqlaması bu iddiaların əsaslı olduğunun göstəricisi sayıla bilər.

Səfirin açıqlamasını şərh edən **Milli Məclisin Müdafiə və təhlükəsizlik komitəsinin üzvü Zahid Oruc** dedi ki, Rusiya ilə Ukrayna arasında konfrantasiya başlanandan dünyada güclü bir bloklaşma getməkdədir və soyuq müharibə dövrünün atmosferi hiss olunur. Rusiya ilə Qərb savaşının Ukrayna məsələləri ətrafında belə amansız xarakter aldığı bir dövrdə inandırıcı deyil ki, Rusiya ilə ABŞ arasında Qarabağ məsələsində kompromis olacaq. Qarabağ tənzimlənməsi də son hadisələrdə böyük zərbə alıb.

**Deputatın fikrincə, ABŞ-ın Ermənistandakı səfiri Qarabağ məsələsində Ermənistan cəmiyyətinin maraq və mənafelərini oxşayan, Azərbaycana isə zərbə sayıla biləcək açıqlamalarla çıxış edib:** "Dağlıq Qarabağ Azərbaycan əraziləridir və beynəlxalq birlik tərəfindən də bu cür rəsmən qəbul edilib. Azərbaycan Konstitusiyasında Azərbaycanın hansısa lokal bir ərazisində referendumla öz müqəddəratını təyin etmə hüququ mövcud deyil. Ona görə "Dağlıq Qarabağın yekun statusu yerli əhalinin öz iradəsi əsasında formalaşacaq" fikri Azərbaycan Konstitusiyasına ziddir. Helsinki Yekun Aktı əsas fundamental hüquq kimi ərazi bütövlüyünü götürür.

Səfirin açıqlamalarına diqqət etdikdə mən düşünürəm ki, ABŞ-ın regional planları nisbətən dəyişib. Erməni cəmiyyəti ilə müxtəlif işləmələrdə aktivlik nəzərə çarpır. Amma Dağlıq Qarabağa Rusiya qoşunlarının yeridilməsi, bu sırada 3-4 rayonun qaytarılması ilə Azərbaycanı özlərinin geopolitik layihələrinə cəlb etmə məsələlərinə çox da real baxmıram. Təkcə ona görə yox ki, indi Rusiya o halda deyil ki, bir neçə cəbhədə Qərblə, Avropa dövlətləri ilə savaşır. Azərbaycan cəmiyyətinə müəyyən bir təsir imkanları Rusiyada həmişə qalır. Mən Rusiya ilə bu dövrdə bütün təmasların ən yüksək səviyyədə saxlanmasının tərəfindəyəm. Amma bunu heç bir halda öz maraqlarımızı tapdalamaq hesabına görməyi də düşünmürəm".

**"Rusiya həqiqətən də ciddi həll formulunu ortaya qoyduğu təqdirdə Qərbin diversiyası və təxribatı sayəsində proses əngəllənə bilərmi" sualına cavabında isə Z.Oruc bildirdi ki, bu, mümkündür:** "Əlbəttə, mümkündür ki, hansısa məsələlər uzansın. Ancaq Rusiyanın real həll planı olarsa, bu, reallığa çevriləcək. Rusiyanın Ermənistana təsir imkanları planı gerçəkləşdirmək üçün kifayət qədərdir. Ona görə biz bilməliyik ki, hazırkı dövrdə əsas söz sahibi Rusiyadır".

**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri Natiq Miri isə hesab edir ki, ABŞ səfirinin Ermənistan mediasına verdiyi açıqlama Azərbaycana xəbərdarlıqdır:** "Mən öz araşdırmalarımda dəfələrlə belə qənaətə gəlmişəm və mediaya da bildirmişəm ki, Azərbaycan Avrasiya İttifaqına üzv olsa və Rusiya bu problemi həll etməyə təşəbbüs göstərsə, ABŞ Qarabağ probleminin həll olunmasına imkan verməyəcək. Səfirin son açıqlaması artıq ABŞ-ın "problemi mənsiz həll etmək mümkün deyil, bölgədə Rusiya ordusunun sülhməramlı adı altında yerləşdirilməsinə razı deyilik" mesajı sayıla bilər. Bir çoxları düşünür ki, Avrasiya İttifaqına qoşulmaq və Rusiya hərbçilərinin Qarabağ bölgəsində yerləşdirilməsinə razılaşmaq Azərbaycanın bir neçə rayonunun azad edilməsinə səbəb olacaq. Bu cür düşünənlər yanılırlar. ABŞ səfirinin siqnal xarakterli açıqlaması da belə düşünənlərin yanlış düşüncədə olduğunu ortaya qoyur".

❑ **Etibar SEYİDAĞA**



**Zahid Oruc:** "Rusiya ilə Qərb savaşının amansız xarakter aldığı dövrdə inandırıcı deyil ki, Rusiya ilə ABŞ arasında Qarabağ məsələsində kompromis olacaq"



**Natiq Miri:** "Səfirin verdiyi açıqlama Azərbaycana xəbərdarlıqdır"

# Furkan Azeri bu dəfə "Yeni Müsavat"ı hədələdi

## "Timeturk" redaksiyamızı məhkəməyə verməyə hazırlaşdığını bildirib

**Bir neçə gün əvvəl Suriyada döyüşən azərbaycanlıların sözçüsü olaraq bilinən Furkan Azeri adlı şəxs sosial şəbəkə vasitəsilə Sabirabaddakı olaylarla bağlı hədələrini yollayıb. Rəsmi twitter hesabından "Azərbaycanın Sabirabad şəhərində zorla saqqalı kəsilən qardaşımızı əsla unutmayacağıq və unutdurmayacağıq" - deyə yazıb.**

Ötən gün isə Furkan Azerinin daha bir açıqlaması yayılıb. İstiqamet.com-un sorğusuna cavab olaraq F.Azeri bildirib ki, onun açıqlamasında təhdid yoxdur. F.Azeri "ən-Nusra" cəbhəsinin sözçüsü olmadığını və hədəfinin Sabirabadda saqqal kəsən şəxs olduğunu bildirib. Eyni zamanda musavat.com saytını hədələyən F.Azeri redaksiyamızı məhkəməyə verməyə hazırlaşdığını bildirib. **Sitat:** "Mənimlə bağlı yayılan yanlış və iftira dolu xəbərləri oxudum. İnsaflı və ədalətli olmaq lazımdır. Mənim cümləmdə təhdid yoxdur. Təbii ki, biz Sabirabadda baş verən o hadisəni əsla unutmayacağıq. Bu təhdid deyil. Hətta təhdid olsa belə bu, yalnız Sabirabadda o əməli həyata keçirən şəxsə qarşı ola bilər. Zatən ilk gündən Azərbaycan hökuməti adamı həbs etdi. Daha nə edilməlidir ki? Biz nə üçün Azərbaycanı təhdid etməliyik? "Yeni Müsavat" və digər nəşrlərə ətraflı yazılı cavabım olacaq. Şəxsimizə qarşı atılan iftiralarla vəkilimiz məşğul olur, bütün qanuni haqlarımızdan istifadə edəcəyik. Əldə heç bir dəlil olmadan insanı terrorçu kimi təqdim etmək böyük bir zülmdür".



Furkan Azeri

Qeyd edək ki, musavat.com saytında bundan əvvəl də Furkan Azeri ləqəbli müəllifin Suriyada baş verənlərlə bağlı məqalələri dərc olunub. Bu yazıların bir çoxunda dini zəmində bölücülük çağırışları olub, eyni zamanda açıq şəkildə tərəf tutulub. Bu yazılarda məhz müəllif tərəfindən Suriya savaşı, eləcə də "ən-Nusra" kimi qruplaşmalara çağırış olub. Yeri gəlmişkən, F.Azeri adlı müəllifin hazırda Türkiyədə yaşadığı, ancaq ara-sıra Azərbaycana gəldiyi məlum olub. Belə ki bir qədər əvvəl F.Azeri avropa.info saytının baş redaktoru Ruslan Bəşirlidən müsahibə alıb. Eyni zamanda publika.az saytına müsahibə verib.

❑ **HÜSEYN**

# Şər zolağı - İraqdan Ukraynayadək...



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Dünyanın işinə bax, bir yanında xristianlar, o biri yanında isə müsəlmanlar bir-birinə qənim kəsilib. Ukrayna, Yaxın Şərq, İraq, Suriya... XXI əsrdə insanlığın faciəsinin yaşandığı əsas ünvanlar bu günə bunlardır.**

Hələ ki qanlı prosesləri durdurmağa beynəlxalq birliyin gücü, qüdrəti çatmır. Edilən səylər isə olduqca yetərsizdir. Ona görə ki, "beynəlxalq birlik" mücərrəd anlayışdır və əslində beynəlxalq təşkilatlarsız o heç nəyə qadir deyil. Beynəlxalq təşkilatlar - BMT və onun mühüm qurumu olan Beynəlxalq Tribunal, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı isə əfsus ki, daha çox formal, adı olub özü olmayan qurumlardır.

Artıq bununla neçənci dəfə sübut olunur ki, bəşəriyyət üçün kritik dönəmlərdə, qlobal böhranlarda bu təşkilatlar həlledici söz sahibliyinə malik deyillər. Olsa-olsa, yalnız iri dövlətlərin əlində vasitə rolundadırlar. Yoxsa ki, nə Ukraynada terrorçu-separatçılar, nə də Suriyada, İraqda "müsəlman" baş kəsənlər belə sərbəst şəkildə at oynada bilməzdilər, qısa zamanda cilovlanardılar.

Dünyanın düzəni pozulub. Bunun digər mühüm səbəbi beynəlxalq hüquq sisteminin, beynəlxalq hüququn özünün böhrana girməsidir; fövqəlgüclərin dünyanın təzədən bölüşdürülməsinə yönəlik cəhdləridir. Yaşanan tükürpədici faciələr, günahsız uşaqların, qocaların, qadınların axıdılan qanları bu mənada həm də hadisələrdən sırf siyasi maraqlar güdənlərin vicdanındadır.

Əlbəttə ki, İŞİD-in İslam adına törətdiyi, mübarək Ramazan ayında belə ara verməyən vəhşilikləri, bəşəri cinayətləri ilə Ukraynadakı separatçıların zorakılıqları bir araya sığmaz. İnsaf yaxşı şeydir. Ancaq bu hadisələri ümumi bir cəhət birləşdirir - şərin xeyrə qarşı ayaq açması, yürüməsi, haqqın küncə sıxışdırılması.

Təbii, şərə qarşı xeyir həmişə toparlanıb və yenə də toparlanacaq. Bu imperativdir. Ancaq sivil dünya olaylara nəhayət, adekvat mövqe ortaya qoymayınca, beynəlxalq təşkilatlar, ələlxüsus BMT, onun Təhlükəsizlik Şurasının 5 əsas dövləti seyrçi yanaşmanı dayandırıb real hərəkətə keçməyincə hələ "xəmir çox su aparacaq", qurbanların sayı azalmayacaq.

Bu yerdə adı təmtəraqlı səslənən İslam Əməkdaşlıq Təşkilatının dişsiz mövqeyini xüsusi qeyd eləmək lazım gəlir. Qəribədir, on minlərlə müsəlman, özü də mülki şəxs qətlə yetirilib, terrorçu qruplaşmanın vəhşilikləri, islamı gözdən salan hərəkətləri günbəgün artır, islam adına edilməyən əxlaqsızlıq, həyasızlıq qalmayıb, ancaq heç olmasa müsəlman dövlətlərini birləşdirən əsas qurumdan səs çıxmır. O zaman bu təşkilat niyə, nə və kimim üçün yaradılıb? Hanı onun baş katibi? Niyə mövqe ortaya qoymur, tərəflərə çağırış eləmir, quruca bəyanat belə səsləndirmir?..

Zorakılıq asanca zorakılıq, qisas doğurur. Bineyi-qədimdən belə olub. Heç şübhəsiz, İŞİD-çilərin azğınlıqları, İslam adına imza atdıqları iyrənclikləр qarşılarına mütləq çıxacaq, cavabları bumeranq effektli ilə, artıqlaması ilə alacaqlar - qrup-qrup, tək-tək. Heç kim də onlara qondarma "xilafət dövləti" yaratmağa imkan verəsi deyil. Özlərini yormasınlar. Onlardan sadəcə, böyük maraqlar naminə əməllicə istifadə olunacaq, vəssalam. Necə ki, istifadə edirlər. Kimlər? Hamıya aydındır. Ancaq arada qanı axıdılan bu dəfə qarşı tərəfin qisas qurbanları olacaq.

Rusiya amilini isə xüsusi qabartmağın yeri var. Məsələ ondadır ki, Kreml Bəşər Əsəd rejiminin siyasi səhnədən vaxtında uzaqlaşdırılmasına mane olmasaydı, bu gün İŞİD indiki imkan və gücdə olmayacaq, İraq ərazisinə, türk yurdlarına, Mosula, Allah bilir daha haralara ayaq açmayacaqdı. Ən azı ona görə ki, təzə hakimiyyət onların əl-qol açmasına imkan verməyəcəkdi.

İraqdan Ukraynayadək uzanan qanlı zolağın bir ortaq xüsusiyyəti də zatən, budur - daima şərin qulluğunda olan rus faktorunun mövcudluğu...

YENİ MÜSAVAT

N 174 (5883) 9 iyul 2014




# Azərbaycan öz ixtiyarını Qərbə versə...

## Qarabağın taleyi necə olacaq, yağışdan çıxıb yağmura düşmək təhlükəsi; Rusiya əvəzinə bu dəfə Qərbin ədalətsiz arbitrliyinə tuş gəlmərik ki?

**Krım hadisələri Dağlıq Qarabağ məsələsinə Qərbin ikili standart yanaşmasında ciddi düzəlişlərə gətirmədi. Fakt budur ki, Qərbin iradəsi əleyhinə gedərək yarımadanın Rusiyaya birləşdirilməsini haqqın təntənəsi sayan, Putinə qələbə zəngi edən Sərkisyan Ermənistanına - işğalçı bir ölkəyə həmin Qərbin münasibəti yerində qalıb. Səbəbləri barədə kifayət qədər yazılsa da, yenə yeri var qeyd edək ki, belə yanaşma torpaqlarının 20 faizi erməni tapdağında olan Azərbaycanı rahatsız eləməyə bilməz.**

Tam məntiqli bir sual ortaya çıxır: Ermənistan hələ Rusiyanın yanında ikən ABŞ, Avropa ona belə qucaq açırsa, Fransanın timsalında onu "kiçik bacı" adlandırırsa, ən əsası, işğala göz yumursa, sabah bu cırtdan ölkə Qərbin yanında qərar tutsa, necə olacaq, təcavüzkarın başına fırlanmazlarmı? O zaman Azərbaycanın maraqları, Dağlıq Qarabağın taleyi necə olacaq. Azərbaycan öz ixtiyarını Qərbə versə, yağışdan çıxıb yağmura düşməz ki? Rusiya əvəzinə bu dəfə Qərbin ədalətsiz arbitrliyinə tuş gəlməz ki?

Bunlar ciddi suallardır, çünki cavabların bilavasitə Qarabağın taleyinə dəxli var. Təkcə dəxli yoxdur. Eyni zamanda əfsuslar olsun ki, belə ola biləcəyinin müəyyən işartıları mövcuddur və özü də az deyil. Biri elə Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin Ukrayna hadisələrinin qızğın vaxtında Dağlıq Qarabağ problemin həllinə dair irəli sürdüyü, Azərbaycan ərazilərini sortlara bölən 6 bəndlik təklifi.

Dünən **Amerikanın Ermənistandakı səfiri Con Heffern** həmin elementləri bir daha erməni mətbuatına şərh edib. Səfir Dağlıq Qarabağ ətrafındakı ərazilərin qaytarılması məsələsinin münaqişənin nizamlanmasında 6 elementdən biri olduğunu xatırladaraq xüsusi qeyd edib ki, bu bənd Dağlıq Qarabağ ətrafında olan rayonların dərhal Azərbaycana qaytarılmasını nəzərdə tutmur. Sitat: **"Dağlıq Qarabağın yekun statusu yerli əhalinin öz iradəsi əsasında formalaşacaq. Daha sonra Laçın dəhlizi istisna olmaqla, Dağlıq Qarabağ ətrafında ərazilər geri qaytarılacaq. Ona görə də mənim sözlərimdə yeni heç nə yoxdur".**

Torpaqların qaytarılması müqabilində Ermənistan tərəfinə zəmanətlərin verilməsi barədə suala cavab verərkən amerikalı diplomat vurğulayıb ki, nizamlanma müqaviləsinin 6 elementinə regionda beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi də daxildir: "Hazırda bu sülhməramlı qüvvələrin tərkibində hansı ölkənin və ya təşkilatın əsgərlərinin olması məsələsi Ermənistanla Azərbaycan arasında danışıqlar predmetidir. Təbii ki, erməni tərəfi əraziləri qaytarmazdan əvvəl beynəlxalq sülhməramlı qüvvələr və təhlükəsizlik zəmanəti olmalıdır".

Diqqət edildi yəqin ki, amerikalı diplomat Dağlıq Qarabağ bölgəsinin yekun statusunun lokal referendumla müəyyən ediləcəyinə aydın işarə vurub. "Referendum"un nəticəsinin necə olacağını isə Amerikadakı eskimoslar da ala bilir. Çünki son rəsmi statistikaya görə, yerli əhalinin əksəriyyəti ermənidir.

Ancaq önəmlisi bu da deyil. Odur ki, Krımda separatçılığı pisləyən, orada keçirilən öz müqəddəratını təyinetmə referendumunu beynəlxalq hüquqa zidd və qanunsuz sayan ABŞ, Avropa Dağlıq Qarabağın statusunun "yerli əhalinin iradəsi" əsasında müəyyən edilməli olduğunu təşviq edir. Niyə, hansı əsasla? İşğalın buynuzumu olur? Yaxud ermənilər öz müqəddəratlarını iki dəfə təyin edə bilərlər, ruslar yox?

Qərbin ikili standart siyasətinin daha bir əcaib təzahürü: nə Amerika, nə də Avropa separatçı Dağlıq Qarabağ rejiminə loyal münasibətini Krıma, Abxaziya, Cənubi Osetiya və Dnestryanı bölgəyə qarşı sərgiləməyib. Həll formulu kimi referendum təklifini ortaya atmayıb. Əksinə, həmin ərazilərin işğal edildiyini bəyan edib və edir. Bəs, Azərbaycan? Nədən eyni münasibəti biz haqq edə bilmirik? Xristian amilinə görəmi?

Azərbaycanda insan haqlarının pozulması, avtoritar idarəçiliyin hökm sürməsi faktdır. Ancaq bu, dünyanın gözü qarşısında baş vermiş və davam edən erməni işğalına bəraət qazandıra, ikili standart siyasətinə haqq qazandıra bilməz. Qazandırmayacaq da.

❑ **Siyasət şöbəsi**

# "Moskvanın tapşırığı ilə işə götürülmüşdüm"

## Vəfa Quluzadə: "Heydər Əliyev dedi ki, Vəfa, sən orda nələr danışmısan ki, bütün Moskva ayaq üstə qalxıb?"

**Bəzən ayrı-ayrı dairələrdə "Azərbaycanın Bzejinskisi" adlandırılan sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə Azərbaycan siyasətinin maraqlı personalarındandır. Dünya çapında baş verənlərə, Qarabağ ətrafında cərəyan edən hadisələrə daim özəl baxışı olan diplomatın fikir və təhlilləri hətta ölkə çapından kənarda da həssaslıqla qarşılanıb, ciddi reaksiyalara səbəb olub.**

V.Quluzadə həm də o simalardandır ki, ona həm vaxtilə təmsil olunduğu hakim düşərgədə böyük dəyər verirlər, həm müxalifətdə, həm də cəmiyyətdə. Hətta küçədə, dükan-bazarda rastlaşdığı sadə adamlar sabiq müşaviri görən kimi onunla şəkil çəkdirir, hansısa suallarına cavab istəyirlər. Bugünlərdə isə ABŞ səfirliyində ölkənin müstəqillik günü münasibətilə keçirilən tədbirdə "Yeni Müsavat"ın əməkdaşının diqqətini bir məqam cəlb edib. Jurnalist deyir ki, V.Quluzadə ilə həm iqtidar, həm də müxalifət təmsilçiləri yaxınlaşıb səmimi şəkildə qucaqlaşıb, görüşüb-öpüşürdülər. Hansı ki, iqtidardan ayrılan əksər insanlara münasibət belə olmur. Biz də bu cür münasibətin açarı və sirri barədə soruşduq. Maraqlıdır, V.Quluzadə buna necə nail olub?

**V.Quluzadənin cavabı maraqlı oldu:** "Bunun üçün aşağıdakılar vacibdir: təmiz həyat sürmək, xalqın maraqlarını, milli maraqları təmsil etmək. Mən bütün müsahibələrimdə, məqalələrimdə heç bir qrupun tərəfində çıxış etmirəm. Mən yalnız xalqımın milli maraqlarını müdafiə edirəm. Mən qeyri-adi dövlət vəzifəli adam olmuşam. Deyərdim ki, heç vaxt məmur olmamışam. Mən daim xarici siyasət sahəsində çalışmışam və faktiki olaraq xarici siyasət sahəsində fikirlərimi iqtidarda çalışa-çalışa səsləndirmişəm. Heydər Əliyev buna çox böyük dözümlə yanaşıb. Mən hərdən özümə sual verirəm və təəccüb edirəm ki, nəyə görə o, mənim bu qədər müstəqil çıxışlarıma sərt reaksiya verməyib? Daim hiss edirdim ki, o, mənimlə həmfikirdir və həmrəydir".

**Sabiq müşavir dedi ki, istefaya çıxandan sonra da dəyişməyib:** "Mən iqtidarda nə idimsə, indi də oyam, ikisifətli adam olmamışam. Qarabağ məsələsində, Rusiya, ya Amerika haqqında o vaxt nə demişəmsə, indi də onu deyirəm. Mən ömrümdə iqtidarı tənqid etməmişəm, sadəcə, müstəqil fikrimi ifadə etmişəm. Ancaq əgər bu fikir iqtidarın fikri ilə üst-üstə düşməyibsə, bu, başqa məsələdir. Mən bu isti münasibəti həm iqtidar tərəfindən hiss edirəm, həm də müxalifət tərəfindən. Mənə hamı olduqca mehriban münasibət bəsləyir. Çünki mən heç kimi narahat etməmişəm və etmirəm də. Çox adam əlaqələrinin olmasından istifadə edib kiməsə zəng edə, hansısa problemini həll etmək istəyər. Amma mən oyun qaydalarını bilirəm. Məsələn, bilirəm ki, mənim kimi tanımış bir adamın hər hansı bir xahişini hansısa bir nazir, ya müavini yerinə yetirmək istəsə, o, gərək birinci şəxsdən icazə alsın. Başqasınınkını edə bilər, çünki başqasını heç kim tanımır. Amma mənə gələndə, xahişim bəyənilməyə də bilər. Mən heç kəsi narahat etmirəm, ona görə də hamı mənə yaxşı münasibət bəsləyir. Həmçinin müxalifət də görür ki, Qarabağ məsələsi, Azərbaycan-Qərb, Azərbaycan-Rusiya ələqələri



**Sabiq dövlət müşaviri "Yeni Müsavat"a ilginc faktlar açıqladı**

ilə bağlı mən milli maraqları ifadə edirəm. Mənim milli maraqlardan çıxış etməyim onların da maraqları ilə üst-üstə düşür. Səbəb budur, başqa şey deyil".

**V.Quluzadə ötən illərdəki fəaliyyəti barədə bir neçə maraqlı faktı da xatırladı:** "1995-ci ildə Amerikadaydım. Məni yaxın Şərq İnstitutu dəvət etdi və mən orda çıxış etdim. O çıxış Dağlıq Qarabağ məsələsi, Rusiyanın Qafqazdakı siyasəti ilə bağlı idi. Mən orda dedim ki, Rusiya Federasiyası əslində imperiyanın qalıqlarıdır və çökəcək. Ona görə ki, bu federasiya könüllü federasiya deyil. Mənim çıxışımın qısa məzmununu Moskvaya göndərmişdilər və buna çox sərt reaksiya oldu. "Moskovskaya pravda", "Komsomolskaya Pravda" qəzetində mənim fikirlərimə kəskin reaksiya verilmişdi. Mən Amerikadan qayıdanda Heydər Əliyev buna sərt reaksiya verədi. Yalnız yarımciddi şəkildə, gülümsəyərək "Vəfa, sən orda nələr danışmısan ki, bütün Moskva ayaq üstə qalxıb" dedi. Yəni Heydər Əliyev belə hallara dözüb. Düzü, mən Heydər Əliyevlə işlədiyim dövrü çox yüksək qiymətləndirirəm. Ona görə ki, Heydər Əliyev mənə tamamilə azad hərəkət etməyə imkan vermişdi. Bir dəfə də mənə zarafatla bir söz dedi ki, "Vəfa, sən bu qədər azad bəyanatlar verirsən, sən mənim müşavirim deyilsənmi?" Dedim, bəli. Qayıtdı ki, bu, o demək deyilmi ki, sənin fikirlərin elə mənim fikirlərimdir?" Dedim, düz deyirsiniz, elədir. (gülür) Demək istəyirəm ki, o zaman mənə tam müstəqillik verilmişdi, mən bunu olduqca yüksək qiymətləndirirəm".

**Eks-müşavir bir hadisədən də bəhs etdi:** "Heydər Əliyev "Gülhanə"də müalicə olunurdu, mən bəyanat verdim ki, Azərbaycan NATO bazalarını qəbul edə bilər və hətta yerini də göstərdim. Bu, dünyada böyük bir vəlvələ saldı. Ən çox ajiotaj isə Rusiya və İranda yarandı. Bu ölkələrin XİN-ləri şəxsən mənim əleyhimə bəyanatlar qəbul etdilər. Bununla kifayətlənməyən Rusiya nümayəndə heyəti Ankaraya Heydər Əliyevlə görüşə getdi ki, siz burdasınız, amma müşaviriniz belə bəyanatlar verir. Heydər Əliyev görün nə qədər ağıllı cavab vermişdi. Demişdi ki, gəlin irəli qaçmayaq, NATO bazaları hələlik Azərbaycanda deyil. Ona görə də gəlin sizin Ermənistandakı bazanızdan danışaq. Çıxardın bazalarınızı Qafqazdan, burda heç bir baza olmasın. Yəni bununla Heydər Əliyev mənim bəyanatlarımı təkzib etmədi. Rusiya o zaman bilmədi ki, buna necə reaksiya versin. Qayıdandan sonra çox mehriban görüşdük və mənim bəyanatımı heç müzakirə də etmədik".

**V.Quluzadə Rusiya səfirliyi önündə "Bəsdir Ermənistanı silahlandırdınız" tələbi ilə təşkil etdiyi mitinqi də xatırlatdı:** "O zaman bütün iqtidaryönlü partiyalar mənim ofisimdə yığışmışdı, məndən məsləhət alıb sonra ora getmişdi. Yəni mənim həm iqtidar, həm müxalifətlə həmişə sıx əlaqələrim olub. O zaman mən düşündüm ki, Heydər Əliyev hələlik Bakıda deyil, fürsətdən istifadə edib aksiya keçirtmək olar. Zəng etdim Bakı meriyasına, Rəfael Allahverdiyev dedi buna görə prezidentlə danışmaq lazımdır. Onda mən klinikaya, Heydər Əliyevə zəng etdim. Hərdən söhbətləşirdim. Məqsədimi dedim və şüarları da oxudum. O, şüarların bəzilərini, daha sərtlərini çıxartdı. Sonra dedi ki, Təhlükəsizlik Şurası yığılsın, mənə ordan zəng edin. Spiker Murtuz Ələsgərov və Prezident Aparatının rəhbəri Ramiz Mehdiyevlə danışmaq istəyirdi. Ramiz Mehdiyevin otağından Heydər Əliyevə zəng etdim. Heydər Əliyev soruşdu ki, Vəfa Quluzadənin təklifinə necə münasibət bəsləyirsiniz. Hamısının münasibəti müsbət oldu. Daha sonra şüarlar bir daha süzgəcdən keçdi və bu aksiya keçirildi. O zaman Rusiya Ermənistanı silahlandırırdı, 1 milyard dollarlıq silah vermişdi, Qarabağ məsələsinin həllinə maneçilik törədirdi. Bu aksiya 1998-ci ildə olmuşdu. 6-cı gün mitinq oldu. Şüarlarımızdan biri belə idi: "Müəllimlərin maaşını vermək daha yaxşıdır, nəinki Ermənistana silah vermək!" Aksiyanın gedişində hələ Rusiya səfiri Bloxin yatırdı. Oyanan kimi Moskvaya zəng edib "bu aksiyanı Vəfa Quluzadə təşkil edib" demişdi".

**V.Quluzadə qeyd etdi ki, Elçibəy dövründə də aktiv olub, Azərbaycan-Qərb əlaqələrinin quruculuğunda və Qarabağ məsələsində gərgin fəaliyyətlə məşğul olub:** "Amma Mütəllibov dövründə mənim elə bir aktivliyim yox idi, çünki komandanın üzvü deyildim, Moskvanın tapşırığı ilə işə götürülmüşdüm, özümü fəxri qonaq kimi hiss edirdim və rahat şəkildə yerimdə oturmuşdum".

❑ **E.PAŞASOY**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



Yeni MÜSAVAT

N 174 (5883) 9 iyul 2014



# Diplomatlarla görüşdə mühüm Qarabağ mesajları

## Azərbaycanın birinci şəxsi dünyaya, Qarabağ ermənilərinə və Ermənistana son sözünü dedi

**“Məsələnin həlli ölkəmizin ərazi bütövlüyü çərçivəsində olacaq. Başqa variant yoxdur! Heç vaxt Azərbaycan ərazisində ikinci erməni dövləti yaradıla bilməz! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək!”**
**İyulun 7-də diplomatik xidmət orqanları rəhbərlərinin müşavirəsində danışan prezident İlham Əliyev belə deyib. Dövlət başçısı çıxışında Dağlıq Qarabağ münaqişəsinin üzərində geniş dayanıb: “Xarici siyasətlə bağlı əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Əfsuslar olsun ki, son müşavirədən keçən dövr ərzində bu sahədə heç bir irəliləyiş olmayıb. Əlbəttə ki, müxtəlif bəyanatlar səslənib, müxtəlif səylər göstərilib.**

Minsk Qrupunun həmsədrləri bölgəyə dəfələrlə səfərlər ediblər. Ancaq heç bir nəticə yoxdur. Bunun başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi və münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq cəhdləridir. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə birbaşa məşğul olan vasitəçilər tərəfindən Ermənistana heç bir ciddi siqnal verilməyib. Bizdə belə fikir yaranır ki, məsələ ilə məşğul olan vasitəçilər bu vəziyyəti daha çox bu şəkildə saxlamaqda maraqlıdır. Onların əsas marağı ondan ibarətdir ki, bölgədə sabitlik pozulmasın, müharibə olmasın. Biz də sülh istəyirik. Ancaq dəfələrlə bəyan etmişəm ki, biz torpaqlarımızı, haqq-ədalətin bərpasını, beynəlxalq hüququn təntənəsini istəyirik. Son illər ərzində Ermənistanın bu mövqeyi imkan vermir ki, məsələ danışıqlar yolu ilə həllini tapsın. Əlbəttə ki, məsələnin həlli başqa yolla da mümkündür. Biz bunu heç vaxt inkar etməmişik və açıq bəyan etmişik ki, hərbi yol da istisna edilmir”.

**Ali Baş Komandan bəyan edib ki, son aylarda, illərdə beynəlxalq arenada müşahidə olunan mənzərə beynəlxalq hüququn işləmədiyini göstərir:** “Güc amili əsas rol oynayır. ”Kim güclüdür, o da haqlıdır" prinsipi əfsuslar olsun ki, beynəlxalq əlaqələrin konstruksiyasına böyük zərbə vurub. Yəni bu, reallıqdır. Biz real dünyada yaşayırıq və reallıqlarla hesablaşmalıyıq. Ona görə bizim ordu quruculuğu ilə bağlı ardıcıl siyasətimiz bu gün bir daha göstərir ki, nə qədər düzgün və nə qədər vaxtında atılan addımlar idi. Bu gün biz hərbi potensialımızı gücləndirərək məsələni hərb yolu ilə də həll edə bilərik. Sadəcə olaraq, hesab edirik ki, hələ danışıqlar potensialı tükənməyib. Biz siyasi, iqtisadi, o cümlədən hərbi təzyiqlərdən istifadə edərək çalışacağıq ki, məsələ dinc yolla həll edilsin. Ancaq həll edilsin. Bu məsələ dondurulmuş vəziyyətdə qala bilməz. Bunu hər kəs bilməlidir. Bu məsələ ilə məşğul olan vasitəçilər də bunu bilməlidirlər və bilirlər. Hesab edirəm ki, son vaxtlar vasitəçilərin fəaliyyətində müşahidə edilən fəallıq bizim artan iqtisadi və hərbi gücümüzlə əlaqəli olan məsələdir. Çünki onlar da Ermənistan kimi çox yaxşı dərk edirlər ki, istənilən vaxtda biz hərbi gücümüzdən istifadə edərək Qarabağ məsələsini birdəfəlik həll edə bilərik. Bu gün güc amili, bir daha demək istəyirəm ki, həlledici rol oynayır. Biz daha da güclü olmalıyıq, oluruq. İqtisadi, siyasi və hərbi potensialımız kifayət qədər güclüdür və danışıqlarda bu amil müsbət rolunu oynayacaq".

Ölkə başçısı Dağlıq Qarabağın mənimsənilməsi istiqamətində çeşidli planlar quran güclərə növbəti dəfə Azərbaycan dövlətinin prinsipial mövqeyini çatdırıb: “Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Tarixi və hüquqi nöqteyi-nəzərdən Qarabağ həmişə Azərbaycan torpağı olub. Azərbaycan xalqı Dağlıq Qarabağda və işğal edilmiş digər torpaqlarda əsrlər boyu yaşayıb, yaradıb. Bütün tarixi abidələrimiz, toponimlərimiz, kəndlərin, şəhərlərin adları Azərbaycan mənşəlidir. Bu, həqiqətdir. Əlbəttə ki, biz bunu bilirik, dünya da bunu bilir və bilməlidir”. **İ.Əliyev diplomaik korpusun da prioritetlərini açıqlayıb:** “Diplomatların fəaliyyəti ilk növbədə bu istiqamətə yönəlməlidir. Çünki hələ ki geniş dünya ictimaiyyəti Qarabağla bağlı həqiqətləri bilmir. Erməni lobbisi çalışır ki, faktları dünya ictimaiyyətinə təhrif edilmiş şəkildə çatdırsın. Biz isə çalışmalıyıq ki, real faktları dünya ictimaiyyətinə çatdıraq, o cümlədən İrəvan xanlığı ilə bağlı olan həqiqətləri çatdırmalıyıq. Alimlərimiz mənim təşəbbüsümlə İrəvan xanlığı haqqında böyük elmi əsər yaradıblar. Bunun çox böyük əhəmiyyəti var. Ancaq bu əsər daha çox faktoloji və elmi məsələləri əks etdirir. Hesab edirəm ki, daha geniş auditoriyaya çatdırmaq üçün kiçik həcmli broşürlər də buraxılmalıdır. Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Mədəniyyət və Turizm Nazirliyi birlikdə belə broşürlər hazırlamalıdırlar ki, müxtəlif dillərdə nəşr edilsin və xarici ictimaiyyətə çatdırılsın. O cümlədən İrəvanın 1918-ci ildə Ermənistana verilməsi faktları da geniş auditoriyaya məlum deyildi. Bu məsələni mən birinci dəfə qaldıranda, bu, bəziləri üçün, necə deyərlər, bir yenilik kimi görünürdü. Ancaq bu, reallıqdır, bunu hazırda Azərbaycanda hər kəs bilir və imkan düşdükcə biz bunu beynəlxalq konfranslarda, forumlarda, tədbirlərdə daim qeyd etməliyik. Çünki bu, tarixi həqiqətdir”.

**Prezident bəyan edib ki, beynəlxalq hüquqda tarixi amillər öz rolunu oynayıb, presedent hüququ var:** “Ona görə bizim mövqeyimizi möhkəmləndirən kifayət qədər çox amillər var: tarixi, hüquqi və siyasi. Bir sözlə, həm tarixi, həm hüquqi tərəf bizim mövqeyimizi dəstəkləyir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, erməni silahlı qüvvələrinin torpaqlarımızdan qeyd-şərtsiz çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib. Digər beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul ediblər. Yəni bu artıq çox möhkəm hüquqi zəmindir. Düzdür, bu, hələ ki real nəticəyə çevrilməyib. Ancaq tarixi və hüquqi zəmin var. Belə olan halda, təbii ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılması qətiyyən mümkün deyil. Əlbəttə ki, Azərbaycan dövləti buna heç vaxt imkan verməyəcək və heç bir ölkə qondarma ”Dağlıq Qarabağ respublikasını" müstəqil qurum kimi tanımayacaq. Orada keçirilən qanunsuz referendumlar dünya birliyi tərəfindən tanınmayıb və tanınmayacaq. Məsələnin həlli ölkəmizin ərazi bütövlüyü çərçivəsində olacaq. Başqa variant yoxdur! Mən bunu bir daha bəyan etmək istəyirəm. Heç vaxt Azərbaycan ərazisində ikinci erməni dövləti yaradıla bilməz! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək! Biz sadəcə olaraq istəyirik ki, bunu nə qədər mümkündürsə tez edək. Ancaq edəcəyik".

**İ.Əliyev bəyan edib ki, Bakı məsələni köklü şəkildə həll etməyi nəzərdə tutur:** “Yəni məsələnin yarımçıq şəkildə həll edilməsi, sadəcə, bir mərhələ ola bilər və təbii ki, mərhələli həlli üstünlük təşkil edir və edəcək. Ancaq biz əsas hədəfi yaddan çıxarmamalıyıq. Azərbaycanlılar işğal edilmiş torpaqlara, Dağlıq Qarabağa, - o da işğal edilmiş torpaqdır, - qayıtmalıdırlar. Azərbaycan öz suverenliyini bərpa etməlidir. Erməni xalqı Azərbaycan dövləti çərçivəsində yüksək muxtariyyət statusuna malik olan şəraitdə yaşaya bilər. Biz bunu təklif etmişik və bu yanaşma dünyada və Avropada ən müsbət təcrübəyə əsaslanır. Siz diplomatlar yaxşı bilirsiniz və biz bu məsələni öyrənmişik - dünyada, Avropada nə qədər muxtariyyətlər var. Orada bütün məsələlər çox gözəl tənzimlənir. Bizim məsələdə də bu yanaşma üstünlük təşkil etməlidir”.

***

**Politoloq Zəfər Quliyevin fikrincə, diplomatlara verilən məsləhətlər, mesajlar və göstərişlər uzun bir müddətə hesablanıb:** “Avropada, dünyada Azərbaycan həqiqətlərini yaymaq, Ermənistanın işğalçı siyasətinin tarixi kökləri, Ermənistan ərazilərinin Azərbaycanla məxsus olması, sonradan İrəvan şəhərinin və digər ərazilərin Ermənistana verilməsi ilə bağlı həqiqətlərin dünyaya yayılması çox vacibdir. Lakin hiss olunur ki, ölkə rəhbərliyi diplomatları uzun bir perspektiv üçün təlimatlandırır. Həqiqətin biz tərəfdə olması, bunu dünyaya yaymağın lazımlılığı barədə deyilənlər gələcəkdə hansısa güc variantının işə salınmasına xidmət edə bilər. Ona görə ki, lazımlı təbliğat getməlidir, həm ölkə daxilində, həm də dünyada Azərbaycana uyğun olan ictimai rəy formalaşmalıdır ki, sabah Azərbaycan hərbi yolla torpaqlarını azad etməyə məcbur olsa, beynəlxalq ictimaiyyətin rəyi tam Azərbaycanın xeyrinə dəyişməsə də, həqiqətlər barədə məlumatlı olsun. Bu, baxımdan prezidentin dedikləri strateji məqsədlərə xidmət edən məsləhətlərdir”.

**Ancaq politoloq mətbuata qapalı olan müzakirə və mesajların olduğuna da şübhə etmir:** “Ola bilsin ki, bu auditoriya üçün prezidentin dediyi kifayət edirdi. Lakin o da mümkündür ki, mətbuat üçün açıqlanmayan hissələr də var. Prezident daha dar bir çərçivədə məsələnin həll yollarını daha konkret formada müzakirə edə bilər”.

**İlham Əliyev:** “Azərbaycanlılar işğal edilmiş torpaqlara, Dağlıq Qarabağa qayıtmalıdırlar. Azərbaycan öz suverenliyini bərpa etməlidir; erməni xalqı Azərbaycan dövləti çərçivəsində yüksək muxtariyyət statusuna malik olan şəraitdə yaşaya bilər”

**Ali Baş Komandan bir daha bəyan edib ki, gələcəkdə xalqımız bütün tarixi torpaqlara qayıdacaq və qayıtmalıdır:** “Mən əminəm ki, o gün gələcək. Çünki bu gün ölkəmizin siyasi çəkisi, iqtisadi potensialı və demoqrafik vəziyyətimiz belə deməyə əsas verir. Bizim əhalimiz artır, artacaq, Ermənistan əhalisi azalır və azalacaq. Bizim Ermənistanı müəyyən dərəcədə təcrid edilmiş vəziyyətdə saxlamağımız bu məqsədi güdür. Biz onları bütün iqtisadi və enerji layihələrindən təcrid etmişik və buna görə tənqid olunmuşuq. Bu gün də tənqid olunuruq, siz də bunu yaxşı bilirsiniz. Ancaq biz öz məqsədimizə çatmalıyıq. Tənqid əsaslıdırsa, biz, əlbəttə ki, bu tənqidi qəbul edə bilərik. Ancaq əsassız tənqidi biz heç vaxt nəzərə ala bilmərik. Ona görə Ermənistan bundan sonra da təcrid edilmiş vəziyyətdə qalacaq. Belə olan halda çox kiçik daxili bazarı və ixrac imkanları sıfıra bərabər olduğu üçün, əlbəttə ki, Ermənistanın inkişaf potensialı yoxdur. Bunun səbəbidir ki, ildən-ilə oradan miqrasiya artır və onların rəsmi statistikasına görə bu ilin birinci rübündə 40 min erməni ölkəni tərk edib. Amma real rəqəmlər ondan da böyükdür. Bu, il ərzində 100 mini keçəcək. Azərbaycan güclənir, Ermənistan zəifləyir. Ermənistanı ayaqda saxlayan ancaq xarici yardımdır, diaspordur və bəzi ölkələrin Ermənistana xüsusi münasibətidir. Bunu da siz yaxşı bilirsiniz ki, burada bu amil də öz rolunu oynayır”.

**Ölkə başçısı daha sonra ermənilərin Şuşa və Xankəndi xəyallarına da toxunub:** “Dünyada gedən proseslərin inkişafı onu göstərir ki, biz hər il, hər ay öz məqsədimizə yaxınlaşırıq və məqsədimiz ərazi bütövlüyümüzü bərpa etmək, Azərbaycan bayrağını Şuşada, Xankəndində qaldırmaqdır. Budur bizim əsas vəzifəmiz və bu məqsədə çatmaq üçün nəinki diplomatlar, bütün cəmiyyət öz səylərini birləşdirməlidir, birləşdirib. Bu, bizim milli məsələmizdir. Azərbaycanda bundan vacib məsələ yoxdur və bu məqsədə çatmaq üçün biz hər gün çalışırıq və çalışacağıq”.

***

**Dövlət başçısının dediklərini şərh edən Milli Məclisin deputatı, politoloq Rasim Musabəyovun qənaətincə, prezident ölkənin resurslarının xeyli genişlənməsinə diqqət çəkərək bu resurslardan Azərbaycanın problemlərinin dünyaya çatdırılması, həlli istiqamətində daha səmərəli istifadəyə çağırış edib:** “Rusiya və Qərb arasında yaranmış gərginliyin Qarabağ məsələsinə müəyyən təsirləri var. Həmçinin İranın izolyasiyadan çıxması, Türkiyənin xarici və daxili siyasətində daha müstəqil addımlar atması da öz təsirini göstərir. Ukrayna ətrafında yaranmış Rusiya-Qərb gərginliyi müəyyən mənada Azərbaycanın Qərb və Rusiya üçüm əhəmiyyətini artırır. Gərəkdir ki, bu situasiyadan Qarabağ məsələsinin müsbət həlli naminə istifadə olunsun”.

**R.Musabəyov Ali Baş Komandanın çıxışında düşmənə ünvanlı sərt mesajları və diplomatlara hücumla bağlı mesajlar verməsini də təbii saydı:** “Əslində bizim heç kəsə qarşı torpaq iddiamız yoxdur. İllərdir torpaqlarımız işğal olunub. Ona görə də bizim müdafiə olunmaq üçün əsasımız yoxdur, təbii ki, hücumda olmalıyıq və dünyadan konkret mövqe tələb etməliyik. Beynəlxalq situasiyanı bir daha nəzərdən keçirmək üçün bu görüş faydalı idi. Bizim 57 ölkədə diplomatik missiyamız fəaliyyət göstərir və bu, böyük gücdür”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 174 (5883) 9 iyul 2014



## Tovuzun keçmiş icra başçısına qardaşından ağır ittihamlar

### Musa Bağırov: "Həmid Bağırovu puldan, var-dövlətdən başqa heç nə maraqlandırmır"

**Vəzifə sahiblərinin, icra başçılarının dələduzluqları haqda çox yazılıb. Pula olan həvəs, hərislik öz doğmalarını belə aldatmaqdan çəkindirmir. Musa Firudun oğlu Bağırov "Azadlıq"a ünvanladığı məktubda belə bir situasiya ilə üzləşdiyini yazıb: "1983-cü ildən 2006-cı ilə kimi daxili işlər orqanında müxtəlif vəzifələrdə işləmişəm. 1991-ci ildə Şəmkir Rayon Polis İdarəsində SƏMD əməliyyat müvəkkili işləmişəm. Qardaşım Bağırov Həmid isə Şəmkir Dövlət Bankının müdiri işləyirdi.**

1992-ci ildə Şəmkir rayonunda camaat Həmidin evinə gedib tələb etdi ki, o, kənddən və bankdan çıxsın. Həmid Tovuza gələrkən Aşağı Ayıblı kəndindən olan İmamqulunun vasitəsilə Xalq Cəbhəsinə keçdi və Tovuz rayon Dövlət Bankının müdiri oldu. Sonralar Tovuz rayon icra başçısı olanda izi itirmək üçün İmamqulunu tutdurdu. Kim ona dar gündə kömək etmişdisə, hamısını məhv etdi. 1991-1993-cü illərdə biz Volqoqrada Qovlar "Napitok" araqları və pomidor göndərirdik. Gecələr 12-14 "KaMAZ" markalı yük avtomaşını Ceyrançöl yolu ilə yola salırdıq. Yaxşı pul qazanırdıq. Atam hörmətli, mərd, çörək verən insan olduğu üçün mən də polisdə olanda çalışırdım ki, heç kimə pislik etməyim. Ona görə də polisdə hər yerdə hörmətli işləmişəm. Mən həmin kommersiyadan 250 min qazandım. 1993-cü ildə pullar dəyişəndə Həmid Bağırov Tovuz bankının müdiri idi. Hamının pulunu faizlə dəyişirdi. Həmin vaxt mən də 250 min pulu dəyişdim və 5 meşok 3-lük, 5-lik aldım. 2 gündən sonra Həmid bizə evə gələrək bir pullara baxdı, bir mənə baxdı, istehzalı gülərək dedi: sabah bu pulları gətir iri pul verim. Həmin 250 min pulu səhər apardım Tovuz Dövlət Bankına, Həmidə dedim pulu gətirmişəm. Həmid tapşırıq verdi, 250 min pulu təhvil götürdülər. Mənə dedi ki, 1-2 günə gəl pulunu al. 2 gündən sonra getdim, dedi 1 həftəyə gəl pulunu al. Beləliklə, 5-6 ay getdim-gəldim. Evdə olan əşyalardan satıb dolanırdım. Həmid də hər dəfə sevincək təkəbbürlə yuxarıdan aşağı baxaraq gülürdü. Axırda gördüm vəziyyət günü-gündən pisləşir. Ailəmi kənddə qoydum, Bakıda bir otaqlı köhnə evim var idi. Elə oldu ki, yarım ayda bir kəndə gedirdim. Neçə dəfə uşaqları elə vəziyyətdə görəndə istədim özümü asam, sonra fikirləşdim ki, Həmid o qədər acgöz və o qədər qəddar adamdır ki, evimi satıb uşaqları çölə tullayacaq.

**Cənab Prezident!** Həmidin Tovuzda yanacaqdoldurma məntəqəsi, poliklinikası, obyekti var və hamısı həyat yoldaşının adınadı. Bakıda isə "Neapol" şadlıq sarayı, ət dükanları, bir neçə evi, "Kaspian"da mağazaları var. 20 ildir mən onun nə evini, nə də bağını tanımıram.

**Cənab Prezident!** Bütün Düzqırıqlı camaatı bilir ki, Həmid başçı olmamışdan 12 il qabaq ora mənim idi, hələ də həmin obyektdə mənim adamım işləyir. Neçə dəfə oranı boşaltmaq istəyib. Mən imkan verməmişəm. Həyatım boyu mən yaxşılıq etməkdən zövq almışam. Həmid isə kasıbın pulunu, malını əlindən alıb. Tovuzda nə qədər insanların pulunu alıb, nə işini düzəldir, nə də pulunu qaytarır. Mən gözütox insanam. Heç nədə gözüm yoxdu. Həmid bizi elə günə qoydu ki, 20 yaşında mənim uşaqlarımın saçı ağardı. Həmidi puldan, maldan başqa heç nə maraqlandırmır. 5-10 adama səbət daşıyır. Ona görə özündən aşağıdakıları ayaqlayır. Cənab prezident, xahiş edirəm mənim Həmiddə olan 250 min pulumu və Düzqırıqlı kəndində olan obyektimi qaytarmağa kömək edəsiniz. Həmin pulun yarısını yetimlər evinə verəcəm".

**Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

❑ E.HÜSEYNOV

## Sabirabadda saqqal qırxan şəxs həbs edildi

### Arif Hacılı: "Cəmiyyət son dərəcə ehtiyatlı olmalıdır"
### Arzu Nağıyev: "Ölkədə dini zəmində qarşıdurma mümkün deyil"
### Zahid Oruc: "Dövlət məsələni nə qədər nəzarətdə saxlasa da, cəmiyyətə müraciətə də ehtiyac var"

**Azərbaycanda dini zəmində gərginliyin artması ilə bağlı narahatlıq var. Bir neçə gün əvvəl Sabirabadda sələfi əqidəli şəxsin saqqalının qırxılması, bundan sonra bir qrup radikal dindarın Müşviqabad qəsəbəsində şiə dindarlara hücum etməsi ölkədə ciddi şəkildə gərginlik ab-havası yaradıb. Sosial şəbəkələrdə, mediada məzhəblərarası gərginliyi qızışdıracaq çağırışlar artıb.**

İraq və Suriyada baş verən məzhəblərarası toqquşmaların Azərbaycana sirayət edəcəyi ilə bağlı qorxulu proqnozlar da var.

Azərbaycan bu təhlükələrdən nə qədər sığortalanıb? Hakimiyyət, cəmiyyət, siyasi müxalifət dini zəmində gərginliyin qarşısını almaq üçün nə düşünür?

Qeyd edək ki, ötən gün qafqazinfo saytı Sabirabadda saqqal kəsən Rəmzi Zeynalov barəsində rayon prokurorluğunda Cinayət Məcəlləsinin 221.1.2 (xuliqanlıq) maddəsi ilə cinayət işi açılması ilə bağlı xəbər yayıb. Saytın məlumatına görə, onun barəsində istintaq müddəti üçün iki aylıq həbs-qətimkan tədbiri seçilib.

**Müsavat Partiyası Divanının bazar ertəsi günü keçirilən toplantısında Azərbaycanda son günlər dini zəmində artan gərginlik müzakirə olunub. Bu barədə "Yeni Müsavat"a Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı məlumat verdi. Onun sözlərinə görə, Müsavat cəmiyyəti dini mövzularda həssas olmağa çağırıb:** "Biz hesab edirik ki, dini mövzu, xüsusən də müxtəlif istiqamətlər arasında olan münasibətlər həssas mövzulardır. İlk növbədə Azərbaycan cəmiyyəti son dərəcə ehtiyatlı olmalıdır. Siyasətçilər, jurnalistlər, cəmiyyətdə ictimai fikrə təsiri olan şəxslər bu xırda, lokal kimi görünən hadisənin böyüyərək böyük bir qarşıdurma və dağıntılara səbəb olacağını nəzərə alaraq bu kimi məsələlərə ehtiyatla yanaşmalıdırlar".

**Yaxın Şərqdə baş verən gərginliklərin Azərbaycana da təsir etdiyini təxmin edən A.Hacılının fikrincə, Azərbaycan cəmiyyəti İraq və Suriyadan fərqləndiyi üçün ölkəmizdə bu cür gərginliklərin olması ehtimalı azdır, ancaq bununla belə, Müsavat funksioneri cəmiyyətin həssas olmasını və əlaqəli şəxslərin xüsusi diqqətli olmasının vacib olduğunu bildirdi:** "Burda kimlərinsə kiməsə güc göstərməsi, kiminsə başqaları qarşısında əzələ şişirtməsi yolverilməzdir. Çünki İslam dini insanları qarşıdurmaya, digərlərini alçaltmağa, sıxışdırmağa yox, əksinə, insanlar arasında ilk növbədə müsəlmanlar arasında birlik və bərabərlik yaratmağa yönəlik bir inancdır. Allah-təala Məhəmməd Peyğəmbər (s.ə.s) vasitəsilə göndərdiyi tövsiyələrində birgə olmağı, bərabərliyi, insanlara qarşı dözümlü yanaşmağı tövsiyə edib. Hazırda həm dünyada, həm də regionda gedən proseslər, eyni zamanda İraqda, Suriyada və digər ölkələrdə baş verən qarşıdurmalar Azərbaycan cəmiyyətində də müəyyən gərginlik yaradır. Ancaq Azərbaycan cəmiyyəti istər Suriya cəmiyyəti, istərsə də İraq cəmiyyətindən inkişaf etmiş, daha irəli getmiş bir cəmiyyətdir. Biz geriyə qayıtmamalı, irəli baxmalıyıq və Azərbaycan cəmiyyətini ayıran yox, birləşdirən cəhətlərin təbliğatı ilə məşğul olmalıyıq".

**Politoloq Arzu Nağıyev isə radikal dini qrupların Azərbaycanda qarşıdurma yaratmaq imkanlarının olmadığını bildirdi. Ancaq bununla belə, onun fikrincə, dini radikalizmin qarşısının alınması üçün ölkə daxilində ciddi dini maarifçilik və tolerantlıq mühiti bərqərar olmalıdır:** "Bu gün dünyada milli dövlətçiliyi məhv etməyin variantlarından biri də dini zəmində qarşıdurmalardır. Yəni bütün siyasi qüvvələr artıq kənarda qalıb və Azərbaycana təsir edə biləcək əsas məsələlərdən biri məhz budur. Ölkədə birtərəfli dini təbliğat olmamalıdır. Bütün cərəyanlara müəyyən meydan verilməlidir. Radikallıqla maarifçiliyin arası bir addımdır. Bu gün maarifçi olan şəxsi sabah radikala çevirmək çox rahatdır, bir dəfə "Allahu Əkbər" şüarı deyirsən və qızışdırıcı çağırışlar edirsən. Dövlət dini təbliğat sahəsinə nəzarəti artırmalıdır. Tolerantlıq daha ciddi şəkildə təbliğ olunmalıdır. Mən həmişə deyirəm ki, hər bir dini icmanın sosial layihələri, internet saytı, sosial şəbəkədə səhifəsi olsun. Bu insanlar görsün ki, harada nə baş verir. Nə qədər ki, bu yoxdur, insanlara doğru olan İslam çatdırılmır. Bu çox çətin olacaq".

**A.Nağıyevə görə, hazırda ölkədə elə bir təhlükəli radikal qüvvə yoxdur:** "Ayrı-ayrı icmalar ola bilər ki, radikal çağırışlar etsin. Ancaq bu qrupların radikal fəaliyyətlər edəcəyinə inanmıram. Azərbaycanlıların Suriyaya getməsi səbəblərinə nəzər salmaq lazımdır. Onları Suriyaya çəkib aparan nədir? Əgər bu insanlar Şamı müqəddəs sayırlarsa, niyə Şuşanı müqəddəs saymırlar? Heç icazə olmadan da gedib orda vuruşa bilərlər. İkincisi isə çox maraqlıdır ki, o gedənlərin hamısı Türkiyənin ərazisindən gedir. Yəni Türkiyə bunun qarşısını ala bilməzmi? Əlbəttə, alar. Mənə elə gəlir ki, bu, planlı bir fəaliyyətdir. Bizim dövlət üçün deyil, hansısa kənar qüvvələrin planına uyğun olaraq bu işlər görülür. Bu, bir sıra ölkələrin marağındadır".

**Milli Məclisin deputatı Zahid Oruc isə deyir ki, radikal dini təşkilatların Azərbaycana keçməsi cəhdləri artıq inkar olunmazdır. Deputatın fikrincə, hakimiyyətlə yanaşı, cəmiyyət özü də bu cür tendensiyalara qarşı olmalıdır:** "Mənə elə gəlir ki, dövlət bu məsələləri nə qədər nəzarət altında saxlasa da, cəmiyyətə bir müraciətə də ehtiyac var. Dövlət millətlə birlikdə bu təhlükəyə qarşı mübarizə aparmalıdırlar, əks halda, çox çətin olacaq. İraq və Suriyada döyüşənlər, sonradan bu fəaliyyətlərini başqa bir ölkəyə keçirəcəklər".



**İctimaiyyət isə dini radikalizm təhlükəsi ilə bağlı həyəcan təbili çalır**

**Radikal, təkfirçi düşüncənin konkret bir icma və ya cərəyanda mövcud olmadığını qeyd edən deputatın fikrincə, beyinləri doldurulmuş, zombiləşmiş qruplar hər zaman təhlükəlidir:** "Açığı desəm bunların sosial sinfi siması yoxdur. Dini baxımdan da onları ayrı-ayrı sərhədlərə bölmək olmaz. Məncə, onlar artıq legioner yetişdirən, vahid bir mili kimliyi olmayan qladiatorlardır. Azərbaycanda da ya vəhhabilər adı altında, ya radikal sələfilik adı altında belə proseslərə cəhdlər edənlər var ki, bu ölkədə oturuşmuş dini sistem, tolerantlıq mühiti pozulsun. Dini toqquşmalar baş versin, hakimiyyət üçün siyasi müxalifətdən kənar dini müxalifətlə toqquşmalar real mahiyyət daşısın. Burda məsələnin cazibəli tərəfi də var, onları nə qədər sıxışdırsalar onlar fəaliyyətlərini davam etdirəcəklər, "Müsəlman Qardaşları"na çevriləcəklər. Səudiyyə hökuməti vəhhabiliyin rəsmi ideologiyası olaraq dünyada yayılması üçün hər il milyonlarla vəsait xərcləyir. Bir çoxları maddi səbəbdən də həqiqətən də inandıqları, real dini məsələləri gördükləri üçün bu cərəyana qoşulur. Mən bilirəm ki, siz dinə yaxın bir jurnalistsiniz, müxtəlif zamanlarda yazılarınızı da oxumuşam. Mən bizim mötəbər din xadimlərindən də eşitmişəm ki, vəhhabilik çox normaldır. Burada heç bir təhlükə yoxdur, ona qarşı mübarizə təhlükə yaradır. Təxminən belə bir formul var, "İslamı qapıdan qovdun, gedib silahla qayıtdı". Yəni dinlə savaşanda böyük bir təşkilatlanmış kütləyə çevrilir. Düşünürəm ki, dini azadlıqlar geniş olmalıdır. Birləşmiş Ştatlar bütün dinlərin vahid məkanına necə çevrildi? Dünyada bir-biri ilə savaşan dinlər orada dinc yanaşı yaşayırlar. Dinlərə azadlıq verilməli, həqiqi dini dəyərlər təbliğ olunmalıdır. Əsl İslamın mahiyyəti ortaya qoyulmalıdır. Din xadimləri savadlanmalıdır, orta məktəblərdə islamın həqiqi əsasları tədris olunmalıdır. Əgər bu gün Gülən məktəblərini din təbliğ edir deyə bağlayırıqsa, o zaman onun əvəzinə alternativi ortaya qoymalıyıq. Əsl İslamı ortalığa qoymaq lazımdır. Nəinki vəhhabilik, hətta bizim dini komitəni təmsil edən məmurlarla yerli axundlar arasında çox ciddi münaqişə var. Bunların özü təhlükədir. Vahid bir koordinasiya, milli birlik konsepsiyası yoxdur. Kimsə deyir ki, dövlət bunu tənzimləməsin, Qafqaz Müsəlmanları İdarəsinə verilsin səlahiyyətlər. Çox gözəl, onlar yaratsınlar. Əgər dövlət görsə ki, bundan sonra hansısa qruplar qanunsuz əməllərə gedir, o zaman dövlət bu prosesə müdaxilə edə bilər".

❑ Kənan RÖVŞƏNOĞLU

YENİ MÜSAVAT
N 174 (5883) 9 iyul 2014

**Svetoforda maşın şüşəsi silənlər, çimərlikdə qarğıdalı satanlar, mağazalarda satıcılıq edənlər... Siyahını uzatmaq da olar. Son illər Azərbaycanda uşaq əməyindən istifadə edilən sahələr o qədər artıb ki, bunun üçün bir siyahı bəs etməz. Xüsusən yay aylarında uşaqların işləməsi tendensiya halını alıb. Amma dünya üzrə də bu hal problem kimi özünü göstərməkdədir.**

# Əməkçi uşaqlar - dövrümüzün bəlası...

## Dünya üzrə 168 milyon azyaşlı işçidən neçəsi bizim payımıza düşür?

Küçədə işləyən uşaqlar əvvəllər böyük şəhərlərin bir problemi olaraq qəbul edilirdi. Amma indi qəsəbələri, ucqar rayonları da ağuşuna alıb. Uşaqların işləməsinə mane olmaq üçün bir çox beynəlxalq anlaşma və saziş imzalansa da, azyaşlı işçilər tarix boyu bilinən bir "mafiya"dır.

Beynəlxalq Əmək Təşkilatının təxminlərinə görə, inkişaf etməkdə olan ölkələrdə 5-14 yaş qrupunda işləyən uşaqların sayı 250 milyondur. Uşağın işləməsi bir çox hallarda onun təhsildən məhrum edilməsinə, fiziki və mənəvi inkişafına mənfi təsir etməsinə səbəb olur.

**UNİSEF küçədə işləyən uşaqları ailələri ilə münasibət dərəcəsinə görə bir neçə qrupa ayırır:**

**1-ci qrup:** ailələri ilə daim münasibətləri olan uşaqlar günlərini küçədə işləyərək keçirsələr də, ailələrinin qoruması və nəzarəti altındadırlar.

**2-ci qrup:** ailələri ilə zaman-zaman münasibət quran "küçə uşaqları". Bu uşaqların ailə bağları zəifləsə də, tamamilə qopmayıb. Özlərini hələ də ata-analı, qardaş-bacılı hesab edirlər və ailələri olmalarının fərqindədirlər. Onlar gün ərzində küçədə bir şeylər sataraq keçirsələr də, gecələr çox zaman evlərində olurlar.

**3-cü qrup:** ailələri ilə heç bir münasibəti olmayan, işləyən uşaqlar. Onlar əsasən cəmiyyətin ən yoxsul təbəqəsinin və dağılmış ailənin uşaqlarıdır. Ailələrindən ya zorla, ya da öz istəkləri ilə ayrılan bu uşaqlar günün 24 saatını küçədə keçirirlər. Evindən qovulan, qaçan, ailəsi olmayan və ya ailəsi tərəfindən tamamilə nəzarət edilməyən uşaqlar üçün də küçələr ikinci ev sayılır.

UNİSEF-in araşdırmalarında qeyd edilib ki, küçələrdə işləyən və yaşayan uşaqları gözləyən risklər aşağıdakı kimidir: **a)** istismara məruz qalma; **b)** içki, siqaret, müxtəlif növ narkotik maddələrdən asılılıq ehtimalı; **c)** zehni və fiziki inkişafdakı geriləmə; **d)** döyülmə, yaralama və ölümlə nəticələnən fiziki təzyiqlər; **e)** oğurluq, qəsbkarlar kimi cinayətləri həyata keçirməyə meyllilik; **f)** psixoloji problemlər; **g)** fiziki qəzalara uğrama ehtimalı.

Küçədə işləyən uşaqlar əsasən ailələrin yanında qalır, gündüz küçələrdə işləsələr də, axşam evlərinə qayıdırlar. Amma küçədə işləmə şərtləri onların psixi-sosial inkişaf və təhsil durumlarına mənfi təsir edir. Uşaqlar küçədə yaşamağa təhrik edilməsə, məktəbi atan və küçədə işləyən uşaqların da sayı azalacaq, onların cinsi istismara uğrama riski aşağı düşəcək, yüksək risk altındakı, aşağı gəlirli ailələrin ailədaxili münasibətlərində ümumi bir yaxşılaşma və yeniyetmələr üçün daha yaxşı, sosial inkişaf təmin ediləcək.

2013-cü ilin göstəricilərinə görə, dünyada uşaq işçilərin sayı 168 milyondur. Onların 85 milyonu təhlükəli iş sahələrində çalışır. Sonuncular arasında ən yaxşı iş şərtləri valideynlərinə aid iş sahələrində çalışanlardır. Amma atasının tarlasında, mağazasında işləyən uşaqların heç biri maddi gəlir əldə etmir. Bu isə uşaq əməyinin istismarı sayılır. Təhlükəsizliyi risk altında olan 85 milyon uşağın yaşı 5-17 arasında dəyişir. Mədənlərdə, fabriklərdə və ya küçələrdə işləyən bu uşaqlar eyni zamanda cinsi, eləcə də fiziki istismarın qurbanı sayılır. Müasir sosiologiyada bu uşaqlara "müasir kölələr" deyilir.

Amma bu da faktdır ki, 2000-ci illə müqayisədə işləyən uşaqların sayı üçdə bir qədər azalıb. Yəni indi 78 min daha az uşaq işləyir. Xüsusən də qız uşaqları arasında işləyənlərin sayı azalıb. 2000-ci ildən bu yana işləyən qız uşaqlarının sayı 40 faiz azdır. Ən çox uşaq işçilər Asiya ölkələrindədir. Faizlə hesablayanda isə Afrikada, ölkənin cənubunda işləməyə məcbur edilən uşaq sayı rekord həddə çatıb. Buralarda hər beş uşaqdan biri işləməyə məcburdur. Amma beynəlxalq təşkilatların hesablamasına görə, 2016-cı ilə qədər uşaq işlərində ən təhlükəli olanların ortadan qaldırılması hədəf götürülüb.

Keçək Azərbaycana. Ölkəmizdə yay tətili zamanı məktəblilərin məşğulluğu üçün xüsusi bir proqram mövcud deyil. Buna baxmayaraq, son iki il ərzində komitə 15 yaşdan 18 yaşadək 138 uşağın yay tətili müddətində işlə təmin edilməsinə köməklik göstərib. Lakin bu, fərdi xarakter daşıyıb. Dövlət Statistika Komitəsi küçə həyatına məhkum uşaqlarla bağlı maraqlı araşdırma aparıb və bu mövzuda sorğu keçirib. Belə bir araşdırmanın aparılmasında məqsəd küçə uşaqlarının qarşılaşdıqları problemlər, onların küçədə işləmələrinin səbəbləri, məşğul olduqları əmək növləri, eləcə də məruz qaldıqları təhlükələr barədə ətraflı məlumat əldə etməkdir. Araşdırmaların nəticəsi göstərir ki, uşaqların küçə həyatına məhkum olma səbəblərindən biri də onların ailələrində yaranan maliyyə problemidir. Statistikanın nəticələrinə görə, hər iki valideyni olan 126 uşağın cəmi 9 faizinin həm atası, həm də anası işləyir. Valideynlərinin biri və ya hər ikisi olan uşaqların 75 faizinin təkcə anası və ya atası işləyir, hər beş uşaqdan birinin heç bir valideyni işləmir. Sorğuya cəlb olunan hər 2 uşaqdan birinin ailəsi öz yaşayış yerini 1988-ci ildən, yəni Ermənistanın Azərbaycana qarşı təcavüzə başladığı dövrdən sonra dəyişib ki, bu da ölkədə küçə həyatına məhkum uşaqların formalaşmasına təsir edən amillərdən biridir.

Küçə həyatına məhkum uşaqlarla aparılan söhbətlərdən belə bir nəticəyə gəlmək olar ki, onlar belə yaşamaq istəmirlər. Oğlanların böyük hissəsi hərbçi, peşəkar idmançı olmaq, texnika *(cihazlarla, maşınlarla, kompyuterlərlə)* və ya insanlarla işləmək *(müəllim, satıcı olmaq)* istədiklərini bildirib. Hər üç oğlandan biri və hər beş qızdan biri gələcəkdə istədiklərinə nail olacağına inanır. Eyni zamanda hər dörd oğlandan və dörd qızdan biri arzularının həyata keçəcəyinə inanmadığını söyləyib.



Məlum olub ki, sorğuya cəlb olunan bütün küçə uşaqlarının gəlir mənbəyi var. Şüşə qabları və metal tullantıları yığıb təhvil verməyi və dilənməyi əmək fəaliyyətinin bir növü hesab etsək, o zaman sorğu olunan bütün küçə uşaqlarını işləyənlər kateqoriyasına aid etmək olar. Küçələrdəki uşaqların yarısı maşın yumaq (25 faiz) və dilənmək (25 faiz) yolu ilə pul qazanır.

Uşaqlar bir qayda olaraq, 10-11 yaşlarında küçədə işləməyə başlayırlar. Oğlan uşaqları qızlara nisbətən daha erkən yaşlardan işləməyə başlayıblar. Oğlanlar əsasən 10 yaşından, qızların isə 11 yaşından əmək fəaliyyətinə başladıqlarını bildiriblər. Uşaqların əksəriyyəti öz ailələrinə maliyyə cəhətdən kömək göstərmək üçün işlədiyini qeyd edib. Lakin onların arasında ailə üzvləri tərəfindən işləməyə məcbur edilənlər də var.

Əksər hallarda uşaqlar yerinə yetirdikləri işləri özləri tapıb. Lakin təxminən hər dörd uşaqdan biri valideynlərinin, hər on uşaqdan biri isə yaşca böyük olan qohumlarının və ailə tanışlarının köməyi ilə işlə təmin olunublar. Oğlan və eləcə də qızların hər beş nəfərindən dördü hər gün orta hesabla 3-5 manat pul qazandığını qeyd edib. Oğlanların 3 faizində, qızların isə 12 faizində gündəlik gəlir 1-2 manat, 15 və 9 faizində müvafiq olaraq 6-10 manat təşkil edib.

❑ **Sevinc TELMANQIZI**

# Sadəlövh adamların gözləntiləri



**Samir SARI**

**Prezident düz deyir, biz əcəb sadəlövh adamlarıq, özümüzü müxalifətçi və ya hüquq müdafiəçisi adlandırırıq, amma xəbərimiz yoxdur ki, Avropa liderləri, yumşaq desək, sadəlövh deyillər.**

Nə bilək, biz də bunları prinsipial, demokratik prinsiplərə önəm verən, insan haqlarına aid dəyərləri prioritet sayan personalar hesab edirdik. Heç demə, Əliyev demişkən, bunlar 11 il ərzində bir dəfə də prezidentimizə bir söz demirmişlər.

O vaxt böyük hay-küy düşmüşdü, president Obama və dövlət katibi Hillari Klinton həbsdə yatan bloggerlərin adını ağızlarına almışdılar. Hətta deyilirdi ki, onlar belə bir xahişlə və ya tələblə Əliyevə zəng vurublar, deyiblər ki, bloqçuları azad et. Havayı söhbət imiş.

Amma xanım Klintonun gənc ictimai-siyasi fəal Bəxtiyar Hacıyevi şəxsən öz nüfuzu hesabına azad etdirməsi haqq-hesabını hansı qrafaya yazaq, düzü, bilmirəm. Gözə görünən o idi ki, 3 gün əvvəl dustaq olub ikiyaruslu koykada yatan Bəxtiyar ABŞ dövlət katibi Bakıya varid olanda artıq azadlıqdaydı və ABŞ-ın Bakıdakı səfirliyində onunla üzbəüz oturub xala-bala şəkil çəkdirirdilər.

İndi ikisinin biridir, ya xanım Klinton Bəxtiyarın xahişini Əliyevdən şəxsən edib, ya da Hacıyevi prezidentin xəbəri olmadan azad ediblər.

Biz, yumşaq deməsək, lap avam adamlarıq, elə bilirik ki, avropalı liderlər prezidentimizə vaxtaşırı nəsə deyirlər, nəsə bir xahiş edir, nəsə bir tövsiyə verirlər, bu da onları eşidir. Elə deyilmiş. Məsələn, dünənə qədər elə bilirdik ki, hüquq müdafiəçisi Leyla Yunusu həbsdən qurtaran yeganə səbəb Fransa prezidenti Ollandın Əliyevlə ikitərəfli görüşlərdə onun adını çəkməsidir. Bu da əbəs güman imiş.

Söz yox, bizim hakimiyyət də arada tapşırığa, xahişə baxır, amma bunlar qarşılıqlı sövdələşmə əsasında olmalıdır.

Məsələn, Ərdoğan deyir ki, sayın Əliyev, lütfən, ölkənizdə olan Gülən məktəblərini bağlaya bilərsənmi? Əliyev də deyir, bağlayaram. Bəs sən nə yapa bilərsən abinə? Ərdoğan deyir, nə yapayım abimə, de. Əliyev deyir, ölkənizdə yaşayan və Ermənistana gedib-gələnlərdən birini ver, tutaq. Vəssalam, razılıq əldə edilmişdir. Al bu sana Mirqədirov, di bağlayın məktəbləri. Al, bu da sənə bağlanmış "Araz" kursları.

Beləcə, "Araz" axır "Kaspi"yə tökülür. Qoy şagirdlər ildə 4-5 min verib "Kaspi"də oxusunlar ki, qürur duysunlar ki, talelərini iki qardaş dövlətin rəhbərləri müəyyən edib.

Mirqədirov və onun tərəfdarları isə oturub avropalı liderlərin ikitərəfli görüşlərdə Əliyevə nəsə deyəcəklərini gözləməlidirlər. Hələ o da desələr. Deməyə də bilərlər. Çünki neft, qaz, İranla qonşuluq, Rusiya ilə yaxınlıq və sair qlobal söhbətlər olan yerdə sadəlövh adamların gözləntilərinə yer yoxdur.

Biz avamların ağlı gedir eyzən haqq-ədalət davası aparan isveçrəli deputat Andreas Qrossa. Daha bilmirik ki, o, Mahatma Qandi, David Ben Qurion kimi gözü-könlü tox olan nadir insanlardan biridir, baxaq görək, onun ölkəsinin prezidenti Didye Burkhalter Əliyevlə ikitərəfli söhbətində siyasi məhbuslardan danışır, yoxsa bank sahəsində əməkdaşlıqdan, karbohidrogen resurslarından və s.

Prezident onu da düz deyir ki, Avropa ölkələrinə çoxsaylı səfərləri, Avropa dövlət və hökumət başçılarının Azərbaycana səfərləri bunu göstərir. Ortada qarşılıqlı hörmət-izzət, ortaqlıq, biznes layihələri olandan sonra dürüst seçkilərin, günahsız tutulan gənclərin lafı olurmu heç?

Biz, yumşaq desək, sadəlövh, avam-cahil adamlar məsələyə Biləcəridən baxırıq, oysa ki, Strasburqdan, Brüsseldən baxmalıyıq.

Tutaq ki, biz adı çəkilən mərkəzlərin böyüklərindən biriyik, oturub Avropanın 50 ölkəsindən biri olan Azərbaycanın vəziyyətinə baxırıq, ağır-yüngül edirik. Soruşuruq, orda insanları İraqda, Suriyada olduğu kimi kütləvi şəkildə güllələyirlərmi? Yox. Misirdəki, Çindəki kimi kütləvi edam edirlərmi? Yox. İranda olduğu kimi geyim-keçimə, küçədə əl-ələ tutmağa görə şallaqlayırlarmı? Yox. Belədirsə, ta nə istəyirlər, şadlıqlarına şitlik eləməsinlər, gün gəlır, dürüst seçki də keçirərlər, biz də boş durmuruq ki, lazımi tövsiyələr veririk.

Münasibət təxminən bu cürdür. "Biz hədəfə doğru gedirik".

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# "Müstəntiqə 20 min verə bilmədim, oğlunu cani elan etdilər"

## Bakı sakini prezidentə məktubunda belə yazıb; məcburi köçkün ölkə başçısından kömək istəyir

**Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Bəşir Bünyadov küçəsi 10/3 ünvanında yaşayan məcburi köçkün Böyükağa Məhərrəmov prezidentdən kömək istəyir. Prezidentə ünvanladığı məktubun surətlərini Ali Məhkəmənin sədri Ramiz Rzayevə, baş prokuror Zakir Qaralova və redaksiyamıza göndərib.**

**Göndərdiyi məktubunda köçkün yazır:** "30 avqust 2013-cü ildə Xətai rayonu ərazisində, "Xətai" metro stansiyası yaxınlığında cinayət hadisəsi baş verib. Mənim yetkinlik yaşına çatmayan oğlum, Knyaz Knyazlı da hadisə yerində olub. Hadisə zamanı S.Orucov küçəsi ev 15, mənzil 13-də yaşayan Ceyhun Maqsudova kürək nahiyəsindən 1 bıçaq zərbəsi vurulub. Baş verən cinayət hadisəsinə görə Xətai RPİ-nin 37-ci polis bölməsində CM-in 126.1 maddəsi ilə cinayət işi başlanıb. Hadisədən 3 gün keçəndən sonra C.Maqsudov xəstəxanada dünyasını dəyişib. Sonradan Xətai Rayon Prokurorluğunda iş üzrə CM-in 126.1 maddəsi ilə başlanmış cinayət işi CM-in 120.1 maddəsinə tövsif edilib. Və cinayət işini araşdırmaq Xətai Rayon Prokurorluğunun müstəntiq vəzifəsi üzrə stajyoru Teymur Qarayevə tapşırılıb. Elə həmin gün 1992-ci il təvəllüdlü Yusif Məhərrəmov könüllü olaraq, heç bir təzyiq olmadan prokurorluğa gedib və cinayəti törətdiyini etiraf edib".

**Məktub müəllifi yazır ki, bu haqda müstəntiq belə bir məzmunda protokol tərtib edib:** "3 sentyabr 2013-cü il tarixdə Yusif Məhərrəmov rayon prokurorluğuna könüllü gələrək cinayət əməlini etiraf edib". 5 sentyabr 2013-cü il tarixdə 16:20-dən, 17:40-dək Yusif Məhərrəmovun Ceyhun Maqsudovu vurduğu bıçağı atdığı yerə baxış keçirilib. Və Yusif Məhərrəmovun yaşadığı Yeni Ramana qəsəbəsində, III sahədəki kanalizasiya sahəsindən bıçaq tapılıb. Baxış keçirilməsi haqda 5 sentyabr 2013-cü il tarixli, 2085 saylı protokolda qeyd olunur: "Məhərrəmov Yusifin iştirakı ilə Yeni Ramana qəsəbəsinə getdikdə yolla təxminən 300 metr getdikdən sonra maşın yolundan sağa torpaq yol ayrılır. Həmin yola dönərək bir daha sağa dönən yola dönüb təxminən 50 metr getdikdən sonra ....kanalizasiya kanalı aşkar olundu. Kanalizasiya kanalının ətrafında çoxsaylı kanallar var. Həmin kanalların birindən 5 metr kənarda ölçüləri 230 x 40 sm olan, hündürlüyü 35 sm olan daş parçası müəyyən olundu. Yusif Məhərrəmov həmin daşın üzərinə çıxaraq bıçağı atdığı istiqaməti göstərdi. Və kanal istiqamətində hərəkət etdikdə bıçaq tapıldı".



Bütün istintaq materiallarında Yusif Məhərrəmov Ceyhun Maqsudovu öldürdüyünü tam etiraf edir, hətta 10 aydan sonra iyun ayındakı sonuncu izahatda da bunu etiraf edir".

**B.Məhərrəmov yazır ki, 10 aylıq istintaq prosesində hər dəfə müstəntiq Teymur Qarayev ona Y.Məhərrəmovun cinayəti törətməsini etiraf etdiyini söyləyib:** "Mayın axırından iyunun əvvəlinədək Teymur Qarayev bir neçə dəfə mənə zəng edərək *(bunu «Azercell»lə yoxlamaq olar)* görüşmək istədiyini bildirirdi. Hər dəfə görüşəndə deyirdi ki, sənin oğlunun günahı yoxdur, pulu ver buraxaq. Mən deyirdim ki, köhnə avtomobilim var, ancaq 5 minə gedər. Müstəntiq isə deyirdi ki, bu rəqəmi vur 4-ə, yəni 20 min manat. Mən soruşdum ki, bunu sizinki istəyir? O mənə cavab verdi ki, yox, bizim ağsaqqal istəmir, Bakı Şəhər Prokurorluğundan filankəs *(adını çəkmək istəmirəm)* istəyir. Mən dedim o qədər pulum yoxdur və razılaşmadım. *(Mən bir çox biabırçılıqları hələ açmaq istəmirəm).* Və nəticədə 10 aylıq istintaqdan sonra birdən- birə Xətai Rayon Prokurorluğunun stajyoru Teymur Qarayev qətl hadisəsini Yusif Məhərrəmovun üzərindən götürərək mənim oğlum Knyaz Knyazlının üzərinə qoydu! Mən məcbur olub baş prokurorun ünvanına şikayət yazdım, şikayətim icraata götürüldü. Sonra məni Bakı şəhər prokuroru cənab Əziz Seyidov qəbul elədi. O isə mənə bildirdi ki, gec şikayət eləmisiniz, artıq bizlik deyil.... Mən ona bildirdim ki, oğluma bu ittiham 3-4 gün müddətində verilib və tələm-tələsik işi Bakı Şəhər Ağır Cinayətlər Məhkəməsinə göndərdilər. Mən də təcili olaraq Baş prokuror Zakir Qaralova müraciət eləmişəm və cavab da gəlib ki, işi nəzarətə götürmüşük. Bundan artıq mən nə etməliydim? Mən oğlumun müdafiə olunmasını sizlərdən xahiş etmirəm və əminəm ki, oğlum Ceyhun Maqsudovu bıçaqla vurmayıb. Xahiş edirəm ki, işə obyektiv və ədalətli baxılsın".

❑ **E.MƏMMƏDƏLİYEV**

**Elan**

**29.03.2000-ci ildə Tovuz rayon, Aşağı Öysüzlü kənd sakini Mirzəyev Natiq Əlixan oğlunun adına verilmiş 1005 saylı mülk qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**







# Ailəsi "Təhminə və Zaur" faciəsi haqda danışdı

## Zaur Mirzəyevin anası oğlu barəsində mətbuatın yazdıqlarına etiraz etdi



**Mayın 23-də APA İnformasiya Agentliyi Sabunçu Rayon Polis İdarəsindən aldığı məlumat əsasında xəbər yayıb. Xəbərdə deyilir ki, Zabrat sakini Zaur Mirzəyev qısqanclıq zəminində arvadı Təhminəni öldürmək qərarına gəlib.**

O, arvadına bir neçə bıçaq zərbəsi vurub və öldüyünə əmin olub, özünə qəsd edib. Zaur qonşusunun həyətinə keçərək özünü orada asıb.

Lakin bıçaq zərbələrindən Təhminə ölməyib. Onu ağır vəziyyətdə xəstəxanaya çatdıraraq həyatını xilas ediblər. Xəbərdə deyilir ki, Zaur bu addımı atmamışdan qabaq onun telefonuna bir kişi zəng edib, arvadı ilə görüşdüyünü deyib.

O da bundan sonra arvadını bıçaqlayıb. Bu məlumatı "Yeni Müsavat" qəzeti də daxil olmaqla, başqa qəzetlər, xəbər portalları APA-ya istinadən dərc ediblər. Amma Zaur Mirzəyevin ailəsi xəbərdə deyilənlərlə razılaşmır.

"Mənim oğlumun heç bir məhkumluğu olmayıb. Bunu yazanlar səhvə yol verib. İkincisi də işsizlikdən heç vaxt özünə qəsd etmək fikrinə düşməyib. O, avtobus sürücüsü olub. Zabrat camaatı onu yaxşı tanıyır. Hörmətli kişi olub, sakit adam idi. Heç kimlə ədavəti də olmayıb".

**Bu sözləri Z.Mirzəyevin anası Zərifə Mirzəyeva** "Yeni Müsavat"a gələrək bildirdi. Anasının sözlərinə görə, oğlu barəsində mətbuatda yazılan məlumatlar başdan-ayağa səhvdir. Z.Mirzəyeva bildirir ki, mətbuatda oğlunun öz həyat yoldaşına bir neçə bıçaq zərbəsi endirməsi xəbəri də yalandır:

"Arvadına bir bıçaq vurub. Ondan sonra da arvad bir sutka xəstəxanada yatıb, çıxıb. İndi də sağdır. Oğlum nə ona çoxlu bıçaq zərbəsi vurub, nə əvvəl məhkumluğu olub, nə də işsizlikdən canına qəsd etmək istəyib. Bütün bunları kim deyibsə səhv danışıb. Arvadına bir bıçaq vurub, sonra da intihar edib".

**Şikayətçinin sözlərinə görə, oğluna hadisədən əvvəl bir nəfərin zəng etməsi də səhv məlumatdır:** "Guya bir kişi zəng edib və oğluma arvadı ilə görüşdüyünü deyib.

Zaur da bundan hirslənib intihar edib. Əvvəla, hadisə baş verən vaxt onun telefonu olmayıb. Telefonu təmirə vermişdi, 15 gündür bağlı idi. Ona görə heç kim ona zəng etməyib. Mənim oğlum sakit adam idi. Heç kimə dəyib-dolaşmayıb. Qarabağda döyüşlərdə olub. Hamı Zabratda onu hörmətli oğlan kimi tanıyıb".

❑ **EMİL**

# Messini gözdən qoymayın, Robbeni yıxmayın...





**Braziliyada bir aya yaxındır davam edən dünya çempionatı sona çatır. Bakı vaxtilə iyunun 10-na keçən gecə, saat 01:00-da sonuncu yarımfinal matçında Argentina millisi Hollandiya yığması ilə qarşılaşacaq.**

Argentina millisi bu çempionatda parlaq oyun nümayiş etdirməsə də, yarımfinaladək irəliləməyi bacardı. Argentina 1994-cü ildə bəri keçirilən dünya çempionatlarında yarımfinala çıxa bilmirdi. Bu dəfə isə "F" qrupunda İran, Bosniya və Nigeriya ilə mübarizədə 9 xal toplaya bildi. 1/8 finalda İsveçrəni, 1/4 finalında isə Belçikanı mübarizədən kənarlaşdıran Argentina bu mundialda daha güclü rəqiblə gücünü sınamalıdır.

Argentina və Hollandiya komandaları indiyə kimi dördü dünya çempionatlarında olmaqla 8 dəfə qarşılaşıblar. Bu oyunlarda hollandların aşkar üstünlüyü var: 4 qələbə, 3 heç-heçə və 1 məğlubiyyət.

Hollandiya milli komandası argentinalılara dünya çempionatının 1974-ün ikinci qrup mərhələsində 4:0, 1998-in 1/4 finalında 2:1 hesabıyla qalib gəlib. Argentina isə yalnız 1978-ci il mundialının finalında, əlavə vaxtda 3:1 hesabıyla qələbə qazanıb. Rəqiblərin 2006-cı il dünya çempionatının qrup mərhələsində baş tutan son oyunu qolsuz bərabərliklə başa çatıb - 0:0.

Argentina millisinin oyununda problemlər olduğu barədə dəfələrlə yazılsa da, komanda hər mərhələdə "sudan quru çıxa" bilib. Argentinanın keçirdiyi oyunlarda sadəcə, bəxti gətirib demək də ədalətsizlik olardı. Amma keçirdiyi bütün oyunlarda minimal hesablı qələbə qazanması Argentinanın komanda olaraq gücünün yetirincə olmadığını və yalnız bəzi oyunçularının fərdi ustalığı sayəsində yarımfinaladək irəlilədiyini göstərir. Komanda qrup mərhələsi də daxil olmaqla cəmi 8 top vurmasının başqa necə izah etmək olar? Səkkiz topun 4-nü Leonar Messi vurub, Gonzalo, Roxo və Anxel di Mariya isə hərəyə bir dəfə fərqləniblər. Bosniya ilə oyunda isə bir avtoqol olub. Müqayisə üçün qeyd edək ki, Hollandiya qrup mərhələsində rəqib qapılarında 10 top vurmuşdu. Argentina yarımfinala gəlib çatsa da, hələ Hollandiyanın qrupda vurduğu qolların sayına çatmayıb. Bu fakt Argentina millisində hücum xəttində işlərin qaydasında olmadığını bir daha təsdiqləyir. Daha bir məqam isə argentinalı ulduz oyunçusu Messinin pley-off mərhələsində hələ də qol vura bilməməsidir. Bu rəqiblərin bütün müdafiəni ulduz hücumçunun zərərsizləşdirməyə yönəltdiyi ilə də izah oluna bilər. Amma yalnız səbəb bu da deyil. Messi dahi futbolçu olsa da, ona qol vurmaq üçün komanda yoldaşları şərait yaratmalıdır. Argentinada isə komanda oyunu ya çox zəifdir, ya komandada atmosfer istənilən səviyyədə deyil. Zənnimizcə, Argentina bu çempionatda ilk dəfə bu gecə daha ciddi sınaq qarşısında olacaq. Büdrəsə, evə gedəcək...

Hollandiya ilə oyun ərəfəsi Messi ilə bağlı maraqlı statistika açıqlanıb. Məlum olub ki, Argentina yığmasının hücumçusu uğurlu aldadıcı hərəkətlərin və qol məqamlarının sayına görə dünya çempionatının lideridir.

27 yaşlı futbolçu rəqiblərini driblinqin köməyi ilə 29 dəfə geridə qoyub və rəqib qapıları önündə 19 qol vəziyyəti yaradıb.

Argentina millisi yarımfinal oyununa ciddi itkilərlə çıxmalı olacaq. Nigeriya ilə oyunda zədələnən Serxio Aquerodan sonra Anxel di Mariya da sıradan çıxıb. Xüsusilə Anxel di Mariyanın sıradan çıxması Argentinanın hücum xəttinin zəifləməsi və Messinin işinin daha da çətinləşməsi deməkdir.

**Hollandiya millisinin futbolçusu Bruno Martins komandasının Messiyə qarşı necə oynayacağından danışıb. O, Argentinanı məğlub edə biləcəklərini deyib:** "Argentinanın Belçika ilə oynadığı matçı izləmişəm. Belçika Argentina ilə oyunda çoxsaylı qol imkanları yaratmışdı. Düzdür, rəqib yaxşı futbolçulardan ibarət komandadır. Ancaq hər komandanın güclü və zəif tərəfləri var. Onları məğlub edə bilərik. Rəqib futbolçu Messiyə isə topun çatmasına imkan verməməliyik".

**Hollandiya millisinin məşqçisi Patrik Klüyvert Messidən çəkinmədiklərini deyib.**

**Onun dediklərinə diqqət yetirək:** "Soruşursunuz ki, biz Messini necə dayandıracağıq? Bəli, o, vacib oyunçudur. Amma bəs, Argentina Robbeni necə dayandıracaq?" Doğrudan da 1984-cü il təvəllüdlü bu hücumçu bu mundialın ən yaxşılarından hesab olunur. Robben sanki motor kimi işləyir, hücumdan orta xəttə qaçır, oradan müdafiəyə. Meksika və Kosta-Rika ilə görüşlərdə xüsusilə onun qarşısını almaq müşkülə çevrilmişdi. Bu oyunçunun sürətli və texniki oyunu Hollandiyanın əsas gücü hesab oluna bilər. Onun Meksika ilə oyunda "yıxılaraq" penalti qazanmasından sonra ona hakimlərin diqqəti daha da artıb. Hətta hərdən adama elə gəlir ki, Robben indi "yalançının evi yandı, heç kim inanmadı" durumuna düşüb...

**Uesli Sneynder də Robben haqda müsbət fikirlər səsləndirib. O, Robbeni Hollandiya yığmasının Messisi adlandırıb:** "Robben komandaya çox kömək edir. Oyunlarda rəqibin 2-3 futbolçusu onu zərərsizləşdirməyə çalışır. Bu zaman isə bizim istədiyimiz kimi oynağımız üçün imkan yaranır. Argentina üçün Messi necə önəmlidirsə, bizim üçün də Robben elədir". **Sneyder Argentina ilə matçın asan olmayacağını deyib:** "Argentina ilə oyun asan olmayacaq. Çünki rəqibimiz çox güclüdür. Amma biz özümüzə güvənirik. Argentina yığmasının futbolçuları oyunlara yaxşı formada çıxır. Biz də ən yaxşı oyunumuzu nümayiş etdirməyə çalışmalıyıq. O zaman qələbə qazanma şansımız daha çox olacaq".

Robben, Snayder və Van Persi "trio"su Hollandiyanın qələbə formulasıdır. Bu formulanı isə futbolu elm hesab edən baş məşqçi Lui Van Qal tapıb. Onun "qocaları" mundiala aparmaqda qınayanlar indi holland məşqçinin ünvanına təriflər yağdırırlar. Futbol mütəxəssislərinin rəyinə görə, Van Qal Braziliya çempionatında oyunun gedişində iki-üç dəfə taktikanı dəyişir ki, bu da yeni futbol tarixində görünməmiş hadisədir. Kosta-Rika ilə oyunun uzatma dəqiqələrində qapıçını dəyişməsi və bunun nəticəsində komandanın yarımfinala yüksəlməsi Van Qalın istedadlı məşqçi olduğunun daha bir sübutu kimi qiymətləndirilib.

**Yeri gəlmişkən, Hollandiya millisinin qapıçısı Yasper Silessen penaltilər seriyası öncəsi Lui van Qalın belə bir qərar verəcəyindən xəbərsiz olduğunu deyib:** "Penaltilər seriyasında da qapını qorumaq istərdim. Həmin vaxt Tim Krul daha yaxşı durumda idi. Buna görə də Lui van Qalın qərarını qəbul etmək məcburiyyətində qaldım".

Van Qal da rəhbərlik etdiyi komanda haqda xoş sözlər deyib: "Hazırkı Hollandiya millisi bu günə qədər işlədiyim ən yaxşı kollektivdir. Bunu ilk təlim-məşq toplanışında da hiss etmişəm".

**Van Qal qapıçı əvəzetməsini oyundan əvvəl planlaşdırdığını etiraf edib:** "Hələ matçdan əvvəl Tim Kruldan istifadə etməyi düşünürdüm. Sadəcə, Sillesenin məyus etməmək üçün bunu heç kimə bildirməmişdim. Əslində hər iki qapıçının öz üstünlükləri var. Ancaq Tim Krul penaltilər seriyasına qədər də komandanın ən yaxşılarından biri idi".

Qeyd edək ki, bu mühüm qarşılaşma türkiyəli referi Cüneyt Çakıra həvalə olunub. Onun köməkçiləri Bahəddin Duran və Tarık Ongun olacaq.

C.Çakır bunda əvvəl, Əlcəzair - Rusiya və Braziliya - Meksika görüşlərini idarə edib.

❑ **Orxan ƏLİYEV**






**Bu gecə yarımfinalda Argentina millisi Hollandiya ilə qarşılaşır; argentinalı ulduz üç oyundur ki, fərqlənə bilmir...**





YENİ MÜSAVAT

Son səhifə

N 174 (5883) 9 iyul 2014

# Bu Quran iplə yazılıb



Dünyanın iplə işlənən ilk Quranı "Ginnesin rekordlar kitabı"na düşəcək. Müqəddəs kitabı suriyalı Məhəmməd Maher Hadri hazırlayıb. Türkiyənin Başakşəhər bələdiyyəsi tərəfindən nümayişə çıxarılan Qurani Kərimin hazırlanması və cildlənməsi 12 il çəkib. Kitab Ramazan ayı boyunca Sular Vadisində sərgilənəcək. Məhəmməd Maher Hadri özü ixtisasca dərzidir. Dünyada iplərlə işlənən ilk Qurani Kərim qızılı rəngli xüsusi saplarla parça üzərində həkk edilib. Onun sözlərinə görə, bu əsəri ortaya çıxarmaq istəyi Hələbdə işlədiyi zaman ortaya çıxıb, bu işdə ən böyük dəstəkçisi isə həyat yoldaşı olub. Suriyalı dərzi ölkəsində baş verənlərlə bağlı hər şeyini itirdiyini, ancaq bu əl işini xilas edə bildiyini deyib.



## 245 min avroluq kənd

İnternet satış mağazasında bir kənd satılır. İtaliyanın Calsazio kəndində olan 14 ev sahibləri tərəfindən satılır. Evlərin ümumi qiyməti 245 min avrodur. "Grand Paradiso" milli parkının ətəklərində olan kənddəki daş evlər hər kəsin diqqət mərkəzindədir. Hələ də 20 nəfərin yaşadığı kənddə evlərin satılma səbəbi fərqlidir. Kənd sakinləri evlərin hotel, restoran, tətil mərkəzi kimi istifadə edilməsini istəyirlər. Tək şərtləri isə evlərin tarixi görünüşünün dəyişdirilməməsidir. UNCEM təşkilatının üzvləri kəndi kim alarsa onun görəcəyi işlərə nəzarət edəcəyini açıqlayıblar. Çünki tarixi kəndin evlərinin tarixinə uyğun şəkildə təmir edilməsi çox önəmlidir.

Məlumat üçün bildirək ki, son zamanlarda İtaliyada iqtisadi vəziyyət pis olduğundan bir çox tarixi mülklər satışa çıxarılıb.

## 50 ildir zəncirlənən fil azadlığa çıxan kimi ağladı



Hindistanda 50 ildir ayaqlarından zəncirlə bağlı halda saxlanılan fil azadlığa çıxdığı zaman hər kəsi şoka salıb. Raju adlı fili xilas etmək üçün İngiltərədən gələn heyvan sevənlər hərəkətə keçiblər. İllərdir işgəncəyə məruz qalan fil ayaqları açıldığı zaman sevincindən ağlamağa başlayıb. 5,5 tonluq fil ayaqları açılandan sonra xeyli gəzərək azadlığın dadını çıxarıb. Azadlığa çıxdığı üçün ağlamağa başlayan fil ətrafdakıları da ağladıb.



## Dünyanın ən sürətli "Ferrari"si

Dünyanın ən sürətli "Ferrari"si kimi tanınan 963 at gücünə sahib "LaFerrari" qəza nəticəsində sıradan çıxıb. Monakoda baş verən qəza nəticəsində "Ferrari"nin ön hissəsi dağılıb. Qiyməti 1,2 milyon avro olan "Ferrari"yə çırpılan avtomobilin qiyməti isə 20 min avrodur. "LaFerrari"yə dəyən ziyanın nə qədər olduğu və qəzanın səbəbi tam olaraq bilinmir.

Qeyd edək ki, "LaFerrari" 100 kM sürəti 3 saniyədə yığa bilir. 2013-cü ildə bu nəqliyyat vasitəsindən 499 ədəd bazara çıxarılıb və qısa müddət ərzində hamısı satılıb.




## Qazandığı pulu bağışlayacaq

Amerikanın Tenesse ştatında yaşayan kişi lotereyadan ən yüksək məbləği qazanıb. 58 yaşlı Roy Cockrum bir neçə gün əvvəl qazandığı 260 milyon dolların çox hissəsini xeyriyyə qurumlarına bağışlayacağını açıqlayıb. Aktyor və ssenarist olaraq 20 il çalışan Cockrum pulunu sənət üçün xərcləyəcəyini deyir. Onun sözlərinə görə, pulunun insanların həyatını dəyişdirməsini istəyir.

## Ögey ana dəhşəti



Kambocanın Koh-Kong şəhərində yaşayan qadının 4 yaşlı ögey qızını 2 il ayağından zəncirləyərək saxladığı ortaya çıxıb. Qonşuların xəbər verməsindən sonra 43 yaşlı Pov Siphan adlı qadın polislər tərəfindən nəzarətə götürüb. Polislər evə gələrkən azyaşlı qızın ayağından zəncirlə bağlandığını görüblər. Balaca qız polislərə bir neçə dəfə susuz qaldığı üçün zərərli mayelər içdiyini deyib. Həbs edilən qadın uşağı səhər saat 7-dən axşam saat 17:00-a qədər ayağından zəncirlənmiş halda saxladığını deyib. Polis uşağın atası haqda məlumat verməyib. 4 yaşlı qız isə uşaq evinə təhvil verilib.




**QOÇ** - Ətrafınızda olan insanlar nə qədər səmimi davranarsa, günün ümumi mənzərəsi bir o qədər ürəyinizcə olacaq. Bu səbəbdən də ünsiyyətdə olduğunuz hər kəsin xoşrəftar olması vacibdir.

**BUĞA** - Olduqca rəvan gündür. Ulduzlar müdafiənizdə durduğundan qarşıya qoyduğunuz ədalətli məqsədləri reallaşdıracaqsınız. Şəxsi büdcənizdə müəyyən artımlar da gözlənilir.

**ƏKİZLƏR** - Ümumi məziyyətlərinə görə təzadlı bir gün yaşayacaqsınız. Həm xoş, həm də müəyyən qədər gərgin məqamların daşıyıcısı olacaqsınız. Tərəfinizi saxlayanlara dönük çıxmayın.

**XƏRÇƏNG** - Bəxtinizdə əsl biznes günü durur. İştirakçısı olduğunuz hər bir proses ürəyinizcə olacaq. Yeni təkliflərə laqeyd yanaşmayın. Saat 16-19 arası sevindirici hadisələrin şahidi olacaqsınız.

**ŞİR** - Risk etməyə dəyməz. Çünki bu təqvimdə qeyri-ənənəvi fəaliyyətlə məşğul olmaq uğurlu deyil. Yaxşı olar ki, əsas vaxtınızı ürəyinizə yaxın olan şəxslərlə birlikdə keçirəsiniz.

**QIZ** - Ulduzların düzümü gün ərzində maddi durumunuzun xeyli yaxşılaşacağını bəyan edir. Günün ikinci yarısı isə bu istiqamətdə xüsusilə əlverişlidir. Aldığınız dəvətlərdən imtina etməyin.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimdə sürprizlərlə dolu saatlar yaşayacaqsınız. Amma şəxsi işlərinizə müdaxilə edən adamlardan uzaq olmağa çalışmalısınız. Özünüz də yalan vədlər verməyin.

**ƏQRƏB** - Təxminən saat 15-ə qədər bəzi xoşagəlməzliklərlə rastlaşma ehtimalınız var. Ələlxüsus da qarşılıqlı münasibətlərdə ehtiyatlı olmalısınız. Sonrakı saatlar nisbətən sakit ötüşəcək.

**OXATAN** - Astroloji göstəricilərə inansaq, bu gün hansısa əlamətdar bir hadisənin şahidi olmalısınız. Odur ki, belə sürprizlərə hazırlaşın. Sağlamlığınıza diqqət yetirməyi də unutmayın.

**OĞLAQ** - Astroloji göstəricilər sevgi dolu bir gün yaşayacağınızı bəyan edir. Qarşı tərəfin tələblərinə ədalətli yanaşın. Bu təzadlı təqvimdə dedi-qodudan uzaq olun.

**SUTÖKƏN** - Özünüzü tənha hiss etməyin. Yoxsa günaha batarsınız. Ən azı ona görə ki, sizə qarşı rəğbət bəsləyənlər az deyil. Fikrinizi dağıtmaq üçün nahardan sonra gəzinti və qonaqlıqlarda olun.

**BALIQLAR** - Təzə xəbərlər eşidəcəyiniz gözlənilir. Bu, yeni təklif və ya dəvətlər şəklində də ola bilər. Hər halda, hər üç amilə hazır olmalısınız. Axşama yaxın münasibətlərdə ehtiyatlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Okeanda böyük sirr



Okeanlara atılan plastik zibillər qəribə şəkildə itirlər. On minlərlə ton ağırlığı olan zibillərin necə itdiyi mütəxəssislər tərəfindən araşdırılsa da, səbəbi bəlli olmayıb. Mütəxəssislər plastik zibillərin çox kiçik parçalara ayrılaraq, tapılmayacaq qədər kiçik ölçüyə çatdıqdan sonra itdiklərini deyirlər. Zibillər çox olduğundan onların suyun dibində uzun müddət qalması çox çətindir. İtaliyanın Caldiz Universitetində məsələ ilə bağlı araşdırmalar davam edir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 10.565

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.